İnam indeksi 06

Noyabr / 2021

















# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## ANALİTİK HESABAT

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

İNAM İNDEKSİ / 06
Xüsusi buraxılış

Aprel-noyabr 2021

# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

Sosioloji sorğu əsasında hazırlanmış
ANALİTİK HESABAT

Tədqiqat qrupu:
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti

Bakı - 2021

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu
**Redaktor:** Aqşin Məmmədov
**Dizayner:** Qurban Cəlilov

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2021

"Postmüharibə dövrü çox böyük çağırışlarla doludur və biz bunu məharətlə keçirik. Deyə bilərəm ki, postmüharibə dövrünün gündəliyini böyük dərəcədə biz tərtib edirik. Əlbəttə, qonşu ölkələrlə daim təmasda olmaq şərti ilə və onların narahatlığını nəzərə almaq şərti ilə".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# MÜNDƏRİCAT

GİRİŞ....................5

TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ....................10

I BÖLMƏ. POSTMÜHARİBƏ DÖVRÜNDƏ İCTİMAİ, SOSİAL-İQTİSADİ VƏZİYYƏT VƏ GÖZLƏNTİLƏR

1.1. Cəmiyyətin mənəvi-psixoloji vəziyyətinin, əhval-ruhiyyəsinin qiymətləndirilməsi....................13
1.2. Ölkənin sosial-iqtisadi və siyasi vəziyyətinin qiymətləndirilməsi....................15

II BÖLMƏ. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BÖYÜK QAYIDIŞ VƏ QURUCULUQ TƏDBİRLƏRİ/LAYİHƏLƏRİ

2.1. Böyük Qayıdış planlarına ictimai münasibət....................20
2.2. Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının tarixi, siyasi, iqtisadi perspektivlərinə münasibət....................22
2.3. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə münasibət....................23
2.4. Qarabağda ermənilərlə birgəyaşayışa münasibət....................29
2.5. Prezidentin işğaldan azad edilmiş ərazilərdə tarix, mədəniyyət və dini abidələrin bərpası ilə bağlı fəaliyyətinə münasibət....................31

III BÖLMƏ. PREZİDENTİN SƏFƏRLƏRİNƏ, GÖRÜŞLƏRİNƏ VƏ MÜSAHİBƏLƏRİNƏ MÜNASİBƏT

3.1. Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə münasibət....................33
3.2. Prezidentin Rusiyaya işgüzar səfərinə münasibət....................34
3.3. Şuşa Bəyannaməsinin hərbi-siyasi və iqtisadi aspektlərinə münasibət....................35
3.4. Prezidentin türk dövlətlərinin birliyinin möhkəmlənməsində roluna münasibət....................38
3.5. Prezidentin Qələbənin memarı kimi qlobal platformalarda çıxışlarına münasibət....................40
3.6. Prezidentin gənclər siyasətinə ictimai münasibət....................41

IV BÖLMƏ. PREZİDENTİN MÜXTƏLİF İSTİQAMƏTLƏRDƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT

4.1. Prezidentin ordu quruculuğu, xarici siyasət, əhalinin mülki təhlükəsizliyi, sosial müdafiə və kadr islahatları sahələrində fəaliyyətinə münasibət....................43
4.2. Dövlət orqanlarının, nazirlik, komitə və xidmətlərin fəaliyyətinə münasibət....................47
4.3. Prezidentdən əsas ictimai gözləntilər....................50
4.4. Prezidentin fəaliyyətinə dair informasiya mənbələri....................52

V BÖLMƏ. İNAM VƏ ETİMADIN DİNAMİKASI

5.1. Prezidentə inam və etimad....................53
5.2. Milli Məclisə və məhkəmə orqanlarına inam və etimad....................54
5.3. Yuxarı və yerli icra hakimiyyəti orqanlarına inam və etimad....................55

NƏTİCƏ....................57

# GİRİŞ

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən ötən dövrlərdəki ənənəyə uyğun olaraq, Prezidentin cari ilin ikinci yarısı üzrə yüksək ictimai-siyasi fəaliyyəti vətəndaş rəyində qiymətləndirilib. İctimai rəy sorğusu təqvim etibarilə mühüm tarixi məqama - postmüharibə dövrünə, Qarabağın bərpa və quruculuq mərhələsinə təsadüf edib. Ötən bir neçə il ərzində dövlət başçısının siyasi iradəsi ilə aparılan genişmiqyaslı struktur və kadr islahatları yeni hakimiyyət quruculuğu kimi xarakterizə olunarkən, müharibədən sonrakı tarixi keçid qalib dövlət və cəmiyyət həyatı üçün yeni dövrün başlanğıcı kimi səciyyəvidir. Bu dövr ərzində Azərbaycan xalqı siyasi liderinin milli maraqlara və qətiyyətli iradəyə əsaslanan qərarları sayəsində Qarabağda əldə edilən şanlı Zəfərin siyasi, diplomatik, hüquqi, hərbi strateji və informasiya müstəvilərində ardıcıl və davamlı möhkəmləndirilməsinin, qələbəmizin beynəlxalq və qlobal miqyasda özünütəsdiqinin şahidi olub. Yeni dövrün siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan müxtəlif aktual hadisələri, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri, beynəlxalq və yerli əhəmiyyətli bir sıra tədbirlər, ictimai əhval-ruhiyyə, Prezidentə inam və etimadın dinamikası, dövlət başçısının müxtəlif istiqamətlərdə fəaliyyəti rəy sorğusunda əhatə olunub.

Keçirilən əvvəlki sorğuların və cari sorğunun nəticələrinin təhlili Prezident amilinin Azərbaycan cəmiyyətində, ictimai təfəkkürdə ümummilli maraqlar baxımından birləşdirici, uzlaşdırıcı əsas güc mərkəzi olduğunu göstərir. Hazırkı nəticələr dövlət başçısının fəaliyyətinə ictimai münasibətin ötən dövrlə müqayisədə ən yüksək göstəriciləri olduğunu deməyə əsas verir. Bu nəticələrdə ölkə rəhbərinin birbaşa müşahidəsi, nəzarəti altında azad olunmuş ərazilərin bərpası və quruculuq tədbirləri, həyata keçirilən uğurlu investisiya layihələri, keçmiş qaçqın və məcburi köçkünlərlə mütəmadi görüşləri, çoxsaylı ölkədaxili və xarici işgüzar səfərləri, milli maraqları üstün tutan prinsipial mövqeyi, informasiya cəbhəsində, müxtəlif platformalarda işğalın nəticələrini və regionda vəziyyəti əks etdirən çıxışları, digər istiqamətlərdə fəaliyyəti mühüm faktor kimi çıxış edir.

Postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci il dövlət başçısının fəaliyyətində, həmişə olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə xarakterikdir. Təkcə ilin əvvəlindən dekabr ayına qədər olan dövrdə dövlət başçısı tərəfindən ictimaiyyətə açıq məlumatlara əsasən beynəlxalq və yerli səviyyəli 60-dan çox görüş və səfər, 40-dan çox müşavirə, müsahibə və mətbuat konfransı səviyyəli tədbirlərdə çıxış, 100-dən artıq qəbul, xarici ölkə başçıları və rəsmiləri ilə 40-dan artıq telefon danışığı, əsas hissəsi işğaldan azad olunan əraziləri əhatə etməklə 120-dən çox təməlqoyma və açılış mərasimi həyata keçirilib. Ümumi fəaliyyətin icmalı xarici siyasət, daxili siyasət, sosial və iqtisadi sahələr üzrə nəzərdən keçirilə bilər.

### Xarici siyasət

2021-ci il ölkədə xarici siyasət strategiyasının uğurla davamı, eləcə də postmüharibə şəraitinin yaratdığı yeni geosiyasi konfiqurasiya baxımından növbəti irəliləyişlərin, müsbət dəyişikliklərin başlanğıcı hesab oluna bilər. Bu baxımdan Prezidentin xarici siyasət istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb etməklə, burada xüsusi aktuallıq daşıyan müəyyən hadisələrə yer verilməsi məqsədəuyğun hesab olunur.

Cari il ərzində dövlət başçısının xarici siyasət üzrə fəaliyyəti çoxşaxəli olmaqla, xüsusən ötən il qazanılan hərbi-siyasi qələbənin beynəlxalq arenada və diplomatik masada möhkəmləndirilməsi ilə səciyyəvidir. Dövlət başçısı tərəfindən cari ilin əvvəlindən keçirilən 100-dən artıq qəbulun əksəriyyəti xarici siyasət istiqamətlidir. Bunlar arasında Rusiyanın xarici işlər naziri, Böyük Britaniyanın ixracat naziri və BP qrupunun baş icraçı direktoru, BMT rəsmiləri, ABŞ Dövlət katibinin nümayəndəsi, Belarusun müdafiə naziri, Xorvatiyanın, Çex Respublikasının, Serbiyanın və Slovakiyanın xarici işlər nazirləri və Türkiyə Respublikasının müxtəlif ali səlahiyyətli şəxsləri, həmçinin Rusiyanın, Qazaxıstanın və Qətərin baş nazir müavinləri ilə keçirilən görüşlər ayrıca qeyd oluna bilər. Dövlət başçısı tərəfindən qəbulların və keçirilən görüşlərin ümumi mənzərəsi Azərbaycanın xarici siyasət istiqamətində çoxtərəfli əməkdaşlıq formatlarına üstünlük verməsinin, region və dünya ölkələri ilə sıx münasibətlər qurmasının göstəricisidir.

Bunlarla yanaşı, dövlət başçısı tərəfindən ölkələrarası ikitərəfli əlaqələrin gücləndirilməsi məqsədilə Gürcüstanın baş naziri ilə, həmçinin

iqtisadi-ticari münasibətlərin, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin genişləndirilməsi istiqamətində Qırğızıstan və Tacikistan prezidentləri ilə görüşlər keçirilib. Qeyd edək ki, Qırğızıstan Azərbaycanın vaksin yardımı göstərdiyi ölkələr sırasında olub. Ayrıca, müxtəlif sahələrdə əməkdaşlığın artırılması məqsədilə Pakistan və İran islam respublikalarının prezidentləri ilə görüşlər keçirilib. Pakistan ötən dövrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar qəti və prinsipial mövqe tutan ölkələrdən biri kimi yadda qalıb.

Xarici siyasət istiqamətində Prezidentin müxtəlif ölkələrə səfərləri, xüsusən Soçi şəhərinə işgüzar səfəri və Rusiya Federasiyasının Prezidenti ilə ikitərəfli görüşü, ölkə rəhbərinin Türkmənistan səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirakı, Türkiyə Respublikasına səfəri çərçivəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü və "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması xüsusi əhəmiyyəti baxımından diqqətə çatdırıla bilər. Prezidentə region və dünya ölkələrinin rəhbərləri tərəfindən göstərilən yüksək münasibət və rəğbət onun timsalında Azərbaycanın strateji mövqeyini, beynəlxalq imicini yüksəltməklə, üstün liderlik keyfiyyətləri ilə yanaşı, həm də dövlət başçısının rəhbərliyi ilə həllini tapan münaqişənin regionun inkişafı üçün açdığı imkanlardan, bütün türk dünyası üçün əhəmiyyətindən və beynəlxalq miqyasda yaratdığı yeni fürsətlərdən irəli gəlir. Dövlət başçısı regionun çoxtərəfli inkişafı məqsədilə qonşu ölkələr arasında fərqli əməkdaşlıq platformalarını vahid platformada birləşdirən “3+3” formatının təşəbbüskarı kimi çıxış edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Müzəffər Ali Baş Komandan otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyaraq beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk edən lider kimi adını tarixə yazıb.

### Daxili siyasət

2021-ci lin yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə, həmçinin martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayında etdiyi videoformatda çıxışlarında Prezident Vətən müharibəsində qazanılmış Zəfərin xalqımızın tarixində müstəsna yerini və Zəfərə gətirən yolun geniş təhlilini verməklə yanaşı, postmüharibə dövründə qarşıda duran bir sıra məsələlər, o cümlədən daxili siyasət, sosial-iqtisadi vəziyyət, kadr islahatları və inzibati idarəçilik sahəsində prioritetləri və hədəfləri də müəyyən edib. İlk növbədə Prezidentin təşəbbüsünə cavab olaraq Vətən müharibəsi dövründə ölkənin siyasi qüvvələri arasında yaranmış dialoq və həmrəylik mühitinin postmüharibə dövründə də davam etdirilməsi, siyasi sistemin gücləndirilməsi istiqamətində cari ildə çox mühüm addımlar atılıb. Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsi olaraq iqtidar-müxalifət dialoqu, yeni siyasi konfiqurasiya qurulub, siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirilib və hər bir görüşün nəticələri təhlil olunaraq irəli sürülən təkliflər öyrənilib, həmçinin “Siyasi partiyalar haqqında” yeni qanun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilib.

Siyasi partiyaların mütləq əksəriyyəti Vətən müharibəsinin baş verdiyi günlərdə, həmçinin sonrakı dövrlərdə  xarici təhdidlərə qarşı birlik nümayiş etdirərək 8 birgə bəyanat və 2 birgə müraciət imzalayıb. Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, habelə tanınmış politoloq və siyasi şərhçilərin 2021-ci il martın 17-də Ağdama, oktyabrın 7-də isə Şuşa şəhərinə səfərləri təşkil edilib.

Prezidentin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasətçilər arasında sağlam əməkdaşlıq münasibətlərinin formalaşması, eləcə də dayanıqlı dialoq ənənələrin dərinləşməsinə xidmət edir. Təşviq edilən dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Eyni zamanda siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Siyasi həmrəyliyin təcəssümü olan siyasi dialoqun ölkəmizdə mövcudluğu, eyni zamanda siyasi sabitliyi təmin edən əsas amillərdən biridir.

2021-ci ildə də ölkədə iqtisadi və siyasi islahatların sinxron-paralel aparılması diqqət mərkəzində saxlanılıb. Prezident Azərbaycan iqtisadiyyatının regional və sektoral strukturunun dəyişdiyini, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtmasını və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivinin yeni reallıqlar yaratdığını nəzərə alıb cari il iyulun 7-də “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərman imzalayıb. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü xüsusən Qara-

bağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək, ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatların aparılmasına xidmət edəcək. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq. Əksər regionların iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən yeni bölgü bu sahənin inkişafı üçün də yeni perspektivlər açır.

Bu islahatların davamı olaraq Prezidentin müvafiq sərəncam ilə təhsildə şəffaf və səmərəli idarəetmə sisteminin formalaşdırılması, maliyyə və inzibati resursların vahid təhsil siyasətinə uyğun planlaşdırılması və təhsil idarəçiliyinin qarşıda duran vəzifələrə adekvat qurulması, ümumilikdə Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi məqsədilə bu qurumun 12 regional idarəsi yaradılıb.

Cari ildə Prezidentin fəaliyyətinin əsas konturlarından biri də kadr islahatlarının aparılması olub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi ekspertlər tərəfindən yerli idarəetmənin iqtisadi rayonlar üzrə transferi baxımdan yeni yanaşma kimi də qiymətləndirilir. Bu kontekstdən yanaşanda yuxarıda qeyd edilən təhsil sektorunda idarəetmənin təkmilləşdirilməsi də institutsional islahatların tərkib hissəsi kimi xarakterizə edilə bilər.

Postmüharibə dövründə orduda struktur və kadr islahatlarının aparılması, onun say tərkibinin artırılması istiqamətində də bir sıra sənədlər imzalanıb. Silahlı Qüvvələrin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Prezidentinin 2021-ci ildə fəaliyyətinin əsas vektorlarında biri kimi diqqət çəkir.

Cari ildə ölkədə koronavirus pandemiyasına qarşı aparılan məqsədyönlü mübarizə tədbirləri davam etdirilib. STM-in bu mövzuda apardığı sorğuların nərticələri də göstərir ki, vətəndaşların əksəriyyəti dövlətin əhalinin vaksinasiyası və bu prosesin təşkili ilə bağlı fəaliyyətini yüksək qiymətləndirir. Azərbaycan pandemiya ilə mübarizənin nəticələrinə, eyni zamanda vaksinləşmə siyasətinə görə öncül mövqe tutmaqla yanaşı, həm də qlobal səviyyədə öz töhfəsini verib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədri olaraq ötən il Prezident İlham Əliyevin təşəbbüsü ilə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirilib. Qoşulmama Hərəkatının Sammitində Prezident BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənib. Eyni zamanda, dövlət başçısı BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürüb. Bu məsələyə Prezident Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2021-ci ilin noyabrın 4-də "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunun açılış mərasimində etdiyi çıxışında da yer ayırıb: "Biz qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik... bizim təşəbbüsümüzlə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-ə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Qoşulmama Hərəkatının sədri qismində biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı etmişik. Biz təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etmişik. Eyni zamanda, biz yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə töhfəsi etmişik. Bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Əlbəttə, beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək".[1]

Göründüyü kimi, pandemiyanın və müharibənin təsirlərinə baxmayaraq ölkəmiz məhz Prezident İlham Əliyevin praqmatik addımları, liderlik düşüncəsi ilə təkcə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqtisadiyyatın dirçəldilməsi, regional təhlükəsizliyin qorunması,

*[1] Prezident İlham Əliyevin VIII Qlobal Bakı Forumunun açılış mərasimində nitqi. /04 noyabr 2021/ - https://president.az/articles/54230*

böyük bərpa-quruculuq işləri ilə kifayətlənmir, eyni zamanda qlobal təşəbbüslərlə çıxış edir, yoxsul ölkələrin dəstəklənməsi üçün maliyyə və humanitar yardımlar edir.

Prezidentin hər bir çıxışında gənclərə böyük çağırışlar edilir. Vətən müharibəsində qələbəmizin qazanılmasında gənclərin böyük rolunu qeyd edən dövlət başçısı gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Cari ilin sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən o, bir daha bu kimi məqamlara xüsusi diqqət yönəldib, gənc nəslin mənfi xarici təsirlərdən uzaq olmasını, onların savadlı, bilikli olmasını xüsusilə qeyd edib. Prezidentin müvafiq fərmanları ilə Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun və Təhsilin İnkişafı Fondunun yaradılması, həmçinin gələn ilin təhsil xərclərinə büdcədən 3 milyard 884 milyon manat vəsaitin ayrılması gənclərə dövlət qayğısının növbəti bir göstəricisi kimi qiymətləndirilə bilər.

**Sosial və iqtisadi sahələr**

Azərbaycan sosial-iqtisadi inkişafının mühüm tarixi dönüş mərhələsini yaşamaqdadır. Qazanılan zəfər yeni geosiyasi reallıqla yanaşı, Azərbaycanın regionda iqtisadi rolunu yüksəldir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” əsasında inklüziv cəmiyyət quruculuğu ilə yanaşı, qeyri-neft sektorunun iqtisadi inkişafın mərkəzinə çevrilməsi, iqtisadiyyatda bu sektorun payının artırılması qarşıya qoyulan hədəflərin çərçivəsini müəyyən edir. Eləcə də, işğaldan azad olunan ərazilərin, zəngin resursların ölkə iqtisadiyyatına reinteqrasiyası onu iqtisadi böyümənin və artımın əsas drayverlərindən birinə çevirir.

Ümumilikdə 2021-ci ildə Azərbaycanda aparılan islahatlar, o cümlədən yeni iqtisadi rayonlaşma, struktur islahatları, dövlət müəssisələrində korporativ standartların tətbiqi və biznes mühitinin təkmilləşdirilməsi iqtisadi səmərəliliyin artırılmasına hədəflənib. Cari il ərzində Azərbaycan “Doing Business” hesabatında 34-cü yerdən 28-ci yerə, “İqtisadi azadlıq indeksi” hesabatında 44-cü yerdən 38-ci yerə və “Qlobal kibertəhlükəsizlik” hesabatında 55-ci yerdən 40-cı yerə yüksəlib.

Qeyd olunanlar göstərir ki, 2021-ci il ərzində sosial və iqtisadi istiqamətlər Prezidentin ümumi fəaliyyət təqvimində əhəmiyyətli yer tutub. Fəaliyyətin əsas hissəsi bötüvlükdə cəmiyyətin, xüsusilə müharibədən zərər çəkənlərin rifahının yüksəldilməsi, Qarabağın, eləcə də ölkənin və regionun inkişafına stimul verəcək iqtisadi layihələrin həyata keçirilməsi sahəsində müxtəlif tədbirlərdən ibarət olub. Bu istiqamətlərdə fəaliyyət xronikasının icmalı əsasən bərpa və quruculuq prosesləri ilə səciyyələnir.

İşğaldan azad olunan ərazilərdə infrastruktur obyektlərinin təməlinin qoyulması, maddi-mədəniyyət nümunələrinin, tarixi irsin bərpası və açılış tədbirləri, yeni nəqliyyat-kommunikasiya layihələrinin icrasına başlanılması, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Bərdə-Ağdam avtomobil yollarının təməlinin qoyulması, Zəfər yolunun açılışı, Füzuli Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması, digər rayonlarda yeni hava limanlarının inşası, Şuşada Vaqif Poeziya günlərinin, Xarıbülbül festivalının təşkil olunması, şəhid ailələrini, müharibə əlillərini və Vətən müharibəsi qəhrəmanlarını, eləcə də bütövlükdə cəmiyyəti əhatə edən sosial dəstək paketlərinin həyata keçirilməsi, ictimaiyyət nümayəndələri ilə müntəzəm görüşlər dövlət başçısının bu istiqamətlərdə fəaliyyətinin əsas konturları hesab oluna bilər.

Cari il ərzində dövlət başçısı tərəfindən ölkənin digər regionlarının inkişafı da diqqət mərkəzində saxlanılıb. Daşkəsən, Naftalan, Goranboy, Şamaxı, Qəbələ, İsmayıllı, Bərdə, Tərtər rayonlarına, Gəncə və Sumqayıt şəhərlərinə, Naxçıvan MR-ə səfərləri yerli və ölkə əhəmiyyətli müxtəlif infrastruktur obyektlərinin təməlqoyma və açılış tədbirləri ilə xarakterikdir. Bütövlükdə bu qeyd olunanlar sosial-iqtisadi sahədə növbəti milli uğurların, irəliləyişlərin başlanğıcı hesab oluna bilər.

Postmüharibə dövründə sosial müdafiə sahəsində fəaliyyətin genişləndirilməsi dövlət siyasətinin prioritetləri arasında yer alıb. Dövlət başçısı tərəfindən xüsusən müharibə iştirakçılarının, qazilərin və şəhid ailələrinin rifahının yüksəldilməsi ilə bağlı müvafiq qurumlar qarşısında mühüm tapşırıqlar qoyulub. Ölkə rəhbərinin təşəbbüsü əsasında müharibədə əmək qabiliyyətini itirən şəxslərə və şəhid ailələrinə, həssas qruplara xüsusi yanaşma tətbiq olunub, sosial dəstək tədbirləri bu kateqoriyadan olan 31 mindən çox şəxsi əhatə edib. Sözügedən həssas qrupların müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri yaradılıb. Onların mənzil təminatının, sağlamlığının və rifahının yaxşılaşdırılması

istiqamətində müvafiq sərəncamlar imzalanıb.

Dövlət başçısının müvafiq sərəncamı ilə vətəndaşların rifahının yüksəldilməsi məqsədilə 2022-ci il üzrə minimum əmək haqqı, pensiya və müavinətlərin artırılması nəzərdə tutulub. Cari il ərzində müvafiq fərman və sərəncamlar əsasında Prezident təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7%, Azərbaycanın Milli Qəhrəmanı üçün 20%, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100%, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50%-dən çox artırılıb, Vətən Müharibəsi Qəhrəmanları üçün Prezidentin aylıq təqaüdü təsis olunub. Həmçinin müharibə iştirakçılarının, eləcə də səhiyyə xidmətinin ön cəbhəsində vuruşan həkimlərin müxtəlif medal və fəxri adlarla təltif olunması bu sahələrdəki tədbirlərin davamı mahiyyətindədir.

Prezident İlham Əliyevin son 18 ildə yürütdüyü sosialyönümlü siyasətin istiqaməti təkcə sosial bərabərsizliyi aradan götürmək deyil, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətində kəskin fərqləri aradan qaldırmaq, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etmək məqsədi daşıyıb. 2022-ci ilin dövlət büdcəsində sosial xərclərin 46,4%-ə çatdırılması və 2021-ci illə müqayisədə 13,5%, yəni 1 milyard 650 milyon manat artırılması bunun bariz ifadəsidir.

Dövlət başçısının təşəbbüsü və təsdiqi ilə ölkə qanunvericiliyinin yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi sahəsində də müvafiq addımlar atılıb. Bu çərçivədə cari il ərzində şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər, məşğulluq, əmək pensiyaları, tibbi sığorta, işsizlikdən sığorta, Vergi Məcəlləsi, Əmək Məcəlləsi və digər qanunvericilik aktlarında təkmilləşdirmə işləri həyata keçirilib.

Cari il ərzində işğaldan azad olunan ərazilərin inkişafı və reinteqrasiyası, bölgənin iqtisadi inkişaf drayverinə çevrilməsi məqsədilə müxtəlif iqtisadi zonalar, sənaye və aqroparklar yaradılıb. Ağdam Sənaye Parkının, Şərqi Zəngəzur iqtisadi rayonunda “Araz Vadisi İqtisadi Zonası”-nın, “Dost Aqropark”ının, o cümlədən Ələt İqtisadi Zonasının təməlinin qoyulması, Hacıqabul Sənaye Məhəlləsinin açılışı tədbirləri bu sahədə xüsusi vurğulana bilər. Bütün bu tədbirlər Azərbaycanı təkcə tranzit ölkəsi kimi deyil, eyni zamanda regionun iqtisadi mərkəzinə çevirməyi hədəfləyir.

Beləliklə, xarici və daxili siyasət, iqtisadi və sosial istiqamətlər üzrə formalaşan yeni imkanlar və fürsətlər, iqtisadi cazibə məkanı və rifah cəmiyyəti quruculuğu ölkənin gələcək inkişaf perspektivləri baxımından tam nikbin təsəvvürdə olmağa əsas yaradır.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

### Metodoloji yanaşma

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyasından istifadə edilib. Sorğu Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonları üzrə keçirilib və 1162 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan yeni azad edilən ərazilər sorğuda əhatə edilməyib.

### Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilib ki, bu da hər bir vətəndaşa bərabər səviyyədə iştirak imkanı yaradıb. İlk mərhələdə sorğuda əhatə ediləcək yaşayış məntəqələri müəyyənləşdirilib. Növbəti mərhələdə isə sorğu aparacaq əməkdaşlar sahəyə çıxaraq, onlara təyin edilən məntəqələrdə müəyyən edilmiş istiqamətdə hərəkət ediblər. Hər üçüncü ev təsərrüfatı sorğuya dəvət edilib.

Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib. Belə ki, sorğuda hər bir sosial-demoqrafik qrupun (gender və yaş) çəkisi onların ölkə üzrə sayına mütənasib qaydada müəyyənləşdirilib. Beləliklə, rəyi öyrənilənlərin 51,2%-i kişi, 48,8%-i qadınlardan ibarət olub. Yaş qrupları üzrə isə 56-65 yaş qrupundan olanlar nisbi üstünlük təşkil edib (23,1%).

Sorğuda əhatə olunan respondent sayına (1162 nəfər) əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.9% təşkil edir.

Genişmiqyaslı tədqiqatdan öncə 10 respondentlə sınaq tədqiqatı keçirilib. Sınaq nəticəsində anketdə lazımi düzəlişlər edilib.

### Sorğu anketi

Sorğu anketi 37 (33 spesifik və 4 sosial-demoqrafik) sualdan ibarətdir. Suallar əsasən Prezidentə inam və etimadın ölçülməsi, Prezidentin səfərlərinə, görüşlərinə, müsahibələrinə münasibət, Qarabağda quruculuq və bərpa proseslərinə ictimai mövqe, müxtəlif istiqamətlərdə fəaliyyətin dəyərləndirilməsi, postmüharibə dövründə ictimai, sosial-iqtisadi vəziyyət və əsas gözləntilər, Prezidentin fəaliyyətinə dair informasiya mənbələrini öyrənmək hədəflərində hazırlanıb.

### Təlimat

İntervüyerlər üçün təlimat qaydaları hazırlanıb. İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən təşkil edilən müvafiq təlimdə iştirak ediblər. Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazırlıq keçiblər. Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

### Sorğunun aparılması üsulu

Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, sorğular planşetlər vasitəsilə həyata keçirilib. Son illər ABŞ-da və Böyük Britaniyada daha geniş tətbiq olunan və müasir sorğu proqramı kimi qəbul edilən SurveyToGo proqramından istifadə edilib. Bu proqram sorğu heyətinin işinə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından bir sıra üstünlüklərə malikdir.

### Sahə işi

Sahə işi 2021-ci ilin 22 noyabr – 2 dekabr tarixlərində keçirilib. Bir sorğunun orta davamətmə müddəti 21 dəqiqə 3 saniyə təşkil edib.

Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

### Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

## Tədqiqatın metodoloji prinsipləri

| | |
|---|---|
| Respondentlərin sayı | 1162 respondent |
| Respondentlərin seçimi | 18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb |
| Əminlik intervalı və xəta dərəcəsi | 95% və 2.9% |
| Məlumat toplama metodu | Sorğunun aparılmasında üz-üzə anket sorğusu üsulundan istifadə olunub |
| Sorğunun tarixi | Sahə işi 22 noyabr - 2 dekabr 2021-ci il tarixlərində aparılıb |
| Tədqiqatın əhatə dairəsi | Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Qarabağ, Şəki-Zaqatala, Mil-Muğam, Mərkəzi Aran, Şirvan-Salyan |
| Respondentlərin seçimində tətbiq edilən meyar | Yaş və gender balansı |
| Məlumatların işlənilməsi və təhlili | Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. |

## Demoqrafik göstəricilər

### Cins tərkibi

| Kişi | Qadın |
|---|---|
| 51.0% | 49.0% |

### Təhsil səviyyəsi

| Ali | Peşə-ixtisas | Orta |
|---|---|---|
| 27.8% | 26.4% | 45.8% |

### Yaş qrupu

| 18-25 | 26-35 | 36-45 | 46-55 | 56-65 | 65+ |
|---|---|---|---|---|---|
| 9.5% | 18.2% | 18.2% | 19.9% | 22.9% | 11.3% |

### Məskunlaşdığınız yer

| Şəhər | Qəsəbə | Kənd |
|---|---|---|
| 42.0% | 17.9% | 40.1% |

## Sorğunun keçirildiyi iqtisadi rayonlar



| | |
|---|---|
| Quba-Xaçmaz | 6.9% |
| Şəki-Zaqatala | 8.9% |
| Qazax-Tovuz | 8.9% |
| Gəncə-Daşkəsən | 5.0% |
| Dağlıq Şirvan | 3.0% |
| Bakı | 30.7% |
| Abşeron-Xızı | 5.0% |
| Mərkəzi Aran | 7.9% |
| Qarabağ | 5.0% |
| Mil-Muğan | 7.9% |
| Şirvan-Salyan | 2.0% |
| Lənkəran-Astara | 8.9% |

# I BÖLMƏ.

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ İCTİMAİ, SOSİAL-İQTİSADİ VƏZİYYƏT VƏ GÖZLƏNTİLƏR

## 1.1. Cəmiyyətin mənəvi-psixoloji vəziyyətinin, əhval-ruhiyyəsinin qiymətləndirilməsi

İctimai rəy sorğusu əsasında Azərbaycan cəmiyyətinin postmüharibə dövründə mənəvi-psixoloji vəziyyəti və əhval-ruhiyyəsi öyrənilib. Qeyd edək ki, ictimai əhval-ruhiyyədə nəzərəçarpan yüksəliş başlanğıc etibarilə müharibədən əvvəlki dövrə təsadüf etməklə müharibənin müsbət nəticələnməsinin mühüm determinantlarından birinə çevrilib. Aprel döyüşlərinin nəticəsi, həmçinin 2020-ci ilin fevral ayında keçirilən beynəlxalq səviyyəli Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevlə Ermənistan baş naziri arasında tarixi dialoq zamanı qazanılan möhtəşəm diplomatik uğur Prezidentin timsalında Azərbaycan cəmiyyətində psixoloji baryerin aşılması və düşmən üzərində mənəvi qələbənin mühüm nöqtəsi olub. Həmin ilin iyul ayında dövlət sərhədinin müxtəlif hissələrində düşmən təxribatı zamanı on minlərlə gəncin vətəndaşlıq mövqeyi və yüksək vətənpərvərlik hissi nümayiş etdirərək könüllü olaraq orduya yazılmaq istəyi və müharibəyə hazırlıq vəziyyəti milli ruh yüksəkliyinin və həmrəyliyin bariz nümunəsidir. Bu baxımdan 44 günlük Vətən müharibəsi düşmən üzərində təkcə hərbi qələbənin deyil, həm də Azərbaycan cəmiyyətinin mənəvi-psixoloji vəziyyətində, əhval-ruhiyyəsində yüksəlişin zirvəsidir.

Lakin müharibənin taleyindən asılı olmayaraq onun bütün tərəflər üçün acı nəticələr doğurması qaçılmazdır. Digər tərəfdən, qlobal təhdidə çevrilmiş pandemiyadan irəli gələn məhdudiyyətlər və davam edən sosial-iqtisadi nəticələr cəmiyyətin mənəvi-psixoloji vəziyyətinə təsirsiz ötüşmür. Bu baxımdan hadisələrin sürətlə cərəyan etdiyi hazırkı dəyişkən zaman kəsiyində cəmiyyətin əhval-ruhiyyəsi dinamik xarakter daşımaqla sorğu nəticələri məhz keçirildiyi dövrə aid vəziyyəti əks etdirir.

Nəticələrin təhlilinə görə respondentlərin təqribən yarısı, yəni 48,4%-i son günlərdəki mənəvi-psixoloji vəziyyətini yüksək, 31,2% respondent isə orta dərəcəli kimi qiymətləndirib. Mənəvi-psixoloji vəziyyətini narahat, gərgin kimi bəyan edənlər 20,5% təşkil edib.

❖ Aşağı və orta yaş qrupları ilə müqayisədə yuxarı yaş qrupuna mənsub respondentlər; orta və peşə təhsilinə malik olanlarla müqayisədə ali təhsilli respondentlər; aşağı və orta gəlir səviyyəsinə malik olanlarla müqayisədə yuxarı gəlirli respondentlər; şəhər və qəsəbədə məskunlaşanlarla müqayisədə kənd ərazi vahidlərində yaşayan respondentlər mənəvi-psixoloji vəziyyətlərini daha müsbət qiymətləndiriblər.

Postmüharibə dövründə cəmiyyətin mənəvi-psixoloji durumu üzərində müəyyənedici amillərdən biri kimi onun sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərin aşkar olunması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə vətəndaşlardan özünün və ailəsinin sosial-iqtisadi vəziyyətinin ötən illə müqayisədə hansı istiqamətdə, necə dəyişdiyi öyrənilib.

Qeyd edək ki, sosial-iqtisadi vəziyyətin, ictimai rifahın qiymətləndirilməsi müharibə faktoru ilə yanaşı, davam edən pandemiya ilə bağlı vəziyyətin mənfi nəticələrini nəzərə almağı şərtləndirir. Hazırda pandemiyanın qlobal səviyyədə dərinləşdirdiyi böhranlı sosial-iqtisadi vəziyyət, buradan irəli gələn təklif defisiti hətta inkişaf etmiş ölkələrdə belə inflyasiyanın rekord






səviyyələrə yüksəlməsinə yol açıb. Müxtəlif rəsmi məlumatlarda inflyasiya səviyyəsi ABŞ üzrə son 31 ilin, Avropa üzrə son 13 ilin ən yüksək həddinə çatıb, inflyasiya ilə mübarizə qlobal iqtisadiyyatın ən vacib gündəm maddələrindən birinə çevrilib. Qlobal dəyər zənciri daxilində milli iqtisadiyyatların ayrı-ayrı sektorları bu təsirlərdən sığortalanmış deyil.

Son bir il ərzində sosial-iqtisadi vəziyyətin dəyişmə meyli barədə sualları cavablandıran vətəndaşların 10,3%-i özünün (10,5%-i ailəsinin) sosial-iqtisadi vəziyyətinin ötən il ilə müqayisədə çox yaxşılaşdığını, 25,6%-i (eyni qədəri ailəsinin)  əsasən yaxşılaşdığını bildirib. Özünün və ailəsinin sosial-iqtisadi vəziyyətinin dəyişmədiyini bildirənlər müvafiq olaraq 32,9% və 33,7% təşkil edib. Sorğu iştirakçılarının 18,3%-i özünün (17,7% ailəsinin) sosial-iqtisadi vəziyyətinin əsasən pisləşdiyini, 12,7%-i (11,3% ailəsinin) çox pisləşdiyini qeyd edib. Respondentlərin 0,2%-i (1,2%) bu barədə fikir bildirməkdə çətinlik çəkib.

❖ Respondentlərin özünün və ailəsinin sosial-iqtisadi vəziyyətində dəyişiklik dinamikasında gender və yaş qrupları üzrə statistik əhəmiyyətli fərq müşahidə olunmasa da, ali təhsilli respondentlər orta və peşə təhsilinə malik respondentlərlə müqayisədə dəyişmə meylini daha müsbət yöndə dəyərləndirib. Həmçinin yuxarı gəlir səviyyəsinə malik olanlar aşağı və orta gəlir səviyyəsinə malik olanlarla müqayisədə sosial-iqtisadi vəziyyətindəki dəyişikliyi daha müsbət kimi qiymətləndirib. Kənd ərazi vahidlərində məskunlaşan respondentlərin əksəriyyəti sosial-iqtisadi vəziyyətindəki dəyişikliyi əsasən müsbət istiqamətdə qiymətləndirərkən, şəhərdə yaşayan respondentlər nisbətən mənfi yöndə dəyişdiyini bildirib.

❖ Nəticələrin təhlili respondentlərin maddi rifah vəziyyətinin onun mövcud mənəvi-psixoloji durumunda təsirli faktor olduğunu göstərir. Sosial-iqtisadi vəziyyətinin yaxşılaşdığını, yaxud pisləşdiyini bildirən respondentlər mənəvi-psixoloji durumu ilə də bağlı müvafiq olaraq müsbət, yaxud mənfi mövqedən çıxış edib (R=0,492 P<0,01).

Respondentlərin sosial-iqtisadi vəziyyəti onların ümumi həyat məmnuniyyəti səviyyəsində əsas amillərdən biri kimi çıxış edir. Məmnuniyyəti müəyyən edən əsas faktor kimi həyat keyfiyyəti səviyyəsinin sosial-iqtisadi faktorlara bağlılığı beynəlxalq tədqiqatlarla da təsdiqlənib. Ümumilikdə sorğu iştirakçılarının yarısından çoxu, yəni 58,4%-i həyat məmnuniyyətini müsbət qiymətləndirib (13,3% çox yaxşı, 45,1% əsasən yaxşı). Respondentlərin 31,4%-i həyat məmnuniyyətini orta dərəcəli (nə pis, nə yaxşı), təqribən hər 10 respondentdən biri isə (10,3%) həyat məmnuniyyətini mənfi kimi dəyərləndirib (4,5% çox pis, 5,8% əsasən pis).

❖ Həyat məmnuniyyəti göstəricilərində respondentlərin mənsub olduğu yaş qrupları və gender bölgüsü üzrə statistik əhəmiyyətli fərq qeydə alınmayıb. Ali təhsilli respondentlər orta və peşə təhsilinə malik olanlarla; yuxarı gəlir qrupuna mənsub olanlar aşağı və orta gəlir səviyyəsinə malik olanlarla; kəndlərdə məskunlaşan respondentlər şəhər və qəsəbələrdə yaşayanlarla müqayisədə həyat məmnuniyyətini nisbətən daha yüksək qiymətləndiriblər.



❖ Nəticələr arasındakı əlaqəyə görə, həyat məmnuniyyətini ümumilikdə yaxşı kimi qiymətləndirənlərin 50,1%-i sosial-iqtisadi vəziyyəti ötən illə müqayisədə yaxşılaşan, 34%-i dəyişməyən respondentlərdir. Həmçinin həyat məmnuniyyətini pis qiymətləndirənlərin 76,6%-i sosial-iqtisadi durumu pisləşən, 20,2%-i vəziyyəti dəyişməyən respondentlərdir ($X^2(16)=407{,}001$ $P<0{,}01$).

Ötən il qazanılan hərbi-siyasi uğurun davam edən müsbət nəticələri, ölkəmizin xeyrinə dəyişən yeni geosiyasi reallıq, azad olunan torpaqlarda böyük quruculuq və bərpa işləri, icrası nəzərdə tutulan nəqliyyat-kommunikasiya layihələrinin potensial faydaları kimi müxtəlif amillər fonunda cəmiyyətin öz rifahı ilə bağlı gələcəyə dair gözləntiləri nikbinliklə xarakterizə olunur.

Sorğuda iştirak edən vətəndaşların 20,4%-i növbəti il özünün (eyni qədəri ailəsinin) sosial-iqtisadi vəziyyətinin bu il ilə müqayisədə çox yaxşılaşacağını, 35,6%-i (36,2%-i ailəsinin) əsasən yaxşılaşacağını güman etdiyini bildirib. Özünün və ailəsinin rifahında heç bir dəyişiklik gözləmədiyini bildirənlər müvafiq olaraq 14,5% və 14,1% təşkil edib. Öz rifah vəziyyətinin cari il ilə müqayisədə əsasən pisləşəcəyini güman edənlər 7,8% (7,5% ailəsinin), çox pisləşəcəyini güman edənlər isə cəmi 6,6% (6,4% ailəsinin) təşkil edib. Respondentlərin 15,2%-i özünün (15,4% ailəsinin) gələcəyi ilə bağlı gözləntiləri dəyərləndirməkdə çətinlik çəkib.

❖ Nəticələrin təhlilinə əsasən, yaş və təhsil səviyyəsindən asılı olmayaraq sorğuda iştirak edən vətəndaşların növbəti ilə dair gözləntiləri nikbindir. Yuxarı gəlir səviyyəsinə malik olan respondentlərin aşağı və orta gəlir səviyyəsinə malik olanlarla, həmçinin kənd ərazi vahidlərində məskunlaşanların şəhər və qəsəbədə məskunlaşanlarla müqayisədə növbəti ildən gözləntiləri daha müsbətdir.

❖ Nəticələrin təhlilinə əsasən, respondentlərin sosial-iqtisadi vəziyyətində son bir il ərzində baş verən dəyişiklik meyli onun əsasən növbəti bir illə bağlı gözləntilərini də müəyyənləşdirib. Belə ki, sosial-iqtisadi vəziyyətinin ötən illə müqayisədə çox yaxşılaşdığını bildirən respondentlərin mütləq əksəriyyəti, yəni 94%-i bir il sonra da vəziyyətinin yaxşılaşacağı, 4,3% dəyişməyəcəyi, 1,8% pisləşəcəyi ehtimalını bildirib. Həmçinin hazırda rifahının keçən illə müqayisədə çox pisləşdiyini bildirən respondentlərin 46,7%-i bir il sonra daha da pisləşəcəyini, 22,1%-i dəyişməyəcəyini, 31,2%-i yaxşılaşacağını güman edib ($X^2(16)=478{,}381$ $P<0{,}01$).




## 1.2. Ölkənin sosial-iqtisadi və siyasi vəziyyətinin qiymətləndirilməsi

Sorğu çərçivəsində cəmiyyətin mənəvi-psixoloji durumunun və gözləntilərinin təhlili ilə yanaşı, ölkənin sosial-iqtisadi və siyasi istiqamətlərdə vəziyyətinə dair ictimai mövqe və proqnozlara da yer verilib. Nəticələrin təhlili qeyd olunan hər iki istiqamət üzrə respondent rəyləri arasında müsbət əlaqə olduğunu göstərir.

Pandemiyadan irəli gələn qlobal böhranın milli iqtisadiyyata davam edən təsirlərinə baxmayaraq, Azərbaycan cəmiyyəti azad olunan torpaqları ölkənin gələcək inkişafı üçün təkanverici resurs və iqtisadi artımın əsas drayverlərindən biri kimi dəyərləndirir. Dövlət başçısı tərəfindən postmüharibə dövrü üçün müəyyənləşdirilən hədəflərin, Qarabağda quruculuq və bərpa proseslərinin uğurla davam etdirilməsi, regionda ümumi geosiyasi vəziyyətin Azərbaycanın xeyrinə dəyişməsi, həyata keçirilən beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin ölkə iqtisadiyyatına gözlənilən faydaları, sülh və quruculuq prosesləri kimi müxtəlif amillər Azərbaycan cəmiyyətinin ölkənin mövcud sosial-iqtisadi vəziyyətini müsbət dəyərləndirməsində, xüsusən gələcəklə bağlı nikbin təsəvvüründə mühüm amillər kimi rol oynayır.

Ümumi nəticələr respondentlərin ölkənin hazırkı sosial-iqtisadi və siyasi vəziyyəti ilə bağlı müsbət mövqe sərgilədiklərini göstərir. Bu, eyni







zamanda onların özlərinin və ailələrinin gələcəyi ilə bağlı nikbin təsəvvürdə qərarlaşmasına imkan verən faktorlardan biridir.

Rəyi öyrənilənlərin 33,3%-i ölkənin mövcud sosial-iqtisadi vəziyyətini çox yaxşı, 45,6%-i əsasən yaxşı kimi qiymətləndirib. Sosial-iqtisadi vəziyyəti əsasən pis və çox pis kimi dəyərləndirənlər müvafiq olaraq 8,9% və 9,2% təşkil edib. Respondentlərin 3,1%-i bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkib.

Sorğu iştirakçıları arasında ölkənin mövcud siyasi vəziyyətini çox yaxşı kimi qiymətləndirənlər 46,4%, əsasən yaxşı kimi qiymətləndirənlər isə 38,4% təşkil edib. Respondentlərin 4,9%-i siyasi vəziyyəti əsasən pis, 4,0%-i isə çox pis hesab etdiyini bəyan edib. 6,3% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

❖ Mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, təhsil səviyyəsindən asılı olmayaraq ölkədə sosial-iqtisadi və siyasi vəziyyət respondentlər tərəfindən əsasən müsbət qiymətləndirilib. Həm sosial-iqtisadi, həm də siyasi vəziyyətin qiymətləndirilməsində respondentlərin gəlir səviyyəsi ilə müsbət münasibəti arasında düz mütənasib əlaqə mövcuddur. Həmçinin nəticələrin təhlilinə görə, şəhərdə yaşayan respondentlər qəsəbə və kəndlərdə məskunlaşanlarla müqayisədə ölkənin sosial-iqtisadi vəziyyətini nisbətən mənfi dəyərləndirib.

❖ Nəticələrin təhlili əsasında respondentlərin özlərinin sosial-iqtisadi vəziyyətini qiymətləndirməsi ilə ölkənin sosial-iqtisadi vəziyyətinə münasibəti arasında əlaqə olduğu aşkar edilib. Öz sosial-iqtisadi vəziyyətini müsbət, yaxud mənfi kimi dəyərləndirən sorğu iştirakçıları ölkənin sosial-iqtisadi vəziyyətinə də eyni mövqedən yanaşıb (R=0,44 P<0,01).

İstər qlobal məkan, istərsə də ölkə həyatı üçün son bir neçə il dinamik hadisələrlə xarakterikdir. Belə ki, ötən il dünya bazarında neft qiymətlərinin sürətlə ucuzlaşması, qlobal təhdidə çevrilmiş pandemiyanın dərinləşən sosial-iqtisadi nəticələri, eləcə də Ermənistanın hərbi təxribatları və genişmiqyaslı hərbi əməliyyatlar fonunda yaranan mürəkkəb vəziyyətdən Azərbaycan dövləti uğurla çıxmağı bacarıb. Cari il əldə olunan bu uğurların diplomatik masada və hərbi meydanda qorunub saxlanılması, azad olunmuş ərazilərin reinteqrasiyası, beynəlxalq səviyyəli görüşlərin və tədbirlərin təşkili, çoxtərəfli razılaşmaların əldə olunması, yeni nəqliyyat və infrastruktur layihələrinin icrası, müharibə iştirakçılarına və zərər çəkənlərə sosial dəstək tədbirlərinin göstərilməsi kimi çoxsaylı hadisələrlə yadda qalıb.

Bu baxımdan sorğu çərçivəsində sosial-iqtisadi və siyasi vəziyyətə münasibətlə yanaşı, cari il ərzində hadisələrin yüksək dinamikasından irəli gələrək vətəndaşların ölkədəki proseslərin ümumi gedişatına mövqeyi öyrənilib. Əldə olunan nəticələrə əsasən, yuxarıdakı tendensiyaya uyğun olaraq respondentlərin 75,9%-i ümumiyyətlə ölkədə işlərin düzgün istiqamətdə davam etdiyi, 12,9%-i isə yanlış istiqamətdə getdiyi mövqeyini bölüşüb. Respondentlərin 11,2%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

❖ Sorğuda iştirak edənlərin mütləq əksəriyyəti mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, gəlir və təhsil səviyyəsindən asılı olmayaraq ölkədəki proseslərin ümumi gedişatı ilə bağlı müsbət mövqedən çıxış edib.

Sorğu çərçivəsində vətəndaşlardan hazırda Azərbaycanda 5 əsas problem kimi hansı məsələləri gördükləri soruşulub. Rəylər arasında ilk sıralarda məşğulluğun təminatı (56,9%), qiymətlərin bahalaşması (53,1%), maddi təminat (30,6%) məsələləri qərarlaşıb. Qeyd olunan

problemlər postmüharibə şəraitinin yeni tələbləri və qlobal sosial-iqtisadi böhranın mənfi təsirləri çərçivəsində xüsusi aktuallıq kəsb etməklə, cari ilin yanvar-mart aylarını əhatə edən sorğu nəticələri ilə də uzlaşır. Belə ki, həmin sorğu zamanı məşğulluğun təminatı (53,2%), təhsilin vəziyyəti (43,3%) və maddi təminat (25,6%) məsələləri ictimai rəydə ilk sıralarda qərarlaşmışdı.

Cari sorğunun nəticələri xüsusilə müharibə iştirakçılarının, qazilərin məşğulluğunun təminatı, qlobal inflyasiya dalğalarının ölkə iqtisadiyyatına təsirlərinin azaldılması, pandemiyanın doğurduğu sosial-iqtisadi çətinliklərin aradan qaldırılması istiqamətində növbəti addımların atılmasına ictimai gözləntilər kimi əsaslandırıla bilər.

❖ Nəticələrin təhlilinə əsasən, məşğulluq məsələsi 18-25 yaş qrupu respondentlər üçün digər yaş qrupları ilə müqayisədə daha aktual məsələ kimi qərarlaşır. Bu mövqedə respondentlərin təhsil səviyyəsi statistik əhəmiyyətli fərq yaratmır. Qiymətlərin bahalaşması aşağı və yuxarı yaş qrupları ilə müqayisədə orta yaş qrupuna mənsub respondentlər; eləcə də yuxarı və orta gəlir səviyyəsinə malik respondentlərlə müqayisədə aşağı gəlir səviyyəsinə malik respondentlər üçün daha narahatedici məsələ kimi qeydə alınır. Maddi təminat məsələsi aşağı yaş qruplarına doğru digər yaş qrupları ilə müqayisədə daha çox aktuallıq daşıyır. Bu faktor respondentlərin təhsil səviyyəsindən, kənd, qəsəbə, yaxud şəhər üzrə məskunlaşmasından asılı olmayaraq mühüm əhəmiyyət kəsb edir.

❖ Ölkənin mövcud sosial-iqtisadi vəziyyətini müsbət mövqedən dəyərləndirən respondentlər Azərbaycanda əsas problem kimi qiymət artımını (46,2%), məşğulluğun təminatını (42,7%) və korrupsiya hallarını (19,1%) qeyd edir. Ölkənin sosial-iqtisadi vəziyyətini mənfi yöndən qiymətləndirənlər ölkədə əsas problemi kimi məşğulluğun təminatını (77,7%), qiymət artımını (54,5%) və insanların maddi təminatı (38,4%) məsələlərini bildirir ($X^2(63)=329,305$ P<0,01).

44 günlük Vətən müharibəsi təkcə Azərbaycan dövlətinin ərazi bütövlüyünün və ədalətin bərpası deyil, həm də xarici siyasət fonunda



yeni geosiyasi konfiqurasiyasının yaranmasıdır. Dünya döyüş tarixinə düşən uğurlu hərbi əməliyyatlar nəticəsində 30 illik münaqişənin qısa müddət ərzində həllini tapması və ölkə ərazisində işğalçı faktorun iflası Azərbaycanın beynəlxalq imicini yüksəltməklə onu regional siyasətin güclü və müstəqil subyektinə, regionun iqtisadi mərkəzinə çevirib. Azərbaycan dövləti regionun bütün istiqamətlər üzrə inkişafı baxımından qonşu ölkələr arasında fərqli əməkdaşlıq platformalarını vahid platformada birləşdirən "3+3" formatının təşəbbüskarı kimi çıxış edib. Türkiyə-Azərbaycan hərbi-siyasi müttəfiqliyi regionda sabitliyin və təhlükəsizliyin əsas qarantına çevrilib. Azərbaycan və Türkiyə arasında münasibətləri yeni müstəviyə daşıyan, strateji əməkdaşlığı dərinləşdirən Şuşa Bəyannaməsinin imzalanması 100 il əvvəl olduğu kimi Azərbaycanın təhlükəsizliyi üçün Türkiyənin xüsusi önəmini bir daha təsdiqləyib. Qarşılıqlı münasibətlərinin sıxlığı və əməkdaşlıq səviyyəsi baxımından Azərbaycan və Türkiyə dövlətləri dünyada analoqu olmayan nümunəyə çevrilib. Digər tərəfdən, Azərbaycan dövləti Rusiya Federasiyası ilə uzun tarixi keçmişə malik əməkdaşlıq münasibətlərini qoruyub saxlayıb, öz xarici siyasətini və regional-beynəlxalq münasibətlərini milli və regional inkişaf maraqları zəminində qurub.

Bütün bunları nəzərə alaraq, ictimai rəy sorğusunda ölkədaxili sosial-iqtisadi və siyasi vəziyyətlə yanaşı, xarici siyasət üzrə məsələlərə də münasibət öyrənilib. Azərbaycan cəmiyyətinin regional təhlükəsizliyin təminatı baxımından hansı ölkələrlə hərbi-siyasi əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə üstünlük verdiyi soruşulub. Sorğu nəticələrində yuxarıda qeyd olunan amillərdən irəli gələrək Türkiyə dövləti Azərbaycan ictimai rəyində xarici siyasət üzrə əsas müttəfiq və tərəfdaş ölkə kimi 91,4% göstərici ilə ilk sırada qərarlaşıb. "Regionun təhlükəsizliyi baxımından Azərbaycanın hansı ölkələrlə hərbi-siyasi əməkdaşlıq əlaqələrini genişləndirməsini istəyərdiniz?" sualına növbəti sıralarda 47,2%-lə Pakistan, 25,7%-lə Rusiya cavabları qeyd olunub.

❖ Nəticələrin təhlilinə əsasən, Türkiyə və Pakistan cavablarını qeyd edən respondentlər arasında təhsil və gəlir səviyyəsi, yaş qrupu üzrə statistik əhəmiyyətli fərq qeydə alınmayıb. Rusiya variantını aşağı və orta yaş qrupları ilə müqayisədə yuxarı yaş qrupları daha çox seçib.

Son olaraq vətəndaşların dövlətin daxili və xarici siyasəti fonunda növbəti aylar üçün proqnozları, gözləntiləri öyrənilib. Qeyd edək ki, postmüharibə dövründə cəmiyyətin nikbinlik sə-



viyyəsi, ruh yüksəkliyi, həmrəylik mövqeyi onun hazırkı vəziyyətlə yanaşı, gələcək gözləntilərinə də müsbət mənada təsir göstərib. Sorğu iştirakçılarının mütləq əksəriyyəti daxili və xarici siyasi vəziyyət üzrə gələcək imkanları müsbət mövqedən qiymətləndirib. 41,3% respondent gələcək aylarda daxili siyasətin əhəmiyyətli dərəcədə, 33%-i müəyyən qədər yaxşılaşacağı gözləntisini bölüşüb. 10,4% respondent hər hansı dəyişiklik gözləmədiyini qeyd edib. Cəmi 4,4% respondent vəziyyətin bir qədər pisləşəcəyi, 2,5% əhəmiyyətli dərəcədə pisləşəcəyi qənaətini ifadə edib. Rəyi soruşulanların 8,4%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

Azərbaycan cəmiyyəti daxili siyasətlə yanaşı, xarici siyasətin inkişaf meyli barədə də nikbin təsəvvürdədir. Belə ki, respondentlərin 51%-i xarici siyasət üzrə vəziyyətin əhəmiyyətli dərəcədə, 30%-i müəyyən qədər yaxşılaşacağı qənaətini bölüşüb. Respondentlərin 8,0%-i bu istiqamətdə hər hansı dəyişiklik gözləmədiyini, 2,8%-i vəziyyətin müəyyən qədər pisləşəcəyi, 2,0%-i əhəmiyyətli dərəcədə pisləşəcəyi ehtimalını ifadə edib. 6,4% respondent bu barədə fikir bildirməkdə qərarsız mövqe nümayiş etdirib.

❖ Nəticələrin təhlilinə əsasən yuxarı yaş qrupuna aid respondentlər aşağı yaş qrupları ilə müqayisədə, kənd ərazi vahidləri üzrə respondentlər şəhər ərazi vahidləri ilə müqayisədə daxili və xarici siyasət üzrə ölkənin gələcək vəziyyət ilə bağlı daha nikbin təsəvvürdədir. Sorğu iştirakçılarının təhsil və gəlir səviyyəsi üzrə müxtəliflik onların bu barədə mövqeyində statistik əhəmiyyətli fərq yaratmır.

❖ Əldə olunan nəticələrə görə respondentlərin xarici hərbi-siyasi əməkdaşlıq üzrə üstünlük verdiyi ölkələrdən asılı olmayaraq, onların mütləq əksəriyyəti ölkənin xarici siyasətini müsbət qiymətləndirir. Bu göstərici eyni zamanda Azərbaycanın bütün region ölkələri ilə balanslı əməkdaşlıq münasibətinin ictimai rəydəki təzahürü hesab oluna bilər.




Vətən müharibəsində qazanılan qələbədən 1 ilin ötməsini nəzərə alaraq, bu dövrün ictimai yaddaşda hansı hadisələrlə qalması öyrənilib. Sorğunun nəticələri göstərir ki, ictimai rəydə/tarixi yaddaşda Vətən müharibəsindəki Zəfərimizdən keçən 1 il xalqımızın Vətən müharibəsində qələbəmizin nə qədər böyük və tarixi hadisə olmasına bir daha əmin olması (54,4%), milli birlik və həmrəyliyin nümayiş olunması (34,8%), Azərbaycanın qalibiyyətinin dünyada geniş müzakirə olunması (34,3%), qalib xalq kimi tanınmağın vacibliyi, məğlub xalq hissinin yox olması (33%), ölkədəki hərbi vətənpərvərlik ruhunun daha da möhkəmlənməsi (23,4%), Zəfər yarmarkası və Zəfər yürüşünə xalqın böyük diqqət göstərməsi (21,8%), cəmiyyətdəki məğlubiyyət eyforiyası və psixoloji depressiyanın birdəfəlik aradan qalxması (15,6%) və xarici dövlətlərin Qələbə ilə bağlı təbrikləri (5,3%) ilə yadda qalıb.

# II BÖLMƏ.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BÖYÜK QAYIDIŞ VƏ QURUCULUQ TƏDBİRLƏRİ/LAYİHƏLƏRİ

## 2.1. Böyük Qayıdış planlarına münasibət

Prezident İlham Əliyevin hələ illər öncədən qarşıya qoyduğu, müəyyən etdiyi vəzifələrdən biri işğaldan azad edildikdən sonra rayon və şəhərlərimizin yenidən qurulması, "Böyük Qayıdış" proqramının həyata keçirilməsi idi. Bu vəzifənin real olaraq icrasına isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə başlanılmışdı. 2016-cı ilin Aprel qələbəsindən sonra Cocuq Mərcanlı kəndinin yenidən qurulması "Böyük Qayıdış"ın ilk addımı idi. Özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan 2021-ci ilin 27 sentyabr tarixində başlayan və 44 gün davam edən Vətən müharibəsində qazanılmış qələbə ilə öz ərazi bütövlüyünü bərpa etdi. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Böyük Qayıdış üçün bütün zəruri tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Qarabağa qayıdışın dövlət başçısı üçün prioritet olması onun çıxışlarında dəfələrlə qeyd olunub. Sosial Tədqiqatlar Mərkəzinin 2021-ci ilin birinci rübünü (yanvar-mart aylarını) əhatə edən və aprel ayının əvvəllərində (01-12 aprel tarixlərində) keçirilmiş ictimai rəy sorğusunda respondentlərin 84,6%-i Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə tam, 12,2%-i qismən razı olduğunu bildirmişdi. Bundan başqa, həmin sorğuda respondentlərin 81,8%-i postmüharibə dövrü üçün Qarabağda Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) müsbət qiymətləndirmişdi.

Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılmış "Qarabağ Dirçəliş Fondu"na vətəndaşlarımız tərəfindən edilən ianələr də göstərir ki, Qarabağın yenidən bərpası və ölkəyə reinteqrasiyası prosesində müharibə dövründə olduğu kimi postmüharibə - quruculuq dövründə də xalq Prezidentin, dövlətin yanındadır.

2021-ci il 2 fevral tarixli Prezident sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə böyük qayıdış məsələsi reallaşdırılmalı olan beş mühüm məsələlərdən biri kimi qarşıya qoyulub.

Hal-hazırda "ağıllı şəhər", "ağıllı qəsəbə", "ağıllı kənd" kimi layihələrin, hava limanlarının tikilməsi, yolların çəkilməsi, kənd təsərrüfatı və turizm sektoruna aid işlərin görülməsi, müxtəlif istehsal müəssisələrinin yaradılması, təbii ehtiyatların istifadəsinin inkişaf etdirilməsi və s. kimi mühüm proqramlar reallaşmaqdadır. İqtisadi və maliyyə tərəfindən başqa, bu prosesin çox əhəmiyyətli geosiyasi və tranzit-logistika aspekti də var. Çünki dünyanın müxtəlif ölkələri bərpa və yenidənqurma işlərinə həvəslə daxil olurlarsa, mütləq uyğun, sabit, təhlükəsiz hərəkət dəhlizinə ehtiyac da artır. Zəngəzur dəhlizi bu bağlılıqda dünya üçün strateji əhəmiyyət kəsb edir.

Bütün bu amilləri nəzərə alıb respondentlərə işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işləri ilə bağlı bir neçə sual ünvanlanıb. İlk növbədə respondentlərdən işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi, sosial həyat səviyyəsinin yüksəldilməsi və təhlükəsizliyə töhfənin verilməsi məqsədilə "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" layihələrinin tətbiq edilməsi ilə bağlı münasibət öyrənilib. Respondentlərin 72,7%-nin fikrincə, işğaldan azad olunmuş ərazilərdə qeyd olunan istiqamətlərdə layihələrin icra olunması tamamilə uğurlu olacaq, 19,6% respondent isə qismən uğurlu olacağını düşünür.

❖ Sorğuda iştirak edənlərin mütləq əksəriyyəti mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, gəlir və təhsil səviyyəsindən asılı ol-




mayaraq işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" layihələrinin tətbiq edilməsi ilə bağlı müsbət mövqedən çıxış edib. Belə ki, ümumi seçmənin gender bölgüsündən aydın olur ki, kişilərin 52,9%-i, qadınların isə 47,1%-i işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq layihələrinin tamamilə uğurlu olacağını düşünür ($X^2(4)=18,280$ $P<0,01$).

❖ Respondentlərin yaş səviyyəsinə görə nisbətən yaşlı nəslin nümayəndələri (65 və ondan yuxarı olanlar) bu layihələrin gələcəyinə daha nikbin baxır (76,4%).

❖ Təhsil səviyyəsinə gəlincə burada ciddi bir fərq müşahidə edilmir: orta təhsillilərin faiz göstəricisi (75,8%) peşə-ixtisas (71%) və ali təhsillilərə (68.9%) nisbətən az üstündür ($X^2(8)=20,173$ $P<0,01$).

Bunun əksinə olaraq respondentlərin çox az bir qismi (1,3%-i) bu layihələrin uğurlu olmayacağı fikrindədir.

Nəticələrin təhlilinə əsasən, 5,2% respondentin Qarabağda həyata keçirilən bu layihələr haqqında heç bir məlumatı yoxdur.

❖ Ümumi respondent sayında şəhər əhalisinin 5,3%-inin, qəsəbə əhalisinin 3,7%-nin, kənd əhalisinin isə 6,0%-nin bu layihələr haqqında heç bir məlumatı yoxdur.

❖ Qeyd edək ki, bu layihələrin tamamilə uğurlu olacağını qeyd edənlərin 18%-i, uğurlu olmayacağını deyənlərin isə 6,3%-i ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsinin barışı və birgəyaşayışı təmin edə biləcəyini bildiriblər ($X^2(3)=8,875$ $P<0,05$).

Bu kontekstdə əlavə edək ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın regionda Dördüncü Sənaye İnqilabı üzrə regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Dövlət başçısının 2021-ci il 6 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb. 19 aprel 2021-ci il tarixində Prezident tərəfindən "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" sərəncam imzalanıb.

Qeyd edək ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası əsasən 5 komponent üzrə aparılır: yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri. Zəngilandakı Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşəcək. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək. Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb.[2]

Qarabağ və Şərqi Zəngəzurun enerji təminatında bərpa olunan enerji mənbələrindən maksimum istifadə edilməsi və enerji dəyər zənciri mərhələlərində ekoloji təmiz, enerjisəmərəli, müasir

[2] *Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. /26 oktyabr 2021/- https://president.az/articles/53744*

və innovativ texnologiyaların tətbiqi də nəzərdə tutulur. Prezidentin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncamının icrası müvafiq sahədə görülən işlərə geniş imkanlar yaradır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar işlərin həyata keçirilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən Energetika Nazirliyinə 1 milyon 391,04 min ABŞ dolları ayrılıb. Bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar konsepsiya və baş planın hazırlanması üçün Yaponiyanın "TEPSCO" şirkəti cəlb edilib.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi, "yaşıl" iqtisadiyyatın formalaşdırılması da diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən oktyabrın 26-da Zəngilan rayonunda səfərdə olarkən "Dost Aqropark"ın təməlinin qoyulması da bu istəkdən xəbər verir. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.[3]

## 2.2. Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının tarixi, siyasi, iqtisadi perspektivlərinə münasibət

Postmüharibə dövründə Cənubi Qafqaz regionunda, o cümlədən Ermənistanda baş verən proseslər, xüsusilə revanşist qüvvələrin baş qaldırması, ermənilərin ATƏT-in Minsk qrupunun fəaliyyətini "diriltməyə" çalışması, danışıqlar prosesini Avropa İttifaqı platformasına daşımaq cəhdi Azərbaycanı daha strateji addımlar atmağa sövq etmişdir. Prezident İlham Əliyev bu cür mürəkkəb bir şəraitdə çox mühüm bir fərman imzalayaraq iqtisadi rayonların yeni bölgüsünü təsdiq etdi və ölkə iqtisadiyyatının idarə edilməsinin strateji mexanizmlərinin yenilənməsinə start verdi. Belə ki, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq olundu. Bu həm strateji, həm iqtisadi, həm də tarixi baxımdan kifayət qədər vacib və ədalətli bir qərardır. Fərmanda qeyd edilir ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu tədbirlərin daha səmərəli təşkilində yeni iqtisadi rayonlaşmanın strateji əhəmiyyəti olacaqdır.[4]

Fərmana əsasən, Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılaraq, ümumilikdə iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırıldı. Beləliklə, Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb.

Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi cari sorğunun nəticələri də göstərir ki, Prezidentin regionun idarəetmə strukturunun təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman respondentlər tərəfindən yüksək qiymətləndirilir. Belə ki, sorğuda iştirak edən respondentlərin əhəmiyyətli bir hissəsi (69,4%-i) Prezidentin fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının tarixi, siyasi, iqtisadi perspektivlərini tamamilə müs-




[3] *Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar. /26 oktyabr 2021/ - https://president.az/articles/53740*

[4] *Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /07 iyul 2021/ - https://president.az/articles/52389*

bət, 15,6%-i isə qismən müsbət qiymətləndirib.

❖ Gender bölgüsünə görə, kişi respondentlərin 75,6%-i, qadınların isə 62,9%-i Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tarixi, siyasi, iqtisadi perspektivlərini "tamamilə müsbət" qiymətləndiriblər ($X^2(4)=25,533$ $P<0,01$).

❖ Sorğunun nəticələri göstərir ki, Prezidentin bu fərmanının tarixi, siyasi, iqtisadi perspektivlərini dərk edib yüksək qiymətləndirənlərin sayı yaş səviyyəsi artdıqca daha da artır. Belə ki, əgər aşağı (18-25) və nisbətən orta (26-36) yaş qrupunda olan respondentlərin göstəriciləri müvafiq olaraq 64,9% və 63,7% təşkil edirsə, yuxarı yaş qrupunda, yəni 56-65 yaş aralığında olanlar arasında bu göstərici 72,1%, 65 və ondan yuxarı olanlar arasında isə 79,3%-dir ($X^2(20)=42,396$ $P<0,01$).

❖ Təhsil səviyyəsinə görə ali təhsillilər (79,6%) orta (64,4%) və peşə-ixtisas (68,2%) təhsillilərə nisbətən bu sərəncamın mahiyyətini daha yaxşı dərk edirlər ($X^2(8)=50,124$ $P<0,01$).

Son iki sualın cavabları göstərir ki, Qarabağ əhalisi mənsub olduqları regionda gedən prosesləri daha diqqətlə izləyir və yüksək reaksiya verirlər. Bu isə onların həmin ərazilərə tezliklə qayıtmaq istəyindən xəbər verir.

Nəticələrin təhlilinə əsasən, sorğuda iştirak edənlərin 11,2%-nin Prezidentin bu sərəncamı ilə bağlı heç bir məlumatı yoxdur.

❖ Maraqlıdır ki, sorğunun nəticələrinə görə yaşlı insanlar gənclərə nisbətən bu sərəncam haqqında daha məlumatlıdırlar. Bu da əhalinin nisbətən yaşlı kontingentinin gündəmdəki hadisələri daha çox izlədiklərini göstərir. Belə ki, 18-25, 26-35 və 38-45 yaşlı respondentlərin müvafiq olaraq 15,3%, 14,4% və 15%-nin bu sərəncam haqqında heç bir məlumatı yoxdur. 56-65 və 65-dən yuxarı əhali qrupu arasında heç bir məlumatı olmayanların nisbəti isə belədir: 6,4% və 8,6%.

❖ Təhsil səviyyəsinə gəlincə orta təhsillilər arasında heç bir məlumatı olmayanların faiz göstəricisi daha yüksəkdir: 17,2%. Ali və peşə-ixtisas təhsillilər arasında bu kateqoriya üzrə göstəricilər belədir: 3,5% və 8,3%.

Bununla bağlı qeyd edək ki, Qarabağ iqtisadi rayonunun yaradılması daha çox siyasi əhəmiyyət daşıyır. Qarabağın Azərbaycana bağlılığının siyasi və inzibati təsdiqi olan bu rayonun iqtisadi zona kimi formalaşması ilə "Dağlıq Qarabağ" məfhumu leksikonumuzdan silindi. Qarabağ bölgəsi yarandığı dövrdən özünəməxsus xüsusiyyətləri - məşğuliyyət formaları, təbii ehtiyatları, zəngin tarixi-mədəni irsi ilə daha çox yadda qalmışdır.

Zəngəzur iqtisadi rayonunun yaradılması 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar tarixli üçtərəfli razılaşmalarda qeyd olunan Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın siyasi iradəsinin məntiqi nəticəsidir. Həm də bu iqtisadi rayonun yaradılması tarixi ədalətin bərpasıdır. Yəni Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının Zəngəzur dağ silsiləsi ilə əhatə olunması, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində yerləşməsi, eyni coğrafi məkanda olması, 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində, yəni tarixən birlikdə olması həmin rayonların eyni iqtisadi zonada birləşməsini şərtləndirir.

Müharibədən sonrakı dövrdə baş verən proseslər, yeni reallıqlar regionda iqtisadi rayonlaşma prinsiplərinin müasir reallıqlara uyğunlaşdırılması və tənzimlənməsini zəruri edirdi. Buna görə də dövlət başçısının fərmanı bu məsələləri tənzimləməklə, iqtisadi rayonların yeni bölgüsünü yaratmaqla ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasına, işğaldan azad olunmuş ərazilərin milli iqtisadiyyatımıza reinteqrasiyasının sürətləndirilməsinə, planlaşdırma və proqnozlaşdırma tədbirlərinin daha yüksək səviyyədə təşkilinə imkan verəcəkdir. Bundan əlavə, xarici investisiyaların daha intensiv cəlb olunmasında, daxili investisiyaların məqsədli və səmərəli şəkildə yönəldilməsində, yeni maliyyə mənbələrinin yaradılmasında, əlavə dəyərin strukturunun diversifikasiyalaşdırılmasında yeni iqtisadi rayonların rolu və əhəmiyyəti artacaqdır. Artıq Nazirlər Kabinetinin 10 iyul 2021-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Fərmanının icrasının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülməkdədir. Belə ki, yeni iqtisadi rayonlaşma bölgüsü ilə bağlı müvafiq layihə və təkliflərin hazırlanması, razılaşdırma və təqdim edilmə tədbirlərinin görülməsi, qəbul edilən qərarların qanunvericilik çərçivəsində tənzimlənməsi istiqamətində real addımlar atılmaqdadır.

### 2.3. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə münasibət

Son illər həyata keçirilən genişmiqyaslı layihələr, qurulan əlaqələr bir daha göstərdi ki, beynəlxalq layihələr üçün Azərbaycan ərazisi sözün əsl mənasında regionun nəqliyyat qov-

şaqlarının habı rolunu oynayır. Prezident İlham Əliyevin praqmatik siyasəti ilə işğaldan azad olunmuş ərazilərimiz də bu nəhəng nəqliyyat habına inteqrasiya olunur. Vətən müharibəsindən ötən bir il ərzində Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 kilometrə yaxın 10 yol infrastrukturu layihəsinin – "Zəfər", Əhmədbəyli-Füzuli-Şuşa, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Talış-Tapqaraqoyunlu-Qaşaltı, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Füzuli-Hadrut, Bərdə-Ağdam avtomobil yollarının sürətlə reallaşdırılması istiqamətində mühüm işlər həyata keçirilib.

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Belə bir qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.[5]

Bu işlərin davamı olaraq cari ilin oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub.[6]

Qeyd edək ki, Zəngəzur dəhlizi Azərbaycanı bir neçə istiqamətdə region, Asiya və Avropa ilə birləşdirən strateji məkan statusunu ala bilər. Təcrübə göstərir ki, faktiki olaraq, dünyanın böyük gücləri Zəngəzur dəhlizinin bu funksiyasını - regional nəqliyyat arxitekturasını necə dəyişəcəyini artıq qəbul edib ona dəstək ifadə edirlər.

Zəngəzur dəhlizi həm tarixi aspektdə, həm müasir geosiyasi reallıqlar prizmasından, həm də Cənubi Qafqazda sülh, barış və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyır. Bu məsələ ərafında baş verən hadisələr göstərir ki, o, çoxparametrli, müxtəlif sahələri əhatə edən faktorlarla əlaqəlidir. Burada geosiyasi, siyasi, ideoloji, coğrafi, iqtisadi, sosial-mədəni, hüquqi və təhlükəsizlik məqamları bir-biri ilə çulğaşıb. Məhz həmin səbəbdən Zəngəzur dəhlizinin işə salınması adi hadisə deyil – onun arxasında müxtəlif vacib faktorlar dayanır.

Bütün bunları nəzərə alaraq, ictimai rəy sorğusunda vətəndaşlardan Zəngəzur dəhlizinin əhəmiyyətini necə səciyyələndirdikləri soruşulub (və onlara bir neçə cavab variantını seçə bilmək imkanı verilib). Respondentlərin fikrincə, Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması Azərbaycanın Türkiyə ilə əlaqələrini daha da gücləndirəcək (74%), Türk dünyasında birliyin güclənməsinə xidmət edəcək (54,7%), Azərbaycanın (Naxçıvanın) Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində iştirak imkanlarını genişləndirəcək (53,6%), Türkiyə və Azərbaycanın Türk dünyasına birbaşa çıxışını təmin edəcək (34,8%), Rusiya və Türkiyə arasında əlaqələri daha üst səviyyəyə qaldıracaq (33%), Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirəcək (31.9%), regionun təhlükəsizliyinə, bölgədə sülhə töhfə verəcək (23,5%), Azərbaycanın Gürcüstandan Qərbə çıxışında alternativə çevriləcək (8,5%), "Bir kəmər bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığını dərinləşdirəcək (8,4%).

Bunun əksinə olaraq, respondentlərin 6,9%-i belə düşünür ki, Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması Ermənistan və Azərbaycan arasında münasibətlərə təsir etməyəcək. 2,2% respondent ümumiyyətlə bu layihənin hər hansı siyasi, iqtisadi dəyişikliyə səbəb olmayacağı fikrindədir.

---

*[5] Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəfər yolunun açılışında iştirak ediblər. /07 noyabr 2021/- https://president.az/articles/54040*

*[6] Azərbaycan və Türkiyə prezidentləri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyublar. /26 oktyabr 2021/ - https://president.az/articles/53736*




❖ Bu suala verilən müsbət cavabların ən yüksək faiz göstəriciləri ilə bir neçə kateqoriya üzrə təhlili göstərir ki, sorğuda iştirak edənlərin mütləq əksəriyyəti mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, gəlir və təhsil səviyyəsindən asılı olmayaraq Zəngəzur nəqliyyat dəhlizinin əhəmiyyətini yüksək qiymətləndirir.

❖ Ümumi nəticələrin təhlilinə əsasən, "Zəngəzur nəqliyyat dəhlizi Azərbaycanın Türkiyə ilə əlaqələrini daha da gücləndirəcək" fikrinə ümumi respondent sayında kişilərin 75,6%-i, qadınların 72,3%-i müsbət münasibət bildirib. Nisbətən yuxarı yaş qrupunda olan (78.1%), təhsil səviyyəsinə görə peşə-ixtisas (77,8%) və ali təhsilli (75,5%), yüksəkgəlirli (77%) və şəhərdə yaşayan (75,1%) əhali qrupu razılığını ifadə edib.

❖ "Zəngəzur nəqliyyat dəhlizi Azərbaycanın (Naxçıvanın) Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində iştirak imkanlarını genişləndirəcək" fikrini təhsil səviyyəsinə görə ali təhsilli (67%), yaş səviyyəsinə görə 26-35 yaş arası əhali qrupu (59.5%) daha çox dəstəkləyib.

❖ "Zəngəzur nəqliyyat dəhlizi Türk dünyasında birliyin güclənməsinə xidmət edəcək" fikrinə yuxarı yaş qrupunda olan (62,9%), təhsil səviyyəsinə görə ali təhsilli (59,7%), yüksəkgəlirli (59,5%), şəhərdə yaşayan (56,6%) əhali qrupu daha müsbət yanaşıb.

Qeyd edək ki, tarixən ticari-iqtisadi və mədəni-mənəvi ünsiyyətin əsas yollarından biri olan qədim Azərbaycan torpağı Zəngəzur XX əsrin 20-ci illərindən 2020-ci ilə qədər türk dünyasını ayıran, azərbaycanlı qardaşları bir-birindən təcrid edən, bölgə xalqlarının əlaqələrini kəsən, dünya ticarətinin bu coğrafiyadakı yoluna ciddi əngəl olan bir məkana çevrildi. Məhz bu reallıq prizmasından II Qarabağ müharibəsinin Zəngəzur məsələsində nəinki region, hətta bütün dünya, o cümlədən türk dünyası üçün açdığı yeni imkanları tam təsəvvür etmək mümkündür. Noyabrın 12-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə Görüşündə bu məsələyə toxunan Prezident İlham Əliyev bildirmişdir: "Biz indi böyük bərpa işləri

ilə məşğuluq. Eyni zamanda, İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. O cümlədən hesab edirəm ki, nəqliyyat baxımından Zəngəzur koridorunun açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir. Zəngəzura gəldikdə, mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq".[7]

Respondentlərin cavablarından da göründüyü kimi, bu dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası ilə Türkiyəni birləşdirməklə yanaşı, Ermənistan, Rusiya, İran, həmçinin Asiya-Sakit okean regionu ölkələrinə, o cümlədən Çinə böyük fayda verə bilər. Çinin müxtəlif KİV orqanları, siyasətçiləri, analitikləri, iş adamları "Bir kəmər, bir yol" layihəsi çərçivəsində həmişə "Orta yol" adlandırdıqları nəqliyyat dəhlizinə ciddi önəm verir və həmin kontekstdə son zamanlar Zəngəzur dəhlizini mütləq vurğulayırlar. Prezident İlham Əliyev də Asiya-Sakit okean regionu ölkələrini Zəngəzur dəhlizinin yaradılması imkanlarına diqqətlə yanaşmağa dəvət edib.[8]

Onu da əlavə edək ki, Zəngəzur dəhlizinin açılması Gürcüstan marşrutuna alternativ deyil, onların bir-birini tamamlamasını ifadə edir. Çünki söhbət yalnız Azərbaycandan Gürcüstana yüklərin daşınmasından getmir. Gürcüstan həm özünün, həm Qara dəniz hövzəsi ölkələrinin, həm də Avropadan yüklərin Zəngəzur dəhlizi vasitəsilə İrana, Körfəz ölkələrinə və başqa regionlara münasib qiymətə çatdıra və bundan xeyli gəlir əldə edə bilər. Bu o deməkdir ki, Zəngəzur dəhlizi ancaq bir istiqamətdə və seçilmiş hansısa ölkələrin mənafeyinə xidmət edəcək nəqliyyat platforması olmayacaq – ondan bütün region ölkələri müxtəlif istiqamətlərdə yaradılacaq əlaqələr əsasında faydalanacaqlar.

Bütün qeyd olunanlar onu göstərir ki, regional və qlobal miqyasda Zəngəzur dəhlizinin işə düşməsi ciddi geosiyasi və geoiqtisadi yeniliklərə təkan verəcək. Bunlarla yanaşı, Zəngəzur dəhlizinin Azərbaycanın müstəqil dövlət olaraq beynəlxalq statusunun daha da yüksəlməsində əhəmiyyətli rolu olacaq.

Bərpa-quruculuq çərçivəsində gerçəkləşdirilən layihələr sırasında Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanın fəaliyyətə başlaması, həmçinin Laçın və Zəngilan rayonlarında da aeroportların tikintisinin planlaşdırılması həm sosial-iqtisadi, həm də strateji cəhətdən olduqca mühüm önəm daşıyır, bununla da regionun nəqliyyat imkanları daha da genişləndirilir. Azərbaycan dövləti mövcud imkanlardan səmərəli yararlanaraq, bu prosesi qısa müddətdə yekunlaşdırmağa çalışır.

Cari sorğuda iştirak edən respondentlərin fikrincə, Füzuli Beynəlxalq Hava Limanının açılması, Zəngilan və Laçında hava limanlarının inşası Azərbaycanın turizm sektorunun inkişafına müsbət təsir edəcək (75,9%), regionda iqtisadi inkişafa töhfə verəcək (57,3%), Qarabağa böyük qayıdışı cəmi 30 dəqiqə baxımından sürətləndirəcək (52,7%), dayanıqlı iş yerlərini və məşğulluğu təmin edəcək (25,5%), regionun logistika və ixrac imkanlarını artıracaq (21,4%), yerləşdiyi ərazi baxımından Zəngəzur dəhlizinin səmərəliliyini artıracaq (20,2%), beynəlxalq və yerli nəqliyyat dəhlizlərinə inteqrasiyanı sürətləndirəcək (10,4%). 2,1% respondent bu layihələr haqqında heç bir məlumatının olmadığını qeyd edib. Qeyd edək ki, respondentlərə bir neçə cavab variantını seçmək imkanı verilib.

❖ İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq hava limanlarının inşasının planlaşdırılmasının "Azərbaycanın turizm sektorunun inkişafına müsbət təsir edəcək" fikri ümumi seçmə içərisində nisbətən yaşlı insanlar (yaşı 46-55 arası olanlar (80,7%), 65+ (84,3%)), ali təhsillilər (80,2%), yüksək gəliri olanlar (82,4%) arasında geniş yayılıb.

❖ Bu sualın digər cavab variantları içərisində "Regionda iqtisadi inkişafa töhfə verəcək" fikri də üstünlük təşkil edib. Belə ki, bu cavab variantını qadınlara (51,9%) nisbətən kişilər (62,5%), yaşı 56-65 (62,9%) və 65-dən yuxarı olanlar (61,4%), ali təhsillilər (64,8%), yüksək

---

[7] *İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib. /12 noyabr 2021/ - https://president.az/articles/54183*

[8] *Prezident İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı təqdim edilib. /26 aprel 2021/ - https://president.az/articles/51287*




gəliri olanlar (66,2%) daha çox seçiblər.

❖ “Qarabağa böyük qayıdışı cəmi 30 dəqiqə baxımından sürətləndirəcək” (52,7%) cavabına isə əsasən yaşı 56-65 (58%) və 65-dən yuxarı olanlar (60%), orta təhsillilər (54,7%), yüksək gəliri olanlar (63,5%) üstünlük veriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın cari ilin oktyabrın 26-da açılışında iştirak etdikləri Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanına Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) tərəfindən latın əlifbasının üç hərfindən ibarət FZL kodu verilib. Bu fərdi kod hava limanının yerləşdiyi şəhərin adı - Füzuli ilə bağlıdır. Daha əvvəl Füzuli hava limanına Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən UBBF kodunun verilməsi təsdiq edilib.

Füzuli Beynəlxalq Hava Limanı Qarabağ və Şərqi Zəngəzurun bərpası, inkişafı üçün mühüm önəm daşıyır. Aeroportun bu iqtisadi bölgələrdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından böyük əhəmiyyəti var. Azərbaycan Prezidentinin də söylədiyi kimi, Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlb olunması üçün olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Çünki hazırda Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Həmin turistlərin daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilmələri üçün Füzuli hava limanı daha əlverişli imkan yaradacaq. Bir sözlə, Füzuli Beynəlxalq Aeroportu regionda turizmin canlanmasına kömək edəcək.

Onu da əlavə edək ki, STM-in 2021-ci ilin yanvar-mart aylarını əhatə edən sorğusunda işğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması istiqamətində Prezidentin qərarlarının regionda daha çox hansı sahələrin inkişafına təkan verəcəyinə ictimai münasibət öyrənilmişdi. Həmin sorğuda iştirak edənlər bildirmişdilər ki, işğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması (yolların çəkilməsi, hava limanının tikilməsi) istiqamətində Prezidentin qərarları ilk növbədə turizmi stimullaşdıracaq (68,1%), bu ərazilərə investisiya axınını asanlaşdıracaq (57%), iqtisadi layihələrin səmərəliliyini artıracaq (45,3%).

İqtisadçı ekspertlər də hesab edirlər ki, Füzulidə, Laçında və Zəngilanda aeroportların olması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regionun aparıcı mərkəzlərinə çevrilməsinə, xarici iş adamlarının bu bölgəyə investisiya yatırmasına imkan yaradacaq. Bu, Qarabağımızın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası baxı-




mından xüsusilə vacibdir. Bərpa və yenidənqurma mərhələsindən sonra işğaldan azad olunan ərazilərimizin Azərbaycan iqtisadiyyatının 8 faizini formalaşdıracağı gözlənilir. Bu, əlavə 5 milyard manat yeni dəyərin yaradılması deməkdir. Bu baxımdan Füzuli Beynəlxalq Hava Limanı Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsinə xüsusi töhfə verəcək.

Bu kontekstdə onu da əlavə edək ki, cari sorğuda respondentlərdən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfəri barədə məlumatlılıq səviyyəsi də soruşulub. Respondentlərin 39,8%-i bu səfər barədə tam məlumatlı, 50,2%-i isə qismən məlumatlı olduğunu bildirib. Rəyi soruşulanların 10%-i cənab Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri, Füzuli və Zəngilanda bir sıra tədbirlərdə və açılışlarda iştirakı barədə heç bir məlumata malik deyil.

❖ Ümumi seçmədə qadınlara (35.4%) nisbətən kişilər (44,8%) ($X^2(2)=15,560$ $P<0,01$), ali təhsillilər (53,9%) ($X^2(4)=55,310$ $P<0,01$), yaşlı nəslin nümayəndələri (45,7%) ($X^2(10)=28,137$ $P<0,01$) səfər haqqında tam məlumatlı olduqlarını qeyd ediblər.

Ümumiyyətlə, postmüharibə dövründə Türkiyə Prezidentinin işğaldan azad edilmiş tarixi torpaqlarımıza, Şuşa, Füzuli və Zəngilana səfərləri həm siyasi-iqtisadi, həm də regionun təhlükəsizliyi baxımından maraqla izlənilib. Xüsusilə cənab Ərdoğanın cari ilin 26 oktyabr tarixindəki səfərini daha da əlamətdar edən səfərin birbaşa Qarabağdan başlanması, Füzuli Beynəlxalq Hava Limanına eniş etməsidir. Türkiyə lideri Xankəndinin də daxil olduğu Qarabağ iqtisadi rayonuna ilk səfəri ilə bu ərazilərdə yalnız Azərbaycanın idarəçiliyini qəbul etdiyini və bu prosesdə Ankaranın Bakının yanında olduğunu nümayiş etdirir.

Onu da əlavə edək ki, bu, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın tarixi Zəfərindən sonra reallaşan üçüncü səfəridir. 2020-ci il 10 dekabr tarixli Zəfər paradından və 2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsinin imzalanmasından sonra bu, Türkiyə Prezidentinin Azərbaycanda qatıldığı üçüncü, Qarabağda isə ikinci möhtəşəm tədbiridir. Türkiyə liderinin təyyarə ilə birbaşa Füzuliyə gəlişi dünyaya müharibənin başa çatdığı reallığının göstərilməsi və təhlükəsizlik faktoruna önəm verən xarici sərmayələrin bölgəyə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Füzuli Beynəlxalq Hava Limanında ilk xarici səfərin baş tutması böyük turizm potensialı olan Qarabağın xarici ölkələrdə cəlbediciliyinin artması, buraya birbaşa səfər etmək istəyənlərin sıralarının genişlənməsi baxımından əhəmiyyət kəsb edir.

Bu məqamları nəzərə alıb sorğuda iştirak edən respondentlərdən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Füzuli və Zəngilana səfərini səciyyələndirmələri xahiş olunub. Respondentlərin 66,2%-nin fikrincə, Ərdoğanın Füzuli və Zəngilana səfəri Türkiyənin dostluq mövqeyini bir daha sübut edir, qardaşlığın əbədiliyinə əminlik hissini möhkəmləndirir. 38,2% respondent bu fikri bölüşür ki, bu səfər region ölkələri üçün həyati vacib olan Zəngəzur dəhlizinin, kommunikasiyaların açılmasını və iqtisadi əməkdaşlığı sürətləndirir. Rəy bildirənlərin 29,4%-i bu səfəri dünyada və regionda Türkiyənin geosiyasi gücünün, rolunun daha da artmasının göstəricisi, 20,4% respondent isə Azərbaycan və Türkiyənin bölgədən geosiyasi məkana hədəflənən ortaq hədəflərə doğru inamla irəliləməsi kimi xarakterizə ediblər. Digər fikirlər isə belədir: bu səfər Ermənistanın Azərbaycana olan aqressiv davranışlarına qarşı bir mesajdır




(19,1%), bölgədə reallaşacaq iqtisadi layihələrə və quruculuq işlərinə Türkiyənin açıq dəstəyini göstərir (16,1%), regionda iqtisadi rifaha, sülhə və təhlükəsizliyə xidmət edir (14%).

❖ Sorğuda iştirak edənlərin mütləq əksəriyyəti mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, gəlir və təhsil səviyyəsindən asılı olmayaraq Ərdoğanın Füzuli və Zəngilana səfərini yüksək dəyərləndirib və bu səfərin iki ölkə arasındakı münasibətlərin inkişaf dinamikasına müsbət təsir etdiyini bildiriblər.

## 2.4. Qarabağda ermənilərlə birgəyaşayışa münasibət

Vətən müharibəsindən keçən bir il müddətində Prezident İlham Əliyev yerli və beynəlxalq mediaya verdiyi müsahibələrində, o cümlədən noyabrın 4-də “COVID-19-dan sonrakı dünya” mövzusunda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən növbəti Qlobal Bakı Forumunun açılış mərasimində etdiyi çıxışında qeyd edib ki, indi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik. Münaqişə başa çatdığından Qarabağda yaşayan ermənilərə hər hansısa bir statusun verilməsi deyil, orada yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilərin reinteqrasiyası ilə bağlı müzakirələr aparılır. Rəsmi Bakı dəfələrlə qeyd edib ki, Qarabağda yaşayan ermənilərin Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi hüquqlarının və təhlükəsizliklərinin qorunmasına yüksək səviyyədə təminat verilir. Dövlət başçısı İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədə qeyd edib ki, bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır”.[9]

STM-in keçirdiyi cari sorğuda iştirak edən respondentlərin üçdə biri ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsi tərəfdarı kimi çıxış edib. Respondentlərin 17%-i bu fikirdədir ki, ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsi barışı və birgəyaşayışı təmin edə bilər. 26,8% respondentin fikrincə, bu addım Azərbaycan konstitusiyasını və ərazi bütövlüyünü tanıyan ermənilərin sosial inteqrasiyanı sürətləndirə bilər. Respondentlərin 23,4%-i Ermənistanın ölkəmizə qarşı ərazi iddialarını heçə endirəcəyini, 13,1%-i bunun digər ərazilərin suverenliyini təmin edəcəyini, 12,8%-i Azərbaycan-Ermənistan münasibətlərini müsbət istiqamətdə yeni mərhələyə daşıyacağını düşünür.

[9] *Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi. /02 oktyabr 2021/ - https://president.az/articles/53296*




Sorğu iştirakçıları arasında 31,6% respondent isə bunun heç bir təsiri olmayacağını bildirib. Respondentlərin 4,9%-i bu suala cavab verməkdə çətinlik çəkib.

❖ Ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsi “Azərbaycan konstitusiyasını və ərazi bütövlüyünü tanıyan ermənilərin sosial inteqrasiyanı sürətləndirə bilər” fikri ilə ümumi seçmədə cins bölgüsünə görə kişilər (30,2%) qadınlara nisbətən (23,3%) razıdırlar. Bu fikrə yaş bölgüsünə görə daha çox üstünlük 18-25 yaş aralığında verilib (31,5%). Ali təhsillilər (35,5%) və yüksək gəliri olanlar (36,5%) da bu fikrə daha müsbət mövqe ifadə ediblər.

❖ Ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsi "Ermənistanın ölkəmizə qarşı ərazi iddialarını heçə endirəcək" fikri ilə ümumi seçmədə kişi respondentlərin 26,5%-i, yuxarı yaş qrupunda olanlar (25,7%), ali təhsillilər (25,2%), yüksək gəliri olanlar (28,4%), kənddə yaşayanlar (24,3%) daha çox razılıq ifadə ediblər.

❖ Ermənilərin kompakt yaşadığı Azərbaycan ərazisində də quruculuq işlərinin həyata keçirilməsinin "heç bir təsiri olmayacaq" fikri ümumi seçmədə daha çox qadınlar (35,9%), yaşı 36-45 arası olanlar (39,1%), orta təhsillilər (35,1%), aşağı gəliri olanlar (37,7%), qəsəbədə yaşayanlar (42,9%) arasında geniş yayılıb.

STM-in 2021-ci ilin aprel ayında keçirdiyi sorğuda işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılmasının ermənilərin yaşadığı ərazilərimizdə Azərbaycanın suverenliyini təmin edib-etməyəcəyi də soruşulmuşdu. Rəyi soruşulanların 54,6%-i bu suala müsbət cavab vermişdi. Həmin sorğuda iştirak edənlərin 45,3%-i bu fikirdə olmuşdu ki, işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması ərazinin təhlükəsizliyinin təminatına əlavə elementlər qatacaq, öz yurd-yuvasına qayıdacaq məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb edəcək.

### 2.5. Prezidentin işğaldan azad edilmiş ərazilərdə tarix, mədəniyyət və dini abidələrin bərpası ilə bağlı fəaliyyətinə münasibət

30 illik həsrətdən sonra müzəffər Ali Baş Komandan və rəşadətli ordumuzun səyi nəticəsində erməni işğalı altında olan şəhər, qəsəbə və rayonlarımız azad olunduqca Azərbaycan və dünya ictimaiyyəti acı bir həqiqətlə qarşı-qarşıya qaldı: ermənilər heç bir insani və beynəlxalq qanunlara riayət etmədən xalqımızın tarixi, maddi mədəniyyət abidələrinə də çox cidi zərər vurublar. Əfsuslar olsun ki, bu abidələrin dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktiki olaraq mümkün deyildir. Belə ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələridir. İşğal altında qalmış hər bir abidəmiz həm də tarixin canlı şahididir.

Məlumdur ki, xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini yalnız o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. 16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası 1954-cü il Haaqa Konvensiyasının Birinci Protokoluna 1993-cü ildə və İkinci Protokoluna 2000-ci ildə qoşulub. Bu konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Eyni zamanda, konvensiyanın iştirakçıları özlərinin qanunvericiliyində elə qanunlar qəbul etməlidir ki, bu konvensiya onun şərtlərini pozan və pozmağa göstəriş verənləri cəzalandıra bilsin.

Bu amili nəzərə aldıqda Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların vəzifələrinin sırasında tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı müddəaların olması, "Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur" ifadəsinin öz əksini tapması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsində ("Müharibə, fövqəladə vəziyyət və silahlı münaqişə zamanı abidələrin qorunması") qeyd olunur ki, "Dövlət işğalçı tərəfindən qənimət kimi ələ keçirilmiş abidələr haqqında beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırır və onların qaytarılması və bərpası üçün tədbirlər görür. Abidələr hərbi məqsədlər üçün istifadə edilə bilməz".[10] Həmin Qanunun 32-ci maddəsində vurğulanır ki, işğalçılar tərəfindən dağıdılmış dünya, ölkə və yerli əhəmiyyətli abidələr haqqında müvafiq beynəlxalq təşkilatlara məlumat verilir. Qeyd edək ki, hal-hazırda işğaldan azad olunmuş ərazilərdə dövlətə və mülki əhaliyə vurulmuş zərərin dəyəri hesablanır.

Azərbaycan azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış maddi-mədəni abidələrimizi dini təyinatından asılı olmayaraq bərpa edir və yenilərini tikir, bununla da dünyaya bir daha öz tolerantlığını nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də - Zəfər Günü ərəfəsində Şuşada Daşaltı məscidinin təməlini qoyarkən dünyaya növbəti mesajı verdi: "Biz nəinki torpaqlarımızı abadlaşdırır, keçmiş məcburi köçkünlərimizi geri qaytarmaq üçün müasir infrastruktur yaradır, həm də ermənilərin bu torpaqlarda dini-mədəni abidələrə qarşı həyata keçirdiyi vandallığın izlərini təmizləyir, müqəddəs dəyərlərimizə sahib çıxırıq".[11]

---

[10] *"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublıkasının Qanunu. - http://www.e-qanun.az/framework/3526*

[11] *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Daşaltı məscidinin təməlini qoyublar. /07 noyabr 2021/ - https://president.az/articles/54041*

Qeyd edək ki, Heydər Əliyev Fondu Qarabağ ərazisində Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılıb.

Cari sorğuda işğaldan azad olunmuş ərazilərdə maddi-mədəni, mənəvi, dini abidələrimizin (Vaqifin məqbərəsinin, muzeylərin, eləcə də sərgilərin və digər mədəni irs nümunələrimizin) bərpasına ictimai münasibət də öyrənilib. Respondentlər bu fikirdədir ki, işğaldan azad olunmuş ərazilərdə maddi-mədəni, mənəvi, dini abidələrimizin bərpası Azərbaycan mədəniyyəti və dövlətçiliyi tarixində mühüm hadisədir (67,9%), xalqın milli mədəni varlığını, keçmişini, tarixini qoruyub saxlamaq və sahib çıxmaq məqsədinin göstəricisidir (55,4%), müharibənin mədəniyyət müstəvisində davamıdır (31,9%), azad edilmiş ərazilərin hər birinin tarixini bu vasitə ilə göstərmək hədəfidir (30,1%), azad edilmiş ərazilərdə quruculuq və bərpa işlərinin təntənəsidir (22,5%). Rəyi soruşulanların 2,2%-i bu suala cavab verməkdə çətinlik çəkib.

❖ Sorğuda iştirak edən ümumi seçmə içərisində bu sualın “Azərbaycan ədəbiyyatı, mədəniyyəti və dövlətçiliyi tarixində mühüm hadisədir” cavab variantını aşağı yaş qrupunda olanlar (73,9%), ali təhsillilər (74,5%), yüksək gəliri olanlar (77%), kənddə yaşayanlar (70,9%) daha çox seçiblər.

❖ “Xalqın milli mədəni varlığını, keçmişini, tarixini qoruyub saxlamaq və sahib çıxmaq məqsədinin göstəricisidir” cavab versiyasına aşağı yaş qrupunda olanlar (67,6%), ali təhsillilər (59,1%), yüksək gəliri olanlar (66.2%), şəhərdə yaşayanlar (59,4%) daha çox üstünlük veriblər.

Göründüyü kimi, ümumi nəticələr respondentlərin işğaldan azad olunmuş ərazilərdə maddi-mədəni, mənəvi, dini abidələrimizin bərpası ilə bağlı müsbət mövqe sərgilədiklərini göstərir.

Müqayisə üçün onu da əlavə edək ki, STM-in 2021-ci ilin yanvar-mart aylarını əhatə edən sorğusunda dövlət başçısının tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyətinə münasibət bildirən respondentlərin 73,9%-i belə düşünürdü ki, Prezidentin Azıx mağarasına getməsi işğaldan azad edilmiş bütün ərazilərdəki tarix və mədəniyyət abidələrinin bərpa ediləcəyindən xəbər verir. Həmin sorğuda iştirak edənlərin 68,9%-i Prezident İlham Əliyevi Azərbaycan mədəniyyəti və tarixi ilə bağlı Heydər Əliyevin siyasətinin layiqli davamçısı kimi görürdü. Respondentlərin 67,8%-nin fikrincə, Prezidentin Şuşada Natəvanın abidəsinin açılışında iştirak etməsi, Vaqifin büstünü və məqbərəsini ziyarət etməsi Qarabağa xüsusi diqqətinin təzahürüdür. 67,2% respondent bu qənaətdə idi ki, bu, Azərbaycanın tarixi-mədəni irsinə hörmətin, sevginin və qayğının göstəricisidir. Sorğuda iştirak edənlərin 62%-nin qənaətinə görə, Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası istiqamətindəki fəaliyyəti, Şuşada “Xarı Bülbül” beynəlxalq festivalının və “Vaqif poeziya günləri”nin bərpası mədəni dəyərlərin təbliği məqsədini daşıyır. Rəyi soruşulanların 61%-nin fikrincə, Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyəti Azərbaycanın öz tarixi və əzəli ərazilərinə sahibliyinin göstəricisi, 48,8%-nin qənaətinə görə isə ermənilərin ölkəmizə qarşı mədəni müharibəsinə daha güclü mövqenin nümayişidir.



# III BÖLMƏ.

# PREZİDENTİN SƏFƏRLƏRİNƏ, GÖRÜŞLƏRİNƏ VƏ MÜSAHİBƏLƏRİNƏ MÜNASİBƏT

## 3.1. Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə münasibət

Hazırda qarşıda duran əsas hədəf işğaldan azad edilmiş ərazilərimizdə quruculuq-bərpa işlərini həyata keçirmək, Böyük Qayıdış proqramının icrasını uğurla başa çatdırmaqdır. Bu baxımdan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş rayonlara davamlı səfərləri xalqımız tərəfindən rəğbətlə qarşılanır. Bu səbəbdəndir ki, sorğuda iştirak edən vətəndaşların Prezidentin son aylarda Qarabağa intensiv səfərlərində ən çox təqdir etdikləri məqamların ilk sırasında böyük qayıdış və quruculuq işləri ilə yaxından tanışlığı və bu işlərə şəxsən nəzarət etməsi (69,2%) gəlir. Sorğuda sonrakı yerlərdə erməni vandalizminin izlərini dünyaya göstərməsi (37,4%), çıxışlarında dünyaya verdiyi mesajlar (37,4%), azad edilmiş ərazilərin coğrafiyasına yaxından bələd olması (26,3%), məhv edilmiş mədəni irsimizə xüsusi həssaslığı (15%) sıralanır.

❖ Qeyd edək ki, bu sualın "Böyük qayıdış və quruculuq işləri ilə yaxından tanışlığı və bu işlərə şəxsən nəzarət etməsi" cavab variantını seçənlərin 56,5%-i Zəngəzur dəhlizinin Azərbaycanın (Naxçıvanın) Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxış imkanlarını



genişləndirəcəyinə əminlik nümayiş etdiriblər ($X^2(1)=9{,}525$, $P<0{,}01$).

STM-in cari ilin yanvar-mart aylarını əhatə edən sorğusunda isə respondentlər Prezidentin azad edilmiş ərazilərə səfərlərini Qarabağın dirçəlişinin və qayıdışın tezliklə reallaşması (61,7%), Ali Baş Komandanın bütün quruculuq tədbirlərinə bilavasitə rəhbərlik etməsi (61%), Azərbaycanın ərazi bütövlüyünün təminatı (59,8%), Prezidentin tarixi abidələrə xüsusi önəm verməsi (59.6%), işğaldan azad olunmuş ərazilərimizdə sabitlik və təhlükəsizliyin təminatı (58,9%), Böyük Qayıdışa Prezidentin verdiyi əhəmiyyət (58,4%), Vətənə, xalqa, milli-mənəvi, tarixi və mədəni dəyərlərə xüsusi önəmin verilməsi (54,3%), bütün dünya azərbaycanlılarının Qarabağın dirçəlişinə cəlb etməsi (54,6%), işğaldan azad edilmiş ərazilərin inkişafını və bölgəyə investisiya yatırımını stimullaşdırması (50,3%), Ermənistandakı qüvvələrə və onların havadarlarına xəbərdarlığı (48,3%) və informasiya müharibəsinə töhfə verməsi (36.3%) kimi qiymətləndirmişdilər.

❖ Hər iki sorğuda cavabların müqayisəsi göstərir ki, respondentlər Prezidentin böyük qayıdış və quruculuq işləri ilə yaxından tanış olması və bu işlərə şəxsən nəzarət etməsini yüksək dəyərləndirirlər (müvafiq olaraq 61% və 69,2%).

Nəticələrin təhlilinə əsasən, sorğuda iştirak edən vətəndaşların mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, təhsil və gəlir səviyyəsindən, yaşadığı yerdən asılı olmayaraq Prezidentin böyük qayıdış və quruculuq işləri ilə yaxından tanış olması və bu işlərə şəxsən nəzarət etməsi respondentlər tərəfindən rəğbətlə qarşılanıb.

## 3.2. Prezidentin Rusiyaya işgüzar səfərinə münasibət

Cari ilin iyulun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyaya işgüzar səfər edib. Görüş zamanı müzakirə olunan məsələlər ilk baxışdan hər nə qədər iqtisadi məsələlər kimi görünsə də, əslində əsas diqqət postmüharibə dövrünün reallıqlarına yönəlmişdi. Həm ikitərəfli münasibətlər, həm də regional məsələlərə bağlı geniş aspektdə aparılan fikir mübadiləsinin nəticəsində tərəflər ortaq mövqe ortaya qoydular. Belə ki, postmüharibə dövrü ilə bağlı həm Azərbaycan, həm də Rusiya prezidentlərinin ortaq mövqedən çıxış etməsi hər iki dövlət başçısının mətbuata açıqlamalarından da aydın şəkildə görünür. Prezident İlham Əliyevin görüş zamanı səsləndirdiyi “Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik” bəyanatı ümumilikdə görüşün ana xəttini təşkil edib.

Burada təbii olaraq söhbət Rusiya Prezidentinin iştirakı ilə imzalanmış 10 noyabr 2020-ci il, o cümlədən 11 yanvar 2021-ci il tarixli sənədlərdə əksini tapmış kommunikasiyaların bərpası məsələsindən gedir. Görüş zamanı hər iki ölkə başçısının bütün kommunikasiyaların, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılmasını nəzərdə tutan üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsinin vacibliyi ilə bağlı ortaq mövqe nümayiş etdirməsi olduqca uğurlu addımdır.

Müəyyən geosiyasi qüvvələrin, qlobal güclərin Cənubi Qafqazdakı proseslərə müdaxilə etmək, Qarabağın dağlıq hissəsi ilə bağlı təxribat yaratmaq istəyilə bağlı məsələ də Moskva görüşündə müzakirə edilib. İstisna deyil ki, Rusiya və Azərbaycanın gələcəkdə atacağı birgə addımlar da həmin görüşdə müzakirə predmeti olub.

Bütün bunları nəzərə alıb respondentlərə “Prezident İlham Əliyevin iyulun 20-də Moskvaya işgüzar səfəri çərçivəsində Vladimir Putinlə keçirilən görüşünün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorunması baxımından əhəmiyyətini necə dəyərləndirirsiniz?” sualı verilib. Respondentlərin 57.7%-i bu görüşün əhəmiyyətini tam, 21.9%-i qismən müsbət qiymətləndirib.



❖ Sorğu nəticələrinin təhlilinə əsasən, Prezidentin Moskvaya işgüzar səfəri çərçivəsində Vladimir Putinlə keçirilən görüşün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorunması baxımından əhəmiyyətini gender bölgüsünə əsasən kişilər (62,5%) ($X^2(3)=19,404$, $P<0,01$), yuxarı yaş qrupuna aid olanlar (65+) (73,6%) ($X^2(15)=75,328$, $P<0,01$), peşə-ixtisas təhsillilər (64,8%), yüksək gəliri olanlar (62,7%), kənddə yaşayanlar tam müsbət qiymətləndiriblər.

Respondentlər arasında əks mövqedə olanların 7,2% bu fikirdədir ki, bu görüşün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorunması baxımından heç bir təsiri olmayacaq.

❖ Bu fikir daha çox aşağı yaş qrupunda (18-25) olanlar (12,6%), orta təhsillilər (8,4%) və şəhər əhalisi arasında (9,7%) yayılıb.

10,7% respondentin bu görüş haqqında heç bir məlumatı olmayıb. 2.5% respondent bu suala cavab verməkdə çətinlik çəkib.

Qeyd edək ki, 44 günlük müharibənin başa çatmasından keçən bir illik dövr ərzində 10 noyabr üçtərəfli Bəyanatının bir sıra şərtləri Ermənistanın revanşist və destruktiv siyasət yürütməsi səbəbindən hələ də yerinə yetirilməmiş qalır. Prosesin bəzi məsələlərlə bağlı “dalan”a dirəndiyi göz qabağındadır. Paşinyan Qərbin bu prosesdə hətta Rusiyadan da önə çıxaraq, əsas ağırlıq mərkəzinə çevrilməsini istəyirdi. Onun siyasi-psixoloji portretində əsas cizgilərindən olan riyakarlığı birinci dəfə deyil ki, özünü büruzə verir. Biz bunu həm Vətən müharibəsinin davam etdiyi günlərdə, həm də postmüharibə dövründə, məsələn, 2021-ci ilin may ayında Kəlbəcər, Laçın istiqamətlərində Ermənistanla sərhədin müəyyənləşdirilməsini hərbi müstəvidə başlayandan bir müddət sonra müşahidə etmişdik. Paşinyan o zaman təklif edirdi ki, sərhəddə ya KTMT, ya da NATO qüvvələri yerləşdirilsin. O, gerçəkliyi müxtəlif epitetlər altında gizlətməyə çalışsa da, reallıq bu arzudan çox-çox fərqlidir. Unutmayaq ki, Paşinyan faktiki olaraq sərhədlərinin demarkasiya və delimitasiyası, həmçinin Zəngəzur dəhlizi, bunun üçün işçi qrupunun yaradılması ilə bağlı müzakirə masasına çıxarılan təklifləri qəbul etdiyini iyul ayında keçirilən üçtərəfli görüşdə də bəyan edib. Bu o deməkdir ki, bundan sonra müzakirələrin hansısa başqa platformalara daşınması öz mənasını itirir. Azərbaycanın isə mövqeyi konkret və aydındır: Azərbaycanın ərazi bütövlüyü Ermənistan tərəfindən tanınmalı, sərhədlərin delimitasiyası və demarkasiyası aparılmalı, 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il, 26 noyabr 2021-ci il tarixli bəyanatların bütün bəndləri, o cümlədən Zəngəzur dəhlizinin açılması təmin edilməli və sonda sülh müqaviləsi imzalanmalıdır.

### 3.3. Şuşa Bəyannaməsinin hərbi-siyasi və iqtisadi aspektlərinə münasibət

Qarşılıqlı etimad və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri postmüharibə dövründə də istər siyasi, hərbi, iqtisadi və mədəni müstəvilərdə, istərsə də beynəlxalq platformalarda uğurla inkişaf etdirilir. 15 iyun 2021-ci il tarixində bölgənin geosiyasi mənzərəsini dəyişəcək, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində imzalanan Bəyannamə ilə Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etdilər. Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Təsadüfi deyil ki, Şuşada Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı. O qeyd etdi ki: “Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır”.

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar indi də təkrarlanmaqdadır. Yenə də region uğrunda qlobal güclərin mübarizəsi gedir. Yalnız bir fərq var ki, əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Dövlət başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi.

Hər iki ölkənin ümumi maraqlarının qorun-

masında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən Bəyannamə Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Bu məqamları nəzərə alıb respondentlərdən Şuşa Bəyannaməsinin iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərdə əhəmiyyəti soruşulub. Sorğunun nəticələrinin təhlili göstərir ki, respondentlərin əhəmiyyətli hissəsi (60,5%-i) Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə arasındakı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qaldıracağını düşünür.

❖ Gender bölgüsündən aydın olur ki, qadınlara (55,5%) nisbətən kişilər (65,3%) bu cavab variantına daha çox üstünlük verirlər. Sözügedən kontekstdə nisbətən yüksək göstərici yaşlı nəslin (56-65 və 65+) nümayəndələri arasında təsbit edilib: müvafiq olaraq 64% və 65,7%. Ali təhsillilər (65,1%), kənddə yaşayanlar (63,3%) da bu cavab variantını daha çox seçiblər.

Qeyd edək ki, Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Bəyannamədə deyilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".[12]




[12] *Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. /16 iyun 2021/ - https://president.az/articles/52122*

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Respondentlərin cavablarından belə aydın olur ki, Şuşa Bəyannaməsinin Türkiyə ilə birbaşa hərbi, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı yeni mərhələyə daşıyacağını düşünənlərin də sayı kifayət qədər çoxdur (61,6%).

❖ Bu cavab variantını seçənlər arasında gender bölgüsünə görə qadınlara (54,5%) nisbətən kişilər (68,5%), yaşlı nəslin (65+) nümayəndələri (73,6%), ali təhsillilər (71,4%), kənd yerlərində yaşayanlar (63,1) daha yüksək faiz göstəriciləri ilə seçilirlər.

İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəliblər. Hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsinə dair razılıq əldə olunması Azərbaycan və Türkiyə arasında münasibətlərin necə sıx və prinsipial olduğunun göstəricisidir. Bu o deməkdir ki, bundan sonra Azərbaycan və Türkiyənin Təhlükəsizlik Şuraları müntəzəm olaraq birgə iclaslar keçirəcək və təhdidlərə qarşı birgə fəaliyyət göstərəcəklər.

Respondentlərin 50,7%-i belə düşünür ki, Azərbaycan və Türkiyə Türk dünyasının milli maraqları və türk həmrəyliyi üçün örnək rolunu oynayacaqlar. Bəyannamədə qeyd olunduğu kimi, Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkəcək, Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcək, Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türk Dövlətləri Təşkilatı, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

❖ Azərbaycan və Türkiyənin Türk dünyasının milli maraqları və türk həmrəyliyi üçün örnək olacağını deyənlərin 81,9%-i Zəngəzur dəhlizinin Azərbaycanın öz ekslavı olan Naxçıvanla və Türkiyə ilə əlaqələrini gücləndirəcək variantını seçiblər ($X^2(1)=40{,}498$, $P<0{,}01$)

Bütün bunlarla yanaşı, sorğuda iştirak edənlərin fikrincə, Şuşa Bəyannaməsi yaxın gələcəkdə Qarabağın bütün hissələrində Azərbaycan bayrağının dalğalanmasını təmin edəcək (40,4%), ölkəmizə xarici hərbi müdaxilələrin qarşısını alacaq (19,1%), regional münasibətlərin normallaşmasına və uzunmüddətli sülhün təmin edilməsinə töhfə verəcək (12,2%),

Bunun əksinə olaraq respondentlərin 5,6%-i belə düşünür ki, Şuşa Bəyannaməsinin imzalanması bəzi region və dünya dövlətləri ilə münasibətlərə mənfi təsir edəcək. 3,5% respondentin təbirincə, bu bəyannamənin imzalanması Qarabağ ətrafında siyasi gərginliyi artıracaq.

Respondentlərin 6,8%-i bu suala cavab verməkdə çətinlik çəkiblər.

Əlavə edək ki, Şuşa Bəyannaməsində əksini tapan məsələlərdən biri aktual xarakter daşıyan informasiya siyasəti və lobbiçilik məsələləridir. Belə ki, tərəflərin beynəlxalq arenada daha effektiv fəaliyyəti üçün media platforması və diaspor sahəsində birgə addımlarına ehtiyac var. Bəyannamədə Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığın daha da gücləndirilməsi, Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, ümumi problemlər qarşısında birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi kimi müddəaların yer alması da deyilənlərin bariz nümunəsidir.

Həmçinin, Bəyannamədə Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəa da yer alır. Sənəddə qeyd edilir ki, tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparır. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstəriləcək. Bunun üçün xarici siyasət sahəsində koordinasiyanın və ikitərəfli siyasi məsləhətləşmələrin vacibliyi vurğulanır. Bu istiqamətdə Türkiyə və Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur.

### 3.4. Prezidentin türk dövlətlərinin birliyinin möhkəmlənməsində roluna münasibət

Prezident İlham Əliyev ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirib. Qeyd edək ki, Türk Şurasının 2019-cu ildə Bakıda baş tutan Zirvə Toplantısındakı çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu coğrafiyanın bizim üçün olduqca önəmli olduğunu bir daha iştirakçıların diqqətinə çatdırmışdı: "Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir".

Dövlət başçısı türkdilli xalqların oxşar milli irsinə, mental xüsusiyyətlərinə həm də ümumi müqaviməti və səfərbərliyi təmin edən güclü siyasi-ideoloji təsir vasitəsi kimi yanaşır. Bu istiqamətdə həyata keçirilən siyasət göstərir ki, Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Belə ki, ötən dövr ərzində türk dövlətlərinin, xalqlarının, diaspor təşkilatlarının vahid ideya və məqsədlər uğrunda mübarizə aparması, siyasi-ideoloji cəbhədə eyni mövqe nümayiş etdirməsi, erməni lobbisinə qarşı mütəşəkkil mübarizəyə qoşulması cənab İlham Əliyevin ən çox səy göstərdiyi məsələlərdən olmuşdur. Rəsmi Bakının tarixi, siyasi və dini baxımdan Azərbaycana yaxın olan türkdilli respublikalarla ikitərəfli və çoxtərəfli münasibətlərin genişləndirilməsi təşəbbüsləri də məhz bu məqsədə xidmət edir.

Cari sorğuda iştirak edən respondentlərin Prezident İlham Əliyevin türk dövlətlərinin birliyinin möhkəmləndirilməsində rolunu yüksək qiymətləndirməsi (ümumilikdə 96,6%) bu istiqamətdə aparılan dövlət siyasətinin ictimaiyyətin diqqətdə saxlamasından xəbər verir.




Aparılan sorğunun nəticələri göstərir ki, noyabrın 12-də İstanbulun Demokratiya və Azadlıqlar Adasında keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü ilə bağlı respondentlərin məlumatlılıq səviyyəsi heç də qaneedici deyil. Belə ki, respondentlərin yarıya yaxını bu görüş haqqında heç bir məlumata malik olmayıb (48%). Məlumatlı olanların faiz göstərici isə belədir: tam məlumatlı olanlar 12,2%, qismən məlumatlı olanlar 39,8% təşkil edir.

❖ Nəticələrin təhlili göstərir ki, kişilər qadınlara ($X^2(2)=35{,}034$ $P<0{,}01$), şəhər və qəsəbə əhalisi kənd əhalisinə, yaşlı nəslin nümayəndələri gənclərə ($X^2(10)=51{,}634$ $P<0{,}01$), ali təhsillilər orta və peşə-ixtisas təhsillilərə nisbətən ($X^2(4)=111{,}833$ $P<0{,}01$) TŞ-nin VIII Zirvə Görüşü ilə bağlı məlumatlıdırlar.

İstanbulda müstəqil türk respublikalarını təmsil edən liderlərin toplantısı zamanı olduqca mühüm olan qərarlar qəbul olundu və bir neçə əlamətdar hadisə ilə yadda qaldı. İstanbul Sammitində ən mühüm qərar – ad dəyişikliyə ilə bağlı oldu. Belə ki, bundan sonra türk liderlərinin birliyi Şura deyil, Təşkilat adlandırılacaq və türkdilli ifadəsi türk dövlətləri ifadəsi ilə əvəzlənəcək. Beləliklə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı "Türk Dövlətləri Təşkilatı"na dəyişdirildi. Şuranın təşkilat formasına keçməsi qurumun statusunun yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsinə əlavə imkanlar yaradır.

Sammitdə həmçinin Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əli-şir Nəvai adına Beynəlxalq Mükafatı haqqında, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair, Türk Dövlətləri Təşkilatında tərəfdaşlıq statusunun təsis edilməsi haqqında, Türk Dövlətləri Təşkilatının fəxri sədrinin hüquqları haqqında Qaydalara dair, Türk Şurası Baş katibinin fəaliyyət müddətinin uzadılması və Baş katibin müavinlərinin təyinatları haqqında, Türk Dövlətləri Təşkilatının İnvestisiya Fondunun yaradılmasının tamamlanması haqqında qərarlar qəbul olundu və müvafiq sənədlər imzalandı.

Türk dünyası liderlərinin 12 noyabr tarixli Zirvə Görüşünü əlamətdar edən hadisələrdən

biri də Azərbaycan Prezidenti İlham Əliyevin bu qurumun "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi idi. Bu hadisə türk dünyasının daha sıx inteqrasiyası və birliyi uğrunda Prezident İlham Əliyev tərəfindən çox ciddi işlər görməsinin təzahürü idi. Bakı Türkiyə və Mərkəzi Asiya dövlətləri arasında körpü rolunu oynayaraq türk dövlətlərinin daha sıx türk birliklərində iştirak etməsində xüsusi rol oynayıb. Xüsusilə Türk Şurasına uğurla rəhbərlik etdiyi son üç ildə Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin gücləndirilməsi, türkdilli ölkələr və xalqlar arasında dostluq, qardaşlıq və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərib. Ölkəmizin sədrliyi dövründə Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əməkdaşlıq münasibətləri davam etdirilib, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıq çərçivəsi qurulub. Həmçinin bu sadalanan çox vacib işlərlə yanaşı, Türk dövlətlərinin Birliyə üzvlərinin sayı da artan xətt üzrə davam edib. Belə ki, son illərin önəmli hadisələrindən biri Türkmənistanın Təşkilata müşahidəçi qismində qoşulması olub. Eyni zamanda, Özbəkistan Bakı Zirvə Görüşündə təşkilata üzv olub. Beləliklə, 2009-cu ildə Naxçıvan sazişi zamanı əgər dörd dövlət ilə Şuranın fəaliyyətinə start verilmişdisə, 2021-ci ildə baş tutan İstanbul Toplantısında Türk Dövlətləri Təşkilatının qurulması zamanı 7 dövlət iştirak etdi.

Azərbaycanın sədrliyi dövründə təşkilat çərçivəsində mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri qurulub. 2020-ci il aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə Görüşü keçirilib.

Beləliklə, 2020-ci ildə Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, türk dünyası arasında səddə çevrilən Zəngəzura qayıtması, o cümlədən Türkiyənin Mərkəzi Asiya türk dövlətləri ilə artan hərbi-siyasi və iqtisadi əməkdaşlığı türk dünyasının inkişaf yolunda yeni mərhələyə qədəm qoymalarının göstəriciləri idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan ordeni alan Azərbaycan dövlət başçısı İlham Əliyev çıxışı zamanı vacib nüansı qeyd etdi. O bildirdi: “Bu ordenin mənə verilməsi Qarabağın qurtuluş savaşının sonunda baş tutdu. Türk dövlətlərinin bunu bu şəkildə qəbul etməsinə və məni bu ordenə layiq gördüklərinə görə öz adıma və bütün Azərbaycan xalqı adına böyük qürur hissi keçirirəm. Bu, Azərbaycan xalqına verilmiş bir ordendir. Çünki İkinci Qarabağ müharibəsində həqiqətən çox mühüm səylər göstərdik. Bu Ordeni sevgili qardaşım Rəcəb Tayyib Ərdoğandan almağım xüsusilə önəmlidir. Müharibənin ilk günündən son gününə qədər onun bizə göstərdiyi dəstəyi hər an hiss etdik. Həqiqətən də bu dəstək bizə güc verdi, bizi ruhlandırdı, çünki əziz qardaşım Azərbaycanın dünyada tək olmadığını və Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını göstərdi. Biz böyük bir zəfərlə vəzifəmizi yerimə yetirə bildik”.

Sorğuda iştirak edən respondentlərdən “Prezident İlham Əliyevin “Türk Dünyasının Ali Ordeni” ilə təltif olunmasının nəyin göstəricisi olduğu soruşulub. Respondentlərin fikrincə, İlham Əliyevin “Türk Dünyasının Ali Ordeni” ilə təltif olunması Ali Baş Komandanın Türk dünyasının güclü hərbi sərkərdəsi olmasının (51,5%), XXI əsr müharibəsində qalib gələn ölkənin Türk dövləti olmasının (44,9%), Türkdilli ölkələr və xalqlar arasında dostluq, qardaşlıq və əməkdaşlığın daha da möhkəmləndirilməsindəki xidmətin (32,3%), Türk dünyasının birliyinin daha da güclənməsi işinə tarixi-siyasi töhfənin (28,4%), ölkə rəhbərinin beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzunun (25%), Zəngəzur dəhlizi ilə türk dövlətləri arasında əməkdaşlığın inkişafına verdiyi töhfənin (17,6%), bölgədə davamlı sülhün və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə verilən önəmin (8,6%), Təşkilatın fəaliyyətinin gücləndirilməsi istiqamətində göstərilən səylərin (7,2%) göstəricisidir.

❖ Sorğu nəticələrinin təhlili göstərir ki, respondentlərin mütləq əksəriyyəti mənsub olduğu yaş qrupundan, gender mənsubiyyətindən, gəlir və təhsil səviyyəsindən asılı olmayaraq Prezident İlham Əliyevin “Türk Dünyasının Ali Ordeni” ilə təltif olunmasını yüksək qiymətləndirir və bu ali mükafatın ona türk dünyasının daha sıx inteqrasiyası və birliyinə töhfələrinə görə verildiyini təqdir edirlər.




### 3.5. Prezidentin Qələbənin memarı kimi qlobal platformalarda çıxışlarına münasibət

Postmüharibə dövründə Prezident İlham Əliyevin siyasi xəttinə, fəaliyyətinə nəzər saldıqda xüsusilə qlobal platformalarda çıxışlarında onun liderlik potensialının bütün cizgiləri görünür. Bu çıxışlar onun siyasi liderliklə yanaşı zəfər çalmış hərbi lider obrazını da özündə birləşdirir. İlham Əliyev prezident və siyasi lider olaraq, dövlətin məsuliyyətini daşımaqla yanaşı, dəfələrlə milli maraqlar məsələsində güzəştsiz mövqedə olduğunu sübut edib. Beynəlxalq və qlobal məsələlərdə də ciddi təsir gücünə malik lider kimi bir sıra bəşəri təşəbbüslərlə çıxış edib. Məsələn, noyabrın 18-də BMT Baş Assambleyasının 3-cü komitəsində Prezident İlham Əliyevin COVID-19 pandemiyası ilə mübarizəyə və “peyvənd millətçiliyi”nə dair təşəbbüsü əsasında qətnamə layihəsi müzakirə olunaraq qəbul edilib. 171 ölkə qətnamənin lehinə səs verib. Bu da Azərbaycan Prezidentini digər siyasi xadimlərdən fərqləndirən əsas liderlik xüsusiyyətlərindəndir. Zəfərlə bitən Vətən müharibəsində də o, bir daha sübut etdi ki, hər şeyi doğru zamanda, doğru edir.

Postmüharibə dövründə etdiyi bütün çıxışlarında və verdiyi müsahibələrdə dövlət başçısı Qələbənin memarı kimi Azərbaycanın bölgədə sülhün, əməkdaşlığın, inkişafın tərəfdarı olduğunu qeyd edib. Sorğuda iştirak edən respondentlər bu qənaəti tam şəkildə bölüşürlər ki, Prezident Qələbənin memarı kimi qlobal platformalarda intensiv çıxışları ilə Qələbəmizi uğurla beynəlxalq aləmə tanıdır (93,7%), Azərbaycanın informasiya siyasətində üstünlüyünü təmin edir və bu yöndə fəaliyyətə dair yeni imkanlar açır (85,7%), Qələbənin tarixiləşdirilməsində vətəndaş iştirakçılığını və ümummilli həmrəyliyi stimullaşdırır (85,7%), milli maraqlarımıza zidd cəhdlərə və xarici təsirlərə qarşı müqaviməti gücləndirir (81,9%).

Qeyd edək ki, STM-in 2021-ci ilin yanvar-mart aylarını əhatə edən və aprelin 1-12 tarixləri arasında keçirilən sorğusunda respondentlərin Prezidentin fevralın 26-da – XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsinin 29-cu ildönümü günündə yerli və xarici media nümayəndələri üçün 4 dildə 30-dan çox media qurumunun 50-dən çox sualını cavablandıraraq keçirdiyi mətbuat konfransında verdiyi və dünya mediasında böyük maraqla qarşılanan mesajların informasiya cəbhəsində bundan sonrakı qələbələrdən xəbər verməsi fikri ilə respondentlərin 90,8%-i tam, 7,9%-i isə qismən razılaşdığını ifadə etmişdi. Həmin sorğuda respondentlərin 59,5%-i Prezidentin dünya ictimaiyyətini informasiya cəhətdən dolğun məlumatlandırmasını, 51,2%-i Azərbaycanı dünya gündəminə daşımasını təqdir etmişdi.




## 3.6. Prezidentin gənclər siyasətinə ictimai münasibət

Müstəqillik illərində ölkəmizdə aparılan gənclər siyasətinin ən böyük uğurlarından biri gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasıdır. Dövlətimizin başçısı İlham Əliyevin istər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə hər bir müsahibəsi, müraciəti, nitqi bu günümüzün reallıqlarına baxış fonunda gələcəyimizlə bağlı çağırışları özündə ehtiva edir. Dövlətimizin başçısının hər bir çıxışında gənclərə böyük çağırışlar edilir.

Eyni zamanda, bu gün yaşlı nəslin təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdətin yaradılması prioritet məsələ kimi öndədir. Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ilin prezident seçkilərində qələbəsindən sonra keçirilən möhtəşəm tədbirdə səsləndirdiyi "Mən Azərbaycan gənclərinə üz tutub deyirəm, - görürəm ki, burada toplaşanların əksəriyyəti gənclərdir, - ölkəmizin gələcəyi sizin əlinizdə olacaq" çağırışı da özündə bu məqamları ehtiva edirdi. Vətən müharibəsində müasir dövrümüzün yeni qəhrəmanları - gənclərimiz öz igidlikləri ilə adlarını tariximizə əbədi yazdılar. Vətən müharibəsi təsdiqlədi ki, Azərbaycan gənclərində vətənpərvərlik kifayət qədər yüksək səviyyədədir.

Dövlətimizin başçısı İlham Əliyev sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bir daha bu kimi məqamlara xüsusi diqqət yönəltdi: "Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır".[13]

Məhz bu kontekstdən çıxış edərək sorğuda iştirak edən respondentlərdən "Dövlət başçısının "Gənc nəsil mənfi təsirlərdən uzaq olmalı və Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır" fikrinə münasibət də soruşulub. Respondentlər bu fikirdədirlər ki, Prezidentin bu fikri gənclərimizin milli ruhda tərbiyəsində şəhidlərimizin, qazilərimizin və müharibə iştirakçılarımızın həyat yolunun örnək kimi götürülməsi-

ni (66,3%), zəfər tariximizin təbliğində gənclərin daha aktiv və çevik fəaliyyətini (50,4%), gənclərin milli ideologiya ətrafında birləşməsinin vacibliyini (45.1%), tarixi yaddaş siyasətinin formalaşmasında gənclərin yaxından iştirakının vacibliyini (43.6%), yeni tarixi mərhələdə dövlət siyasətində gənclərə xüsusi yerin ayrılmasını (40.4%) ifadə edir. 1.6% respondent bu suala cavab verməkdə çətinlik çəkib.

❖ Sorğu nəticələrinin təhlilinə əsasən, Prezidentin yuxarıda qeyd olunan fikrinə münasibətdə respondentlərin təhsil və gəlir səviyyəsi, mənsub olduğu yaş qrupu, yaxud yaşadığı yerdən asılı olmayaraq müsbət mövqeyi qeydə alınıb.




[13] *Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. /07 sentyabr 2021/ - https://president.az/articles/52993*

# IV BÖLMƏ.

# PREZİDENTİN MÜXTƏLİF İSTİQAMƏTLƏRDƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT

## 4.1. Prezidentin ordu quruculuğu, xarici siyasət, əhalinin mülki təhlükəsizliyi, sosial müdafiə və kadr islahatları sahələrində fəaliyyətinə münasibət

Prezidentin cari il ərzində müxtəlif istiqamətlərdə fəaliyyətinə ictimai münasibət öyrənilib. Burada müvafiq qurumların deyil, məhz dövlət başçısının həmin sahələrdə birbaşa nəzarətinə, tapşırıqlarına, fərman və sərəncamlarına ictimai mövqe nəzərdə tutulur. Dövlət başçısının bütün istiqamətlər üzrə fəaliyyəti vətəndaş rəyində müsbət qiymətləndirilməklə ilk sıralarda (1) orduda islahatlar, hərbi əməkdaşlıq və təlimlərin genişləndirilməsi, (2) azad edilmiş ərazilərdə böyük quruculuq, bərpa tədbirləri və qayıdışa hazırlıq işləri, (3) xarici siyasət üzrə yüksək strateji fəaliyyəti qərarlaşır. Qeyd edək ki, müharibədən sonra yaranan reallıqda bu fəaliyyət sahələrindən bəziləri xüsusi aktuallıq kəsb etdiyi üçün həmin istiqamətlərdə sorğu nəticələri ilə yanaşı, həyata keçirilən fəaliyyətin qısa icmalına yer verilməsi məqsədəuyğun hesab olunur.

### Ordu quruculuğu

Müzəffər Ali Baş Komandanın tapşırığı və birbaşa nəzarəti altında postmüharibə dövründə orduda aparılan islahatlar və təkmilləşdirmə işləri döyüş meydanında qazanılan hərbi təcrübənin məntiqi davamı hesab olunur. Prezident İlham Əliyev bildirib: “Döyüş meydanında uğurlar qazanmışıq. Amma, eyni zamanda bu döyüş onu göstərdi ki, qüsurlarımız, çatışmazlıqlarımız da var. İkinci Qarabağ müharibəsi bitdikdən sonra qüsurların hamısı ciddi təhlil olunmalıdır. Baxmayaraq ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, biz bundan sonra ordu quruculuğu işində daha müasir metodlardan istifadə etməliyik”.

Bu məqsədlə cari ilin iyul ayında Prezident tərəfindən ordu rəhbərliyində kadr islahatları aparılıb, həmçinin bir sıra hərbi qulluqçuların ali zabit heyəti vəzifələrinə təyin edilməsi istiqamətlərində sərəncamlar imzalanıb. Dövlət başçısının Azərbaycan Ordusunda struktur islahatlarının aparılması və onun say tərkibinin artırılması istiqamətində tapşırıqlarına əsasən şəxsi heyətin yerləşdirilməsinin, rotasiyasının, kadr islahatlarının daha çevik və səmərəli təşkil olunmasına imkan yaradacaq yeni layihələr üzrə işlərə başlanılıb.

Müzəffər Ali Baş Komandan tərəfindən cari il ərzində hərbi nümayəndələr, ordu bölmələri və müharibə iştirakçıları ilə mütəmadi görüşlər keçirilib, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin təminatı və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi ilə bağlı müntəzəm tapşırıqlar verilib. 44 günlük müharibə dövründə erməni mifini darmadağın edərək ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edən hərbi-siyasi rəhbərlik, ordu və xalq birliyi postmüharibə dövründə də böyük ruh yüksəkliyi ilə milli birlik, həmrəylik nümayiş etdirib.

Cari il ərzində postmüharibə şəraitinin yeni tələbləri çərçivəsində müdafiə imkanlarının gücləndirilməsi, orduda peşəkarlığın, döyüş hazırlığının yüksəldilməsi məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilib. Hərbi əməkdaşlığın genişləndirilməsi məqsədilə Türkiyə və Pakistan dövlətlərinin hərbi komandanlığı ilə müntəzəm olaraq, həmçinin Yaponiya, İran, Belarus, Özbəkistan kimi ölkələrin hərbi nümayəndə heyətləri ilə müxtəlif görüşlər keçirilib.

2021-ci il orduda peşəkarlığın yüksəldilməsi, beynəlxalq təcrübə mübadiləsinin dərinləşdirilməsi, regionda təhlükəsizliyə və sabitliyə təminat istiqamətlərində keçirilən genişmiqyaslı hərbi təlimlərlə xarakterikdir. Əsas hissəsi Türkiyə və Pakistan kimi müttəfiq ölkələrlə birgə olmaqla 30-a yaxın təlim və məşq keçirilib. Beynəlxalq təlimlər arasında fevral ayında keçirilən “Qış təlimi-2021”, may ayında “Anatolian Phoenix-2021”, iyun ayında “Anadolu Qartalı - 2021”, “Mustafa Kamal Atatürk - 2021”, avqust ayında “TurAz Şahini - 2021”, sentyabr ayında “Üç qardaş - 2021”, “Sarsılmaz qardaşlıq - 2021” təlimləri regionun gələcək inki-

şafı, bölgədə sülh və sabitliyin təminatı üçün xüsusi mesajlar verib.

Bunlarla yanaşı, Bakıda keçirilən Azərbaycan-Türkiyə 13-cü Yüksək Səviyyəli Hərbi Dialoq iclası, Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirləri arasında birgə mətbuat konfransı, ilin ikinci yarısında NATO komandanlığı və nümayəndə heyətləri ilə müntəzəm görüşlər xüsusi qeyd oluna bilər.

Prezidentin ordu quruculuğuna, onun birbaşa nəzarəti altında həyata keçirilən bu və digər tədbirlərə ictimai münasibət öyrənilib. Orduda kadr islahatları, dövlətlərarası hərbi əməkdaşlıq və birgə beynəlxalq təlimlərin keçirilməsi kimi ümumi fəaliyyət 84,2% respondent tərəfindən çox yaxşı, 14,4% respondent tərəfindən əsasən yaxşı kimi qiymətləndirilib. Ümumilikdə cəmi 0,9% respondent bu istiqamətdə fəaliyyətə mənfi mövqedən yanaşıb (0,4% əsasən pis, 0,5% çox pis). Respondentlərin 0,5%-i rəy bildirməkdə çətinlik çəkib.

### Böyük qayıdış, quruculuq və bərpa işləri

Ölkə rəhbərinin Qarabağda quruculuq və qayıdış istiqamətində yuxarıda bəhs edilən yüksək fəaliyyəti vətəndaş rəylərində müsbət münasibət baxımından növbəti sırada qərarlaşıb. Sorğu iştirakçılarının mütləq əksəriyyəti, yəni 81%-i dövlət başçısının bu sahədə fəaliyyətini çox yaxşı, 15,5%-i əsasən yaxşı kimi qiymətləndirib. Bu sahədə fəaliyyəti mənfi mövqedən qiymətləndirmə ümumilikdə cəmi 1,3% təşkil edib (0,8% əsasən pis, 0,6% çox pis). Respondentlərin təqribən 2,0%-i bu barədə rəy bildirməyib.

### Xarici siyasət

Respondent rəylərində növbəti sırada dövlət başçısının xarici siyasət üzrə yüksək fəaliyyəti qərarlaşıb. Döyüş meydanında məğlubiyyətə uğrayan düşmənin qlobal informasiya məkanında revanşizminə, onu dəstəkləyən ölkələrin qeyri-konstruktiv niyyətlərinə baxmayaraq, dövlət başçısının iki və çoxtərəfli platformalarda milli maraqların müdafiəsi baxımından prinsipial mövqeyi, regionda qalıcı sülh istiqamətində yüksək fəaliyyəti və Azərbaycanı regionun müstəqil subyektinə çevirən düşünülmüş xarici siyasəti vətəndaş rəyində mütləq üstünlüklə dəstəklənib. Sorğuda iştirak edən vətəndaşların 74,2%-i xarici siyasət istiqamətində fəaliyyəti çox yaxşı, 20,1%-i əsasən yaxşı kimi qiymətləndirib. Respondentlərin cəmi 0,9%-i xarici siyasət üzrə fəaliyyətə əsasən pis, 1,4%-i çox pis mövqeyindən yanaşıb. Sorğu iştirakçılarının 3,4%-i fikir bildirməkdə çətinlik çəkib.

### Əhalinin mülki təhlükəsizliyi

Müharibə dövründə olduğu kimi, postmüharibə dövründə də əhalinin mülki təhlükəsizliyinin qorunması istiqamətində ölkə rəhbəri tərəfindən müvafiq qurumlar qarşısında qoyulan tələblərə və tapşırıqlara münasibət respondent rəylərində növbəti sırada qərarlaşıb. Qeyd edək ki, xüsusən cari il ərzində tam təhlükəsizlik təmin olunmayanadək vətəndaşların işğaldan azad olunmuş ərazilərə daxil olmaq istəyi ilə bağlı məhdudiyyətlər burada nəzərə çatdırıla bilər. Sorğu iştirakçılarının 60,2%-i mülki təhlükəsizliyin qorunması istiqamətində fəaliyyəti çox yaxşı, 30%-i əsasən yaxşı kimi qiymətləndirib. Təqribən 3,5% respondent əsasən pis, 4,0% respondent çox pis variantlarını qeyd edib. 2,3% respondent bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

### Sosial müdafiə

Postmüharibə dövründə hərbi və mülki təhlükəsizliklə yanaşı, sosial müdafiə sahəsində fəaliyyətin genişləndirilməsi dövlət siyasətinin prioritetləri arasında yer alıb. Dövlət başçısı tərəfindən xüsusilə müharibə iştirakçılarının, qazilərin və şəhid ailələrinin rifahının yüksəldilməsi ilə bağlı müvafiq qurumlar qarşısında mühüm tapşırıqlar qoyulub.

Sosial rifahın yüksəldilməsi üzrə davam edən tədbirlərin nəticəsi olaraq, rəsmi məlumatlara görə cari il ərzində son ötən üç illə müqayisədə əmək müqavilələri 30%, minimum əməkhaqqı 116%, aylıq əməkhaqqı fondu 81%, minimum pensiya məbləği 82%, orta aylıq pensiya məbləği 43%, müavinətin orta aylıq məbləği 95% həcmində artıb. Həmçinin dövlət başçısı tərəfindən imzalanan müvafiq sərəncam ilə 2022-ci il üzrə minimum əmək haqqı, pensiya və müavinətlərin artırılması nəzərdə tutulub. Cari il ərzində müvafiq fərman və sərəncamlar əsasında Prezident təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7%, Azərbaycanın Milli Qəhrəmanı üçün 20%, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100%, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50%-dən çox artırılıb, Vətən Müharibəsi Qəhrəmanları üçün Prezidentin aylıq təqaüdü təsis olunub.

Dövlət başçısının tapşırıqları əsasında müharibədə əmək qabiliyyətini itirən şəxslərə və şəhid ailələrinə, həssas qruplara xüsusi ya-

naşma tətbiq olunub. Rəsmi məlumatlara görə, postmüharibə dövründə sosial dəstək tədbirləri şəhid ailəsi üzvləri, Vətən müharibəsi qaziləri və yaxınlarından ibarət 31 mindən çox şəxsi əhatə edib.

İmzalanan müvafiq sərəncam əsasında şəhid ailələri üzvlərinin, müharibədə xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri yaradılıb. İlin əvvəlindən noyabr ayına qədər həmin mərkəzlərə 3 mindən çox şəhid ailəsi üzvü və qazi müraciət edib.

Prezidentin müvafiq sərəncamına əsasən 2021-ci il ərzində şəhid ailələri və müharibə əlilləri üçün 3 min mənzil və fərdi evin tikilərək təhvil verilməsi, 2025-ci ilə qədər bu rəqəmin 11 minə çatdırılması nəzərdə tutulub. İlin əvvəlindən noyabr ayına qədər aidiyyəti nazirlik tərəfindən 1900 şəxsə 370 mənzil təqdim olunub. Sözügedən qruplar ötən dövrdən indiyədək ümumilikdə 9570 mənzil və fərdi ev ilə təmin edilib.

Sorğu çərçivəsində dövlət başçısının sosial müdafiə sahəsində qeyd olunan genişmiqyaslı fəaliyyətinə ictimai münasibət öyrənilib. Nəticələrin təhlilinə əsasən, sorğuda iştirak edən vətəndaşların 53,9%-i dövlət başçısının sosial müdafiə sahəsində fəaliyyətini çox yaxşı, 32,3%-i əsasən yaxşı kimi qiymətləndirib. Respondentlərin 5,5%-i əsasən pis, 5,4%-i çox pis variantlarını qeyd edib. 2,9% respondent cavab verməkdə çətinlik çəkib.

### Kənd təsərrüfatının inkişafı

Analoji müsbət mövqe kənd təsərrüfatının inkişafı istiqamətində də qeydə alınıb. Dövlət başçısı tərəfindən kənd təsərrüfatına yararlı torpaqların idarə edilməsi, aqroparkların fəaliyyətinin tənzimlənməsi, ixrac məqsədli aqrar istehsal mallarına gömrük və vergi güzəştlərinin tətbiqi, idxaləvəzləyici siyasətin gücləndirilməsi, aqrar sahədə çalışanlara dövlət dəstəyi və investisiyanın təşviqi, aqrar sahədə şəffaflığın və operativliyin təmin olunması məqsədilə innovativ sistemin tətbiq olunması istiqamətlərində imzalanan fərman və sərəncamlar respondentlərin əksəriyyəti tərəfindən müsbət qarşılanıb.

Sorğu iştirakçılarının 52,5%-i dövlət başçısının aqrar sahənin inkişafı istiqamətində fəaliyyətini çox yaxşı, 34,2%-i əsasən yaxşı kimi qiymətləndirib. 5,2% respondent əsasən pis, 6,3% respondent çox pis mövqeyindən çıxış edib. Respondentlərin 1,9%-i bu haqda fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

### Əhalinin sağlamlığının qorunması

Hazırda dünyada, o cümlədən ölkəmizdə pandemiya vəziyyətinin davam etməsini nəzərə alaraq, ölkə başçısının səhiyyə sahəsində fəaliyyətinə ictimai münasibətin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Qeyd edək ki, Azərbaycan ötən il Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırılıb və STM tərəfindən həmin dövrə aid sorğu nəticələri də bu müsbət mövqeyi təsdiqləyib. Cari il səhiyyə sahəsində mövcud siyasətin davamı kimi, dövlət başçısının müvafiq tapşırıqları əsasında ölkədə icbari tibbi sığorta sisteminin gücləndirilməsi, səhiyyə sistemində rəqəmsallaşmanın genişləndirilməsi və maddi-texniki bazanın müasirləşdirilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilib.

Dövlət başçısı tərəfindən il ərzində müxtəlif rayonlarda yüksək tələblərə cavab verən mərkəzi xəstəxanalar, laboratoriya və diaqnostika mərkəzləri istifadəyə verilib ki, bu da hazırkı pandemiya şəraitində xüsusilə əlamətdardır. Həmçinin Azərbaycan dövləti pandemiyaya qarşı effektiv tədbirlərə başlayan və bu sahədə qlobal səyləri birləşdirən, qlobal “peyvənd millətçiliyi”nə qarşı mübarizə aparan ilk ölkələr sırasındadır. Cənubi Qafqazda vaksinasiya işlərinə ilk start verən ölkə olmaqla yanaşı, Azərbaycan hazırda pandemiya ilə mübarizə sahəsində dünyanın qabaqcıl ölkələri arasında qərarlaşıb.

Dövlət başçısı cari il ərzində Ümumdünya Sağlamlıq Günü münasibətilə keçirilən tədbirdə, eləcə də Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında bu istiqamətlərdə görülən tədbirlərlə bağlı geniş videomüraciətlə çıxış edib.

Prezidentin müvafiq sərəncamları əsasında səhiyyə sahəsində səmərəli fəaliyyəti ilə seçilən, xüsusən pandemiya ilə mübarizədə ön cəbhədə xidmət göstərən tibb işçiləri mükafatlandırılıb, onlara “Əməkdar həkim”, “Əməkdar tibb işçisi” fəxri adları və medalları təqdim olunub. Qeyd edək ki, sözügedən tədbirlərin cari il ərzində, yəni Türkiyə dövlətinin təklifi əsasında ÜST tərəfindən “Səhiyyə işçiləri ili” elan olunmasından əvvəl həyata keçirilməsi xüsusilə əlamətdardır.

Keçirilən sorğunun nəticələrinə əsasən, dövlət başçısının əhalinin sağlamlığının qorunması ilə bağlı fəaliyyəti sorğuda iştirak edən vətəndaşların 55,3%-i tərəfindən çox yaxşı, 29%-i tərəfindən əsasən yaxşı kimi qiymətləndirilib. Sorğu iştirakçılarının cəmi 5,4%-i əsasən pis, 8,5%-i çox pis mövqeyindən çıxış edib. Respon-

dentlərin 1,9%-i bu barədə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

### Qeyri-neft sektorunun inkişafı

Sorğu çərçivəsində növbəti sırada qeyri-neft sektorunun inkişafına ictimai münasibət qərarlaşıb. Ötən dövr, eləcə də cari il ərzində qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, ixrac potensialının artırılması və xarici investisiyanın cəlb olunması məsələləri ölkə rəhbərinin prioritetləri arasında yer alıb. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" daxilində qeyri-neft sektorunun iqtisadi inkişafın mərkəzinə çevrilməsi, iqtisadiyyatda bu sektorun payının artırılması və sözügedən sektorun maliyyələşdirilməsində özəl sektorun payının artırılması növbəti dövr üçün vacib hədəflər kimi qeyd olunub. Ölkədə sənaye zonalarının, aqroparkların yaradılması, Ələt Azad İqtisadi Zonasının istifadəyə verilməsi, Hacıqabul Sənaye Məhəlləsinin açılışı, vergi daxilolmalarında artım, regionda icra olunan yeni tranzit-nəqliyyat dəhlizləri bu qəbildən tədbirlərin nəticəsi və davamı hesab oluna bilər.

İşğaldan azad olunan ərazilərin inkişafı və inteqrasiyası, bölgənin iqtisadi inkişaf drayverinə çevrilməsi baxımından Ağdam Sənaye Parkının, həmçinin Şərqi Zəngəzur iqtisadi rayonunda "Araz Vadisi İqtisadi Zonası"nın təməlinin qoyulması tədbirləri xüsusilə qeyd olunmalıdır. Rəsmi məlumatlara əsasən, qeyri-neft sektorunda 11% həcmində artım, keçən illə müqayisədə cari il qeyri-neft ixracında 42% həcmində artım bu sahədə məqsədyönlü fəaliyyətin müsbət nəticəsi kimi dəyərləndirilə bilər.

Qeyri-neft sektoru üzrə fəaliyyətin müsbət nəticəsi özünü vətəndaş rəyində də doğruldur. Sorğu iştirakçılarının 49,7%-i ölkə rəhbərinin qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətini çox yaxşı, 32,2%-i əsasən yaxşı kimi qiymətləndirib. Təqribən hər on respondentdən biri bu sahədəki fəaliyyəti qeyri-qənaətbəxş hesab edib (4,7% əsasən pis, 5,3% çox pis). Ümumi rəyi öyrənilənlərin 8,2%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

### Kadr islahatları

Vətəndaş rəylərində növbəti sırada kadr islahatlarına münasibət dayanır. Dövlət başçısı tərəfindən cari il ərzində aparılan kadr islahatları ordu strukturları və prokurorluq orqanları ilə yanaşı, Prezidentin işğaldan azad olunan regionlara xüsusi nümayəndələrini və bir sıra rayonların yerli icra hakimiyyəti başçıları vəzifələrinə təyinatları əhatə edir. Beləliklə, ötən illərdən başlayan kadr islahatları mövcud şərtlərə baxmayaraq cari il ərzində də davam etdirilib, ölkədə mühüm inzibati-siyasi vəzifələr üzrə kadr korpusu əhəmiyyətli dərəcədə yenilənib. Dövlət başçısı tərəfindən aparılan kadr islahatları sorğu iştirakçılarının 46,5%-i tərəfindən çox yaxşı, 32,2%-i tərəfindən əsasən yaxşı kimi qiymətləndirilib. Yəni ümumilikdə 78,7% respondent kadr islahatları ilə bağlı müsbət mövqe sərgiləyib. Rəyi öyrənilənlərin müvafiq olaraq 7,1%-i cari il bu istiqamətdə fəaliyyəti əsasən pis, 8,9%-i çox pis kimi qiymətləndirib. 5,2% respondent bu barədə mövqe bildirməkdə qərarsız qalıb.

### Korrupsiyaya qarşı mübarizə

Korrupsiya ilə mübarizə hər zaman olduğu kimi, bu il ərzində də dövlət başçısı tərəfindən prioritetlər arasında saxlanılıb. Dövlət başçısı bu barədə bildirib: "Əgər korrupsiya, rüşvətxorluq halları olmasaydı, baxın, bizim dövlət büdcəmiz nə qədər artardı, bizim imkanlarımız nə qədər genişlənərdi. Biz bu gün aparılan islahatlar nəticəsində əldə edilmiş əlavə mənfəəti, ilk növbədə, insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldirik. İndi ilin doqquzuncu ayıdır. Ancaq şəffaflıq nəticəsində, islahatlar nəticəsində dövlət büdcəsində profisit yaranıb və biz bunun böyük hissəsini yenə də insanların sosial müdafiəsinə yönəldirik". Prezident xüsusən kadr islahatları və yeni təyinatlar zamanı yüksək vəzifəli məmurların, yerli və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin cinayət məsuliyyətinə cəlb olunmasına səbəb olan əməlləri xatırladaraq məmurları daim çirkin əməllərdən əl çəkməyə, yüksək etimadı doğrultmağa, vətəndaşların razılığını qazanmağa çağırıb.

Dövlət başçısının korrupsiya ilə mübarizə istiqamətində fəaliyyəti respondentlərin 74,9%-i tərəfindən uğurlu hesab olunub (48,6% çox yaxşı, 26,3% əsasən yaxşı). Sorğu iştirakçılarının 8,4%-i cari il bu istiqamətdəki fəaliyyəti əsasən pis, 13,3%-i çox pis kimi qiymətləndirib. 3,4% respondent bu barədə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib.

Ümumi nəticələrin təhlilinə əsasən, Prezidentin yuxarıda qeyd olunan müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibətdə respondentlərin təhsil və gəlir səviyyəsi, mənsub olduğu yaş qrupu, yaxud digər meyarlardan asılı olmayaraq müsbət mövqe qeydə alınıb. Sorğuya cəlb olunan vətəndaşların əksəriyyəti dövlət başçısının cari il ərzindəki fəaliyyətini uğurlu hesab edib.




## 4.2. Dövlət orqanlarının, nazirlik, komitə və xidmətlərin fəaliyyətinə münasibət

Rəy sorğusunda müvafiq icra hakimiyyəti orqanlarının, aidiyyəti nazirlik, komitə və xidmətlərin səlahiyyətinə aid sahələrdə fəaliyyətinin ictimai qiymətləndirməsinə yer verilib. Sorğuda fəaliyyət sahələri xüsusən hazırkı dövr üçün aktuallıq kəsb etməsi nəzərə alınaraq seçilib. Müxtəlif sahələr üzrə fəaliyyətə ictimai münasibətin bu və ya digər miqyasda dəyişməsi dövlət başçısı tərəfindən həmin qurumlar qarşısında qoyulan məsələlərin icra vəziyyətinə, vətəndaşlara keyfiyyətli xidmət səviyyəsinə dair vəziyyəti göstərən indikator hesab oluna bilər.

Əldə olunan nəticələrin təhlilinə əsasən, sorğuda əks olunan üç sahədə - mülki təhlükəsizliyin təmin olunması, pandemiya ilə mübarizə və iqtisadiyyatın gücləndirilməsi sahəsində aidiyyəti strukturların fəaliyyəti vətəndaşların yarıdan çoxu tərəfindən tam səmərəli kimi qiymətləndirilib. Digər sahələr üzrə analoji göstəricilər nisbətən aşağı olmaqla sonuncu sıralarda sosial müdafiə, büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi və qiymət artımının qarşısının alınması sahəsində fəaliyyətlər qərarlaşıb.

### Əhalinin təhlükəsizliyi

Vətəndaş rəylərində yüksək göstərici ilə ilk sırada mülki təhlükəsizliyin və ictimai sabitliyin təmin olunması istiqamətində fəaliyyət qərarlaşıb. Sorğu iştirakçılarının 57,5%-i əhalinin təhlükəsizliyinin təmin olunması fəaliyyətini tam səmərəli, 34,2% qismən səmərəli, cəmi 5,4% səmərəsiz hesab edib. Respondentlərin 2,9%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib. Sorğu nəticələrində əksini tapan bu yüksək nəticə aidiyyəti orqanların fəaliyyətinə ictimai etimad və rəğbət göstəricisi hesab oluna bilər.

### Pandemiya ilə mübarizə və vaksinasiya

Sorğu nəticələrində növbəti sırada pandemiya ilə mübarizə və vaksinasiya tədbirlərinə münasibət qərarlaşıb. Qeyd edək ki, pandemiya ilə mübarizədə "Azərbaycan modeli" təkcə bu sahənin aparıcı beynəlxalq təşkilatları tərəfindən deyil, eləcə də ictimai rəydə yüksək qiymətləndirilib. Azərbaycan Cənubi Qafqazda vaksinasiya prosesinə ilk başlayan ölkə olmaqla yanaşı, vaksinasiya səviyyəsinə görə də birinci yerdə dayanıb. Noyabr ayının sonuna olan mə-

lumata əsasən, əhalinin 5 milyondan çoxu birinci doza üzrə, 4,5 milyondan çoxu ikinci doza üzrə vaksinasiya olunub. Vətəndaşlar arasında aparılan rəy sorğusu onların 65,8%-nin dövlətin bu sahədəki fəaliyyətini tam səmərəli, 22,9%-nin qismən səmərəli hesab etdiyini göstərir. Bu sahədə fəaliyyəti səmərəsiz hesab edənlər 9,7% təşkil edib. Respondentlərin 1,6%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

### İqtisadiyyatın gücləndirilməsi

Vətəndaş rəyində növbəti sırada iqtisadiyyatın gücləndirilməsi sahəsində fəaliyyət dayanıb. Rəy sorğusunda iştirak edənlərin 51,4%-i aidiyyəti strukturlar tərəfindən ölkədə investisiyanın təşviqi, sahibkarlara dəstək, iqtisadi inkişaf sahəsindəki ümumi fəaliyyəti səmərəli, 32,7%-i qismən səmərəli hesab edib. Respondentlərin 12,8%-i bu sahədəki fəaliyyəti səmərəsiz kimi qiymətləndirib, 3,1% respondent fikir bildirməkdə çətinlik çəkib.

### Yol infrastrukturunun, kommunal xidmətlərin yaxşılaşdırılması

Müvafiq qurumlar tərəfindən yol infrastrukturunun, eləcə də kommunal təchizatın yaxşılaşdırılması istiqamətində fəaliyyət respondentlərin 49,8%-i tərəfindən səmərəli hesab olunub. Bu istiqamətlərdə fəaliyyəti 31,1% respondent qismən səmərəli, 17,3% səmərəsiz kimi dəyərləndirib. Respondentlərin 1,7%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

### Keyfiyyətli səhiyyə xidmətləri ilə təminat

Pandemiya ilə mübarizə sahəsində fəaliyyətin yüksək qiymətləndirilməsinə baxmayaraq, müvafiq qurumlar tərəfindən verilən səhiyyə xidmətlərinin keyfiyyəti ictimai rəydə aşağı qiymətləndirilib. Keyfiyyətli səhiyyə xidmətləri ilə təminat sorğu iştirakçılarının 37,5%-i tərəfindən tam səmərəli, 40,8%-i tərəfindən qismən səmərəli, 19%-i tərəfindən səmərəsiz hesab olunub. 2,7% respondent bu barədə fikir bildirməkdə çətinlik çəkib.

### Korrupsiyaya qarşı mübarizə

Sorğuda iştirak edən vətəndaşların 34,1%-i aidiyyəti orqanların korrupsiyaya qarşı mübarizə fəaliyyətini səmərəli, 38%-i qismən səmərəli hesab edib. Respondentlərin 23,7%-i bu sahədə fəaliyyəti səmərəsiz qiymətləndirib, 4,3%-i mövqe bildirməkdə çətinlik çəkib.

### Sosial müdafiə

Postmüharibə və pandemiya dövründə fəaliyyəti xüsusi aktuallıq qazanan sosial müdafiə sahəsində görülən işlər vətəndaş rəylərində növbəti sırada dayanıb. Respondentlərin 32,3%-i aidiyyəti strukturların fəaliyyətini səmərəli, 38,9%-i qismən səmərəli kimi qiymətləndirib. Sorğu iştirakçılarının 24,9%-i bu istiqamətdə fəaliyyəti səmərəsiz hesab edib, 4%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

### Büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi

Respondentlərin cəmi 25%-i büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi sahəsində aidiyyəti orqanların fəaliyyətini səmərəli, 35,5%-i qismən səmərəli kimi qiymətləndirib. Təqribən hər dörd respondentdən biri, yəni sorğu iştirakçılarının 27,9%-i bu istiqamətdə fəaliyyəti səmərəsiz hesab edib. 11,6% respondent bu haqda rəy bildirməkdə çətinlik çəkib.

### Qiymət artımının qarşısının alınması

İctimai rəy sorğusunun nəticələri baxımından sonuncu yerdə aidiyyəti strukturlar tərəfindən qiymət artımının qarşısının alınması sahəsində fəaliyyət qərarlaşıb. Respondentlərin cəmi 15,5%-i bu sahədə fəaliyyəti səmərəli, 24,8%-i qismən səmərəli hesab edib. Sorğu iştirakçılarının 57,4%-i qiymət artımının qarşısının alınması sahəsində tədbirləri səmərəsiz kimi qiymətləndirib.

❖ Nəticələrin təhlili Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibət ilə ayrı-ayrı dövlət strukturlarının müvafiq sahələrdə fəaliyyətinə ictimai mövqenin bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyini göstərir. Bu iki göstərici arasında əlaqə baxımından məhz əhalinin təhlükəsizliyinin təminatına münasibət məsələsi digərlərindən müsbət mənada (50%-dən yuxarı olmaqla) fərqlənir.

❖ Əhalinin mülki təhlükəsizliyi sahəsində dövlət başçısının fəaliyyətini ümumilikdə yaxşı qiymətləndirən 90,2% respondentin 50,8%-i aidiyyəti orqanların əhalinin təhlükəsizliyi sahəsində fəaliyyətini səmərəli, 35,5%-i qismən səmərəli, 13,8%-i səmərəsiz hesab edib ($X^2(6)=255,682$ $P<0,01$).

❖ Prezidentin sosial müdafiə sahəsində fəaliyyətini ümumilikdə yaxşı qiymətləndirən 86,2% respondentin cəmi 38%-i aidiyyəti strukturların sosial müdafiə sahəsində fəaliyyətini səmərəli, 42,4%-i qismən səmərəli, 19,6%-i səmərəsiz hesab edib ($X^2(6)=309,258$ $P<0,01$).

❖ Ölkənin əsas problemi kimi məşğulluq

məsələsini qeyd edən respondentlərin (59,8%) ümumilikdə 85,5%-i Prezidentin sosial müdafiə sahəsində fəaliyyətini yaxşı qiymətləndirərkən, müvafiq dövlət strukturunun sosial müdafiə sahəsində fəaliyyətini nisbətən aşağı qiymətləndirib (27,6% səmərəli, 42,3% qismən səmərəli, 30,1% səmərəsiz). ($X^2(63)=308,951$ $P<0,01$)

❖ Maddi təminat problemini ifadə edən respondentlərin (30,6%) sosial müdafiə sahəsində fəaliyyətə münasibətinə nəzər yetirsək, onların 48,2%-i Prezidentin sosial müdafiə sahəsində fəaliyyətini çox yaxşı, 38,8%-i əsasən yaxşı kimi qiymətləndirib. 6,6% əsasən pis, 6,3% çox pis mövqeyindən çıxış edib. Sözügedən respondent qrupunun 25%-i aidiyyəti strukturun sosial müdafiə sahəsində fəaliyyətini səmərəli, 44,6%-i qismən səmərəli, 29,6%-i səmərəsiz kimi qiymətləndirib ($X^2(42)=341,060$ $P<0,01$).

❖ Nəticələrin təhlilinə əsasən respondentlərin sosial-iqtisadi vəziyyətində dəyişikliklə onun sosial müdafiə sahəsində aidiyyəti qurumun fəaliyyətinə münasibəti arasında əlaqə mövcuddur. Sosial-iqtisadi vəziyyəti ötən il ilə müqayisədə yaxşılaşanların 54,6%-i aidiyyəti strukturun fəaliyyətini səmərəli, sosial-iqtisadi vəziyyəti pisləşənlərin 53,3%-i aidiyyəti strukturun fəaliyyətini səmərəsiz hesab edib. ($X^2(8)=220,088$ $P<0,01$) Dövlət sektorunda çalışanların 17,8%-i, özəl sektorda çalışanların 33,3%-i, təqaüdçülərin 26,2%-i sosial müdafiə sahəsində fəaliyyəti səmərəsiz kimi qiymətləndirib ($X^2(4)=11,921$ $P<0,05$).

❖ Prezidentin korrupsiyaya qarşı fəaliyyətini ümumilikdə yaxşı hesab edən 74,9% respondentin 44,6%-i aidiyyəti strukturların korrupsiya ilə mübarizə tədbirlərini səmərəli, 41,9%-i qismən səmərəli, 13,4%-i səmərəsiz kimi qiymətləndirib ($X^2(6)=444,763$ $P<0,01$).

❖ Əhalinin sağlamlığının qorunması sahəsində dövlət başçısının fəaliyyətini ümumilikdə yaxşı kimi qiymətləndirən 84,3% respondentin 45%-i aidiyyəti strukturların keyfiyyətli səhiyyə xidməti ilə təminatını səmərəli, 42,8%-i qismən səmərəli, 12,2%-i səmərəsiz hesab edib ($X^2(6)=412,420$ $P<0,01$).

❖ Qiymətlərin bahalaşması problemini qeyd edən respondentlərin (53,1%) əksəriyyəti müvafiq strukturların qiymət artımına qarşı fəaliyyətini əsasən səmərəsiz hesab edib (10,7% səmərəli, 24% qismən səmərəli, 64,2% səmərəsiz) ($X^2(42)=341,060$ $P<0,01$).



### 4.3. Prezidentdən əsas ictimai gözləntilər

Sorğu nəticələrinin təhlili ictimai gözləntilər ilə həyata keçirilən dövlət siyasəti arasında uyğunluğu qeyd etməyə əsas verir. Dövlət başçısı tərəfindən müvafiq qurumlar qarşısında qaldırılan məsələlər, verilən tapşırıqlar ictimai gözləntiləri əks etdirir. Bu baxımdan sorğu nəticələrində qeydə alınan gözlənti və tələblər məhz yerli instansiyaların, aidiyyəti qurumların fəaliyyətindən irəli gələn məqamlar hesab olunur. Post-müharibə dövrünün həssas reallığı və davam edən pandemiyanın mənfi təsirləri sözügedən tələb və gözləntiləri daha da aktuallaşdırır.

Cəmiyyətin dövlət başçısından gözləntilərini öyrənmək məqsədilə vətəndaşlara bu istiqamətdə suallar ünvanlanıb. Əldə olunan nəticələrin təhlilinə əsasən məşğulluğun təminatı ilə bağlı məsələlər Prezidentdən ictimai gözləntilər arasında ilk sırada qərarlaşıb. 80,5% respondent yeni iş yerlərinin yaradılması, məşğulluğun artırılması ilə bağlı tədbirləri dövlət başçısından əsas gözləntisi kimi qeyd edib.

❖ Respondentlərin mənsub olduğu yaş qrupundan, təhsil səviyyəsindən, məskunlaşdığı ərazinin tipindən asılı olmayaraq məşğulluğun təminatı ilə bağlı gözləntilər onların mütləq əksəriyyəti tərəfindən qeyd olunub. Yeni iş yerlərinin yaradılması yuxarı gəlir səviyyəsinə malik respondentlərlə müqayisədə aşağı gəlir səviyyəsinə malik olanlar tərəfindən daha çox dəstəklənib.

Qeyd edək ki, ötən dövr ərzində məşğulluq siyasəti Prezident tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Əhali artımının, demoqrafik inkişafın iqtisadi inkişafı, sərmayə qoyuluşunu üstələməməsi baxımından müvafiq qurumlar qarşısında mühüm vəzifələr qoyulub. Xüsusən pandemiyadan irəli gələn böhranlı vəziyyət yeni iş yerlərinin yaradılmasını daimi prosesə çevirib. Rəsmi məlumatlara görə, cari ilin altı ayı ərzində dövlət tərəfindən 89,1%-i dövlət sektoruna aid olmaqla 30,9 min yeni iş yeri yaradılıb. İlin əvvəlindən noyabr ayına qədər 68,5 min nəfər işlə təmin olunub. Həmçinin işğaldan azad olunan ərazilər məşğulluq səviyyəsinin yüksəldilməsi baxımından əlavə perspektiv imkanlar yaradıb.

İctimai rəydə məşğulluq məsələsi xüsusən müharibə iştirakçılarının, qazilərin əmək fəaliyyətinin təminatı, iqtisadi həyata inteqrasiyası baxımından əhəmiyyətli yer tutur. Rəsmi məlumatlarda müvafiq qurum tərəfindən "Məşğulluq marafonu" və digər layihələr əsasında minlərlə müharibə iştirakçısının məşğulluğunun təmin olunması əksini tapır. Lakin sorğunun nəticələri bu istiqamətdə tədbirlərin genişləndirilməsinə olan ictimai ehtiyac və gözləntiləri ortaya çıxarır. Sorğuda iştirak edən vətəndaşların 69,8%-i müharibə iştirakçılarının, şəhid ailələrinin və qazilərin yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı tədbirləri növbəti gözlənti kimi qeyd edib. Müqayisə üçün qeyd edək ki, şəhid ailələrinin, müharibə iştirakçılarının və veteranların mənzil-məişət şəraitinin yaxşılaşdırılması aprel ayının əvvəllərində keçirilən analoji sorğu zamanı da 74% respondent tərəfindən əsas gözlənti kimi qeyd olunub. Bu göstəricilər müharibənin qaçılmaz nəticələri baxımından gözlənilən olmaqla, qeyd olunan istiqamətdə tədbirlər hazırda həm dövlət, həm də cəmiyyət üçün prioritet təşkil edir.

❖ Respondentlərin təhsil və gəlir səviyyəsindən, yaş qrupu və digər meyarlardan asılı olmayaraq məşğulluğun artırılması mövqeyi onların mütləq əksəriyyəti tərəfindən irəli sürülür.

Sorğu iştirakçılarının 65,8%-i ölkədə sosial rifahın daha da yaxşılaşdırılması, eləcə də 42%-i sosial siyasətin daha da gücləndirilməsi istiqamətində gözləntilərini qeyd edib. Bu nəticə qlobal inflyasiya dalğalarının ölkə iqtisadiyyatına təsiri, sərt qapanmalardan sonra ölkə iqtisadiyyatının tədricən bərpa olunduğu hazırkı mərhələ üçün gözləniləndir. Qeyd etmək yerinə düşər ki, növbəti ilin dövlət büdcəsində sosial rifahın yaxşılaşdırılması istiqamətində dəstək tədbirlərinin daha da genişləndirilməsi, minimum əmək haqqı, pensiya və müavinətlərin artırılması da bu ictimai gözləntilər nəticəsində atılan addımlar hesab oluna bilər.

❖ Sosial rifahın daha da yaxşılaşdırılması və sosial siyasətin gücləndirilməsi mövqeyi yuxarı yaş qrupuna mənsub respondentlər tərəfindən daha çox qeyd olunur. Respondentlərin bu istiqamətdə mövqeyində onların təhsil və gəlir səviyyəsi üzrə müxtəliflik statistik əhəmiyyətli fərq yaratmır.

Prezidentdən ictimai gözləntilər arasında dövlət-cəmiyyət münasibətlərində həssas məqamlardan biri kimi məmur özbaşınalığının qarşısının alınması məsələsi növbəti yerdə dayanır. Bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsi respondent rəylərində 65% göstərici ilə növbəti sırada qərarlaşıb. Məmur özbaşınalığına qarşı qabaqlayıcı tədbirlərin görülməsi xüsusilə son bir neçə il ərzində məhz Prezident tərəfindən nəzarətdə saxlanılıb. İctimaiyyət qarşısında məmurlara verilən tapşırıqlar, edilən çağırışlar zamanı dövlət başçısı ictimai nəzarətin gücləndirilməsini dəstəkləyib, məmur özbaşınalığı ilə bağlı hər bir siqnalın araşdırılacağını vurğulayıb.

❖ Nəticələrin təhlilinə əsasən şəhərdə məskunlaşan respondentlər kənd ərazi vahidlərində

yaşayanlarla müqayisədə məmur özbaşınalığının qarşısının alınması məsələsini daha çox qeyd edib. Respondentlərin təhsil və gəlir səviyyəsi, eləcə də digər parametrlər üzrə bu istiqamətdə statistik əhəmiyyətli fərq qeydə alınmayıb.

Vətəndaş rəylərində növbəti sıralarda 27,5% göstərici ilə təhsilə və elmə diqqətin ayrılması, 19% göstərici ilə vətəndaşlarla daha sıx görüşlərin keçirilməsi, 18,7% göstərici ilə ordu quruculuğunun daha da təkmilləşdirilməsi və digər məsələlər dayanıb. Nəticələr müvafiq olaraq həmin sahələrdə islahatların həyata keçirilməsinə, əlavə tədbirlərin görülməsinə, fəaliyyətin gücləndirilməsinə ictimai ehtiyac kimi şərh oluna bilər.

Müqayisə üçün qeyd edək ki, cari ilin aprel ayının əvvəlində keçirilən və yanvar-mart aylarını əhatə edən sorğu zamanı əhalinin sosial rifahının yaxşılaşdırılması (75,3%), yeni iş yerlərinin yaradılması (74,4%), şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının yaşayış səviyyəsinin yüksəldilməsi (71,7%), qiymət artımınının qarşısının alınması (71,6%) və məmur özbaşınalığına qarşı mübarizənin artırılması (71,1%) dövlət başçısından əsas ictimai gözləntilər kimi yer alıb.



## 4.4. Prezidentin fəaliyyətinə dair informasiya mənbələri

Prezidentin cari il ərzində genişmiqyaslı ictimai-siyasi fəaliyyəti ilə bağlı cəmiyyətin əsas informasiya mənbələri sorğu əsasında müəyyən olunub. Dövlət başçısının azad olunan rayonlarda keçmiş qaçqın və məcburi köçkünlərlə görüşləri, media mənsublarına müsahibələri və müxtəlif platformalarda çıxışlarına dair əsas informasiya mənbələri kimi vətəndaş rəylərində ilk sıralarda televiziya kanalları və sosial media platformaları qərarlaşıb. Sorğu iştirakçılarının əsas hissəsi, yəni 76,6%-i Prezidentin ictimai-siyasi fəaliyyəti ilə bağlı məlumatları televiziya kanallarından aldığını bildirib. İkinci sırada 40,1% göstərici ilə sosial şəbəkələr, üçüncü sırada isə 14,6% göstərici ilə internet saytları qərarlaşıb. Prezidentin fəaliyyətinə dair məlumat almadığını qeyd edənlər ümumi rəyi öyrənilənlərin cəmi 0,2%-ni təşkil edib.




❖ Nəticələrin təhlilinə əsasən respondentlərin yaş səviyyələri artdıqca məlumatları televiziya kanallarından alanların sayı artır. Həmçinin aşağı yaş qruplarına doğru sosial şəbəkə variantını seçənlərin miqyasında artım qeydə alınır. Başqa sözlə, gənc respondentlər arasında sosial şəbəkə platformaları, yaşlı respondentlər arasında televiziya kanalları əsas məlumat mənbəyi rolunda çıxış edir. Respondentlərin gəlir səviyyəsindən asılı olaraq televiziya kanalları və sosial şəbəkələr variantlarını seçənlər arasında əlaqə qeydə alınır. Aşağı gəlir qrupuna mənsub respondentlər üzrə televiziya, yuxarı gəlir qrupuna mənsub respondentlər üzrə sosial şəbəkələr variantlarını seçənlər arasında nisbi fərq nəzərə çarpır.

Ölkə başçısının fəaliyyəti ilə bağlı məlumatları sosial şəbəkə platformalarından alanların yarısı, yəni 50%-i “Instagram”, 20%-i “Twitter”, 20%-i “Facebook”, 10%-i “YouTube” hesablarını qeyd edib. Dövlət başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərləri zamanı video-materialların əsasən rəsmi “Instagram” hesablarından paylaşılması bu istiqamətdə respondent rəylərində müəyyənləşdirici amil hesab oluna bilər.

Ötən ilin müxtəlif rübləri və cari ilin birinci rübü üzrə keçirilən sorğular zamanı da Prezidentin ictimai-siyasi fəaliyyətinə dair əsas məlumat mənbəyi kimi ilk sıralarda televiziya kanalları, sosial şəbəkə hesabları və internet saytları dayanıb. İnformasiya mənbəyi kimi televiziya kanallarını qeyd edənlər 2020-ci ilin mart və iyun ayları üzrə 81,1%, dekabr ayı üzrə yüksələrək 91,3%, 2021-ci ilin mart ayı üzrə 76,6% və cari sorğu üzrə 76,6% təşkil edib. Sosial şəbəkə hesablarını seçənlər üzrə tendensiya 2020-ci ilin mart ayı üzrə 41,7%, iyun ayı üzrə 49,8%, dekabr ayı üzrə internet resurslarına tətbiq olunan məhdudiyyətlər səbəbindən azalaraq 29,9%, 2021-ci ilin mart ayı üzrə 53,2% və cari sorğu üzrə 40,1% kimi dəyişib. İnternet saytları variantını seçənlər üzrə tendensiya 2020-ci ilin mart ayı üzrə 16,4%, iyun ayı üzrə 26,2%, dekabr ayı üzrə 3,9%, 2021-ci ilin mart ayı üzrə 5,5% və cari sorğu üzrə 14,6% təşkil edib.

# V BÖLMƏ.
# İNAM VƏ ETİMADIN DİNAMİKASI

## 5.1. Prezidentə inam və etimad

STM tərəfindən keçirilən əvvəlki sorğuların və cari sorğunun nəticələrinin təhlili Prezident amilinin Azərbaycan cəmiyyətində, ictimai təfəkkürdə ümummilli maraqlar baxımından birləşdirici, uzlaşdırıcı əsas güc mərkəzi olduğunu göstərir.

Bu mövqe Prezidentə və dövlət hakimiyyətinin digər qollarına, dövlət orqanlarına münasibətdə yaranan fərqli nəticələr baxımından özünü doğruldur. Respondentlərin ölkə həyatında müxtəlif aktual məsələlərlə, yaxud dövlət qurumlarının fəaliyyəti ilə bağlı mövqeləri bu və ya digər dərəcələrdə fərqlənərkən, Prezidentə inam və






etimadda birləşir, vahidlik, monolitlik təcəssüm etdirir. Sorğu iştirakçılarının 91,2%-i Prezidentə tam etibar etdiyini, 6,9%-i əsasən etibar etdiyini bəyan edib. Cəmi 0,8% respondent əsasən etibar etmədiyini, 0,8% respondent heç etibar etmədiyini qeyd edib. Respondentlərin 0,3%-i bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkdiyini bildirib.

Sorğu iştirakçılarının 84,9%-i I Vitse-prezidentə tam etibar etdiyini, 10,1%-i əsasən etibar etdiyini bildirib. Respondentlərin cəmi 1,4%-i əsasən etibar etmədiyini, 2,6%-i heç etibar etmədiyini qeyd edib. 1,1% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

❖ Nəticələrin təhlili respondentlərin mütləq əksəriyyətinin mənsub olduğu yaş qrupundan, təhsil və gəlir səviyyəsindən, yaşadığı ərazidən asılı olmayaraq Prezidentə və I Vitse-prezidentə inam və etimadının yüksək olduğunu göstərir.

Ötən ilə və cari ilin əvvəlinə olan göstəricilərlə müqayisədə Prezidentə inam və etimadla bağlı hazırkı nəticələr ən yüksək göstəricilər hesab oluna bilər. Bu nəticələrdə 44 günlük müharibədən sonra azad olunmuş ərazilərin quruculuğu və bərpası, reinteqrasiyası məqsədilə həyata keçirilən uğurlu investisiya tədbirləri, Prezidentin keçmiş qaçqın və məcburi köçkünlərlə mütəmadi görüşləri, çoxsaylı ölkədaxili və xarici səfərləri, Müzəffər Ali Baş Komandanın düşmən qarşısında prinsipial mövqeyi və duruşu, müxtəlif platformalarda işğalın nəticələrini, regionda vəziyyəti əks etdirən qətiyyətli çıxışları, regiona beynəlxalq layihələrin cəlb olunması kimi müxtəlif istiqamətlərdə yüksək fəaliyyəti mühüm faktor kimi çıxış edir.

Belə ki, cari ilin əvvəlindən noyabr ayına qədər olan dövrdə dövlət başçısı tərəfindən ictimaiyyətə açıq olan məlumatlar üzrə bu istiqamətlərdə beynəlxalq və yerli səviyyəli 60-dan çox görüş və səfər, 40-dan çox müşavirə, müsahibə və mətbuat konfransı səviyyəli tədbirlərdə çıxış, 100-dən çox qəbul, xarici ölkə başçıları və rəsmiləri ilə 40-dan artıq telefon danışığı, əsas hissəsi işğaldan azad olunan əraziləri əhatə etməklə 120-dən çox təməlqoyma və açılış tədbirləri həyata keçirilib. STM tərəfindən dövri olaraq keçirilən sorğular zamanı Prezident və I Vitse-prezidentə inam və etimad səviyyəsində tendensiya, diaqramdan göründüyü kimi, müxtəlif nisbətlərdə dəyişib. 2021-ci ilin birinci rübü üzrə keçirilən sorğularda Prezidentə tam etibar etdiyini bəyan edən respondentlər 88,3%, hazırkı sorğuda isə 91,2% təşkil edib. Həmçinin I Vitse-prezidentə tam etibar etdiyini qeyd edənlər ilin birinci rübü üzrə 82,5%, hazırkı sorğuda 84,9% olub.

## 5.2. Milli Məclisə və məhkəmə orqanlarına inam və etimad

Rəy sorğusu əsasında hakimiyyətin digər qollarına, parlament və məhkəmə institutlarına olan ictimai inam və etimad səviyyəsi də öyrənilib. Qeyd edək ki, sözügedən institutlara inam və etimad dövri olaraq dəyişməklə nəticələr məhz sorğunun keçirildiyi zaman intervalına olan vəziyyəti əks etdirir.

Sorğuda iştirak edənlərin 33,9%-i Milli Məclisə tam etibar etdiyini, 29,3%-i əsasən etibar etdiyini bəyan edib. Respondentlərin 8,3%-i əsasən etibar etmədiyini, 25,2%-i isə heç etibar etmədiyini bildirib. 3,4% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib. Nəticə etibarilə təqribən hər üç vətəndaşdan ikisinin parlament institutuna bu və ya digər dərəcədə etibar etdiyi qeyd oluna bilər. Müqayisə üçün bildirək ki, cari ilin ikinci yarısında keçirilən sorğular zamanı Rusiya cəmiyyətində Dövlət Dumasına inam və etimad ümumilikdə 35,5%, Türkiyə cəmiyyətində Böyük Millət Məclisinə inam və etimad ümumilikdə 40%-44% təşkil edib.

❖ Nəticələrin təhlilinə əsasən, vətəndaş rəylərində onların gəlir səviyyəsi və yaş qrupları üzrə statistik əhəmiyyətli fərq qeydə alınmır. Orta təhsillilər ali təhsillilər ilə müqayisədə, kənd ərazi vahidlərində yaşayanlar şəhərdə məskunlaşan respondentlərlə müqayisədə parlamentə nisbətən daha çox inam və etimad göstərir.

Sorğu nəticələrinin təhlilinə əsasən, 33,3% respondent məhkəmələrə tam, 30,5% isə əsasən etibar etdiyini bildirib. Rəyi öyrənilənlərin 5,0%-i əsasən etibar etmədiyini, 22,4%-i isə heç etibar etmədiyini qeyd edib. Respondentlərin 8,8%-i bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkib. Göründüyü kimi, məhkəmə institutlarına olan ictimai inam və etimadla parlamentə olan münasibət arasında uyğunluq müşahidə olunur. Ümumilikdə təqribən hər üç respondentdən ikisi məhkəmələrə bu və ya digər dərəcədə etibar etdiyini bildirib.

❖ Məhkəmə orqanlarına inam və etimad səviyyəsi üzrə sorğu iştirakçılarının gəlir və təhsil səviyyələri, yaş qrupu və gender mənsubiyyəti üzrə statistik əhəmiyyətli fərq qeydə alınmayıb. Şəhərdə yaşayan respondentlər kənd ərazi vahidlərində məskunlaşanlarla müqayisədə məh-

kəmə orqanlarına nisbətən az etibar ediblər.

Azərbaycan cəmiyyətinin parlament və məhkəmə orqanlarına inam və etimad səviyyəsi ötən və cari il ərzində müxtəlif miqyaslarda dəyişib. Ümumiyyətlə, parlamentə etibar etdiyini bildirənlər 2020-ci mart ayında 57,4%, 2020-ci ilin iyun ayında 61,5%, 2021-ci ilin mart ayında 62,2% və hazırkı sorğu üzrə 63,2% təşkil edib. Həmçinin məhkəmə orqanlarına ümumilikdə etibar edənlər 2020-ci ilin mart ayı üzrə 49%, 2020-ci ilin iyun ayı üzrə 59%, 2021-ci ilin mart ayı üzrə 60,7% və hazırkı sorğu üzrə 63,8% təşkil edib.

## 5.3. Yuxarı və yerli icra hakimiyyəti orqanlarına inam və etimad

Sorğu çərçivəsində vətəndaşların yuxarı icra orqanı kimi Nazirlər Kabinetinə və yerli icra hakimiyyəti orqanlarına inam və etimadı da öyrənilib. Sorğu iştirakçılarının 36,3%-i Nazirlər Kabinetinə tam, 32%-i əsasən etibar etdiyini bildirib. Əks mövqedən çıxış edənlər isə ümumilikdə 26,5% təşkil edib (7,3%-i əsasən etibar etmir, 19,2%-i heç etibar etmir). Başqa sözlə, təqribən hər dörd respondentdən biri Nazirlər Kabinetinə etibar etmədiyini ifadə edib.

❖ Nəticələrin təhlilinə əsasən şəhər ərazi vahidləri ilə müqayisədə kənd və qəsəbə ərazi va-






hidlərində məskunlaşan respondentlər inam və etimad baxımından nisbətən daha müsbət mövqe sərgiləyib. Nazirlər Kabinetinə inam və etimad mövqeyində respondentlərin gəlir və təhsil səviyyələri, yaş qrupları üzrə statistik əhəmiyyətli fərq qeydə alınmayıb.

Tədqiqat çərçivəsində regionlarda dövlət-cəmiyyət münasibətlərində mühüm determinantlardan birinə, dövlətlə bağlı əsas ictimai mövqe qurucularına çevrilən yerli icra hakimiyyətlərinə ictimai inam və etimad səviyyəsi də öyrənilib. Vətəndaş rəylərinin təhlilinə əsasən, onların 30,3%-i yerli icra hakimiyyətlərinə tam, 28,9%-i əsasən etibar etdiyini bildirib. 4,5% respondent əsasən etibar etmədiyini, 31% respondent isə yerli icra hakimiyyətlərinə heç etibar etmədiyini bəyan edib. Respondentlərin 5,9%-bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

❖ Respondentlərin mövqeyində təhsil, gəlir səviyyəsi və yaş qrupu üzrə statistik əhəmiyyətli fərq qeydə alınmayıb. Şəhər ərazi vahidlərində məskunlaşanlar kənd və qəsəbələrdə yaşayanlarla müqayisədə yerli icra hakimiyyətlərinə daha az inam və etimad göstərib. Cari sorğu nəticələrinin əvvəlki dövrə aid nəticələrlə müqayisəsi yuxarı və yerli icra hakimiyyəti orqanlarına ictimai inam və etimad üzrə dinamikanın müxtəlif səviyyələrdə dəyişdiyini göstərir. Belə ki, Nazirlər Kabinetinə tam etibar etdiyini bəyan edənlər 2020-ci ilin iyun ayı üzrə 27,9%, 2021-ci ilin mart ayı üzrə 31,8% və cari sorğu üzrə 36,3% təşkil edib. Həmçinin heç etibar etmədiyini bəyan edənlər müvafiq olaraq 2020-ci ilin iyun ayı üzrə 15%, 2021-ci ilin mart ayı üzrə 23,5% və cari sorğu üzrə 19,2% təşkil edib. Yerli icra hakimiyyətlərinə tam etibar etdiyini bəyan edənlər 2020-ci ilin iyun ayı üzrə 30,7%, 2021-ci ilin mart ayı üzrə 27,4% və cari sorğu üzrə 30,3% olub. Heç etibar etmədiyini qeyd edənlər isə müvafiq dövrlər üzrə 18,7%, 39,1% və 31% təşkil edib.






# Nəticə

❐ Ümumilikdə postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci il dövlət başçısının fəaliyyətində, həmişə olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə fərqlənir. Respondentlərin ölkə həyatında müxtəlif aktual məsələlərlə, yaxud dövlət qurumlarının fəaliyyəti ilə bağlı mövqeləri bu və ya digər dərəcələrdə fərqlənərkən, Prezidentə inam və etimadda birləşir, vahidlik, monolitlik təcəssüm etdirir. Belə ki, STM tərəfindən keçirilən sorğunun nəticələri Prezidentə ictimai inam və etimadın yüksək olduğunu deməyə əsas verir.

❐ I Vitse-prezidentə münasibətdə də respondentlərin etibarlılıq səviyyəsi yüksəkdir. Nəticələrin təhlili respondentlərin mütləq əksəriyyətinin mənsub olduğu yaş qrupundan, təhsil və gəlir səviyyəsindən, yaşadığı ərazidən asılı olmayaraq Prezidentə və I Vitse-prezidentə inam və etimadının yüksək olduğunu göstərir.

❐ Rəy sorğusunda hakimiyyətin digər qollarına, parlament və məhkəmə institutlarına ictimai inam və etimad səviyyəsi də öyrənilib. Nəticələr məhkəmə institutlarına olan inam və etimadla parlamentə olan münasibət arasında uyğunluq olduğunu göstərir. Belə ki, təqribən hər üç respondentdən ikisi parlament və məhkəmə orqanlarına bu və ya digər dərəcədə etibar etdiyini qeyd edib.

❐ Tədqiqat çərçivəsində Nazirlər Kabinetinə və yerli icra hakimiyyəti orqanlarına ictimai etimad dərəcəsi də müəyyən olunub. Hər dörd respondentdən üçü Nazirlər Kabinetinə, təqribən hər üç respondentdən ikisi yerli icra hakimiyyətlərinə bu və ya digər dərəcədə etimadı olduğunu bildirib.

❐ Dövlət başçısının orduda islahatlar, hərbi əməkdaşlıq və təlimlərin genişləndirilməsi, azad edilmiş ərazilərdə böyük quruculuq, bərpa tədbirləri və qayıdışa hazırlıq işləri, xarici siyasət üzrə yüksək strateji fəaliyyəti vətəndaş rəyində ən yüksək göstəricilərlə xarakterizə olunur.

❐ Əldə olunan nəticələrin təhlilinə əsasən, sorğuda əksini tapan üç sahə - mülki təhlükəsizliyin təmin olunması, pandemiya ilə mübarizə və iqtisadiyyatın gücləndirilməsi üzrə aidiyyəti dövlət strukturlarının fəaliyyəti vətəndaşların yarıdan çoxu tərəfindən tam səmərəli kimi qiymətləndirilib. Digər sahələr üzrə müvafiq strukturların fəaliyyəti nisbətən aşağı qiymətləndirilməklə sonuncu sıralarda sosial müdafiə, büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi və qiymət artımının qarşısının alınması üzrə fəaliyyətlər qərarlaşıb.

❐ Nəticələrin təhlili Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibət ilə ayrı-ayrı dövlət strukturlarının müvafiq istiqamətlərdə fəaliyyətinə ictimai mövqenin bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyini göstərir.

❐ Respondentlərin Prezidentin son aylarda Qarabağa intensiv səfərlərində ən çox təqdir etdikləri məqamlar sırasında ilk yerdə böyük qayıdış və quruculuq işləri ilə yaxından tanışlığı və bu işlərə şəxsən nəzarət etməsi qərarlaşıb.

❐ Sorğuda iştirak edənlərin mütləq əksəriyyəti Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması, Böyük Qayıdış planları ilə bağlı verilən qərarları (mesajları), o cümlədən işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi, sosial həyat səviyyəsinin yüksəldilməsi və təhlükəsizliyə töhfənin verilməsi məqsədilə “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” layihələrinin həyata keçirilməsini yüksək qiymətləndirib. Sorğuda iştirak edənlərin sözügedən layihələrin icra olunması ilə bağlı gözləntiləri yüksəkdir.

❐ Sorğunun nəticələrinə əsasən, Prezidentin regionun idarəetmə strukturunun təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman respondentlər tərəfindən təqdir edilir. Belə ki, respondentlərin əksəriyyəti Prezidentin fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının tarixi, siyasi, iqtisadi perspektivlərini müsbət qiymətləndirib.

❐ Respondentlərin əksəriyyəti tərəfindən Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması ilə Azərbaycanın öz eksklavı olan Naxçıvanla və qardaş ölkə Türkiyə ilə əlaqələrinin güclənəcəyinə, Türk dünyasında birliyin güclənməsinə xidmət edəcəyinə, Azərbaycanın (Naxçıvanın) Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxış imkanlarının genişlənəcəyinə, həmçinin Türkiyə və Azərbaycanın Türk dünyasına birbaşa çıxışının təmin ediləcəyinə əminlik ifadə olunub.

❐ Sorğu iştirakçılarının fikrincə, Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılması, Zəngilan və Laçında hava limanlarının inşası həm sosial-iqtisadi, həm də strateji cəhətdən olduqca mühüm əhəmiyyət kəsb edir, bununla da regionun nəqliyyat imkanları daha da genişləndirilir. Respondentlərin qənaətinə

görə, Füzuli Beynəlxalq Hava Limanının açılması, Zəngilan və Laçında hava limanlarının inşası Azərbaycanın turizm sektorunun inkişafına müsbət təsir edəcək, regionda iqtisadi inkişafa töhfə verəcək, məşğulluğu təmin edəcək, regionun logistika və ixrac imkanlarını artıracaqdır.

❒ Sorğu iştirakçıları işğaldan azad olunmuş ərazilərdə maddi-mədəni, mənəvi, dini abidələrimizin bərpasını yüksək qiymətləndiriblər. Onların fikrincə, bu addım Azərbaycan mədəniyyəti və dövlətçiliyi tarixində mühüm hadisədir, xalqın milli mədəni varlığını, keçmişini, tarixini qoruyub saxlamaq və ona sahib çıxmaq məqsədinin göstəricisidir.

❒ Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə Moskvaya işgüzar səfəri çərçivəsində Vladimir Putinlə keçirilən görüşünün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorunması baxımından əhəmiyyətini respondentlərin mütləq əksəriyyəti müsbət qiymətləndirib.

❒ Rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə arasındakı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qaldıracağını, Türkiyə ilə birbaşa təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı yeni mərhələyə daşıyacağını, Azərbaycan və Türkiyənin Türk dünyasının milli maraqları və türk həmrəyliyi üçün örnək rolunu oynayacağını düşünür.

❒ Prezident İlham Əliyev ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirib. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Sorğuda iştirak edən respondentlərin Prezident İlham Əliyevin türk dövlətlərinin birliyinin möhkəmləndirilməsində rolunu yüksək qiymətləndirməsi bu istiqamətdə aparılan dövlət siyasətini ictimaiyyətin diqqətdə saxlamasından xəbər verir.

❒ Respondentlərin qənaətinə görə, Prezident İlham Əliyevin “Türk Dünyasının Ali Ordeni” ilə təltif olunması Ali Baş Komandanın Türk dünyasının güclü hərbi sərkərdəsi olmasının, XXI əsr müharibəsində qalib gələn ölkənin Türk dövləti olmasının, Türkdilli ölkələr və xalqlar arasında dostluq, qardaşlıq və əməkdaşlığın daha da möhkəmləndirilməsindəki xidmətin, Türk dünyasının birliyinin daha da güclənməsi işinə tarixi-siyasi töhfənin, ölkə rəhbərinin beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzunun, Zəngəzur dəhlizi ilə türk dövlətləri arasında əməkdaşlığın inkişafına verdiyi töhfənin, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə verilən önəmin, təşkilatın fəaliyyətinin gücləndirilməsi istiqamətində göstərilən səylərin göstəricisidir.

❒ Sorğuda iştirak edən respondentlər bu qənaəti tam şəkildə bölüşürlər ki, Prezident Qələbənin memarı kimi qlobal platformalarda intensiv çıxışları ilə Zəfər tariximizi uğurla beynəlxalq aləmə tanıdır, Zəfərin tarixiləşdirilməsində vətəndaş iştirakçılığını və ümummilli həmrəyliyi stimullaşdırır, Azərbaycanın informasiya siyasətində üstünlüyünü təmin edir və bu yöndə fəaliyyətə dair yeni imkanlar açır, milli maraqlarımıza zidd cəhdlərə və xarici təsirlərə qarşı müqaviməti gücləndirir.

❒ Respondentlər bu fikirdədirlər ki, dövlət başçısının “gənc nəsil mənfi təsirlərdən uzaq olmalı və Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır” fikri gənclərimizin milli ruhda tərbiyəsində şəhidlərimizin, qazilərimizin və müharibə iştirakçılarımızın həyat yolunun örnək kimi götürülməsini, tariximizin təbliğində gənclərin daha aktiv və çevik fəaliyyətini, gənclərin milli ideologiya ətrafında birləşməsinin vacibliyini, tarixi yaddaş siyasətinin formalaşmasında gənclərin yaxından iştirakının zəruriliyini, yeni tarixi mərhələdə dövlət siyasətində gənclərə xüsusi yerin ayrılmasını ifadə edir.

❒ Sorğuda Azərbaycan cəmiyyətinin regional təhlükəsizliyin təminatı baxımından hansı ölkələrlə hərbi-siyasi əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə üstünlük verdiyi də öyrənilib. Sorğunun nəticələrində Türkiyə əsas müttəfiq ölkə, tərəfdaş kimi ilk sırada qərarlaşıb. Növbəti sıralarda Pakistanın, Rusiyanın və digər ölkələrin adı qeyd olunub.

❒ Sorğunun nəticələri göstərir ki, ictimai rəydə/tarixi yaddaşda Vətən müharibəsindəki Zəfərimizdən keçən 1 il xalqımızın Vətən müharibəsində qələbəmizin nə qədər böyük və tarixi hadisə olmasına bir daha əmin olması, milli birlik və həmrəyliyin nümayiş olunması, Azərbaycanın qalibiyyətinin dünyada geniş müzakirə olunması, qalib xalq kimi tanınmağın vacibliyi, məğlub xalq hissinin yox olması, ölkədəki hərbi vətənpərvərlik ruhunun daha da möhkəmlənməsi, Zəfər yarmarkası və Zəfər yürüşünə xalqın böyük diqqət göstərməsi, cəmiyyətdəki məğlubiyyət eyforiyası və psixoloji depressiyanın birdəfəlik aradan qalxması və xarici dövlətlərin Qələbə ilə bağlı təbrikləri ilə yadda qalıb.

❒ Postmüharibə dövründə Azərbaycan cəmiyyətinin mənəvi-psixoloji vəziyyətinin və əhval-ruhiyyəsinin rəy sorğusu əsasında öyrənilməsi göstərir ki, ictimai əhval-ruhiyyədə nəzərəçarpan yüksəliş başlanğıc etibarilə müharibədən əvvəlki dövrə təsadüf etməklə müharibənin müsbət nəticələnməsinin mühüm determinantlarından birinə çevrilib. Məlumatların təhlilinə görə, respondentlərin təqribən yarısı son günlərdəki mənəvi-psixoloji vəziyyətini yüksək, hər üç respondentdən biri isə orta dərəcəli kimi qiymətləndirib.

❒ Postmüharibə dövründə cəmiyyətin mənəvi-psixoloji durumu üzərində müəyyənedici amillərdən biri kimi onun sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərin aşkar olunması mühüm əhəmiyyət kəsb edir. Təqribən hər üç respondentdən biri sosial-iqtisadi vəziyyətinin ötən illə müqayisədə yaxşılaşdığını, eyni qədəri də sosial-iqtisadi vəziyyətinin dəyişmədiyini bildirib.

❒ Ümumilikdə sorğu iştirakçılarının yarıdan çoxu həyat məmnuniyyətini müsbət, hər üç respondentdən biri isə orta dərəcəli kimi qiymətləndirib. Nəticələrin təhlili respondentlərin həyat məmnuniyyəti ilə sosial-iqtisadi vəziyyəti arasında əlaqə olduğunu göstərib.

❒ Ötən il qazanılan hərbi-siyasi uğurun davam edən müsbət nəticələri, ölkəmizin xeyrinə dəyişən yeni geosiyasi reallıq, azad olunan torpaqlarda böyük quruculuq və bərpa işləri, icrasına başlanan nəqliyyat-kommunikasiya layihələrinin potensial faydaları kimi müxtəlif amillər fonunda cəmiyyətin maddi rifahı ilə bağlı gələcəyə dair gözləntiləri nikbinliklə xarakterizə olunur. Sorğuda iştirak edən respondentlərin yarıdan çoxu öz sosial-iqtisadi vəziyyətinin növbəti il bu və ya digər dərəcədə yaxşılaşacağı ehtimalını bölüşüb.

❒ Sorğu çərçivəsində cəmiyyətin mənəvi-psixoloji durumunun və gözləntilərinin təhlili ilə yanaşı, ölkənin sosial-iqtisadi və siyasi istiqamətlərdə vəziyyətinə dair ictimai mövqe və proqnozlara da yer verilib. Nəticələrin təhlili qeyd olunan hər iki istiqamət üzrə respondent rəyləri arasında müsbət əlaqə olduğunu göstərir. Rəyi öyrənilənlərin əksəriyyəti ölkənin mövcud sosial-iqtisadi və siyasi vəziyyətini müsbət qiymətləndirib. Təqribən hər on respondentdən biri siyasi vəziyyətlə bağlı mənfi mövqedən çıxış edib.

❒ Sorğu çərçivəsində sosial-iqtisadi və siyasi vəziyyətə münasibətlə yanaşı, cari il ərzində hadisələrin yüksək dinamikasından irəli gələrək vətəndaşların ölkədəki proseslərin ümumi gedişatına mövqeyi öyrənilib. Əldə olunan nəticələrə əsasən, respondentlərin mütləq əksəriyyəti ölkədə işlərin düzgün istiqamətdə davam etdiyi mövqeyini bölüşür.

❒ Postmüharibə dövründə cəmiyyətin nikbinlik səviyyəsi, ruh yüksəkliyi, həmrəylik mövqeyi onun hazırkı vəziyyətlə yanaşı gələcək gözləntilərinə də müsbət mənada təsir göstərib. Sorğu iştirakçılarının mütləq əksəriyyəti daxili və xarici siyasi vəziyyət üzrə gələcək imkanları müsbət mövqedən qiymətləndirib.

❒ Sorğu çərçivəsində vətəndaşlardan hazırda Azərbaycanda əsas problemlər kimi hansı məsələləri gördükləri soruşulub. Rəylər arasında ilk sıralarda məşğulluğun təminatı, qiymətlərin bahalaşması, maddi təminat məsələləri qərarlaşıb. Qeyd edək ki, məşğulluğun təminatı məsələsi xüsusən müharibə iştirakçılarının, qazilərin əmək fəaliyyətinin təminatı, iqtisadi həyata inteqrasiyası baxımından əhəmiyyət kəsb etməklə, bu sahədə problemlərin həlli istiqamətində tədbirlər hazırda həm dövlətin, həm də cəmiyyətin prioritetləri sırasındadır.

❒ Sorğu nəticələrinin təhlili ictimai gözləntilərlə həyata keçirilən dövlət siyasəti arasında uyğunluğu qeyd etməyə əsas verir. Dövlət başçısı tərəfindən müvafiq qurumlar qarşısında qaldırılan məsələlər, verilən tapşırıqlar ictimai gözləntiləri əks etdirir. Bu baxımdan sorğu nəticələrində qeydə alınan gözlənti və tələblər məhz yerli instansiyaların, aidiyyəti qurumların fəaliyyətindən irəli gələn məqamlar hesab olunur. Postmüharibə dövrünün həssas reallığı və davam edən pandemiyanın mənfi təsirləri sözügedən tələb və gözləntiləri daha da aktuallaşdırır. Əldə olunan nəticələrin təhlilinə əsasən məşğulluğun təminatı və yeni iş yerlərinin yaradılması, şəhid ailələrinin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksəldilməsi, sosial rifahın daha da yaxşılaşdırılması Prezidentdən ictimai gözləntilər arasında ilk sırada qərarlaşıb.

❒ Dövlət başçısının azad olunan rayonlarda keçmiş qaçqın və məcburi köçkünlərlə görüşləri, media mənsublarına müsahibələri və müxtəlif platformalarda çıxışlarına dair əsas informasiya mənbələri kimi vətəndaş rəylərində ilk sıralarda televiziya kanalları, sosial şəbəkələr və internet saytları qərarlaşıb.

# QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az